
الله
رسول
محمد
بسم الله الرحمن الرحيم



# İSLAM TERRORU LƏNƏTLƏYİR

*İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq.*

*(Məryəm surəsi, 96)*

ADNAN OKTAR
(HARUN Y HYA)

T RCÜM ÇI:
RAMIQ V LIYEV





# İSLAM TERRORU LƏNƏTLƏYİR

ADNAN OKTAR
(HARUN YƏHYA)



# MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30 000 şəklin olduğu cəmi 45 000 səhifəlik külliyyatdır və bu külliyyat 76 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox başqa ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban,



rus, boşnak, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, suahili (Tanzaniyada işlədilir), hausa (Afrikada geniş işlədilir), divehi (Maldiv adalarında işlədilir), danimarka və isveç kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd bir tərəfində böyük rəğbətlə qarşılanan bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanının dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər batil görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və əhəmiyyətli bir təsiri olmayan ümumi təcrübə ilə kifayətlənən kitabları yaymaq isə zəhmət və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, dürüstlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Oxucuya

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.
- Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.
- Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.
- Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.
- Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.
- Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.
- Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# MÜNDƏRİCAT


Ön söz ..........10

Giriş ..........13

İslam əxlaqı sülhün və təhlükəsizliyin mənbəyidir ..........19

Qurana əsasən, şəriət, cihad və savaş ..........42

Radikalizmin yanlışlığı və həqiqətlər ..........105

Din adından terror törədənlərin iç üzü ..........161

İslamın kitab əhlinə münasibəti ..........187

İslam Yaxın Şərqə sülh və hüzur gətirmişdir ..........219

Terrorizmin əsas qaynağı: darvinizm və materializm ..........231

Nəticə: Qərb dünyası üçün məsləhətlər ..........271

Əlavə bölmə: Təkamül yalanı ..........279

## Ön söz

Bu kitab 2001-ci ildə ABŞ-ın iki böyük şəhərinə edilən 11 sentyabr hücumlarından sonra qələmə alınıb və İslam dininin terroru lənətlədiyi Quran ayələri, peyğəmbərimiz hz. Muhəmmədin (səv) həyatı və İslam tarixindən nümunələr verilməklə izah olunub. Lakin 11 sentyabr hadisələrindən sonra hücumlar bitmədi: İngiltərə, İspaniya, Türkiyə, Fransa və dünyanın bir çox yerində terror hücumları davam etdi. Bu vəziyyət siyasətçiləri, akademikləri, dini liderləri, yazıçıları, bir sözlə, bütün vicdanlı insanları "terror problemi necə həll oluna bilər, terrorun qaynağı nədir, nə etməliyik" kimi suallar üzərində bir daha düşünməyə vadar etdi.



Bundan əvvəl, 2002-ci ildə qələmə aldığımız bu kitabda terrorçuların, xüsusilə terror təşkilatları liderlərinin darvinist və materialist təlimlərdən təsirləndiyini sübut etmişdik. Onların insanı heyvan kimi görən, həyatı yalnız güclü olanların yaşadığı mübarizə yeri kimi qəbul edən, hədəfə çatmağın savaş və şiddətdən keçdiyinə inanan eqoist və mərhəmətsiz insanlar olduğunu açıqlamışdıq. Əl-Qaidənin aktiv olduğu dövrdən sonra, xüsusilə son zamanlarda İslamın simvollarından istifadə edib mülki vətəndaşları hədəf alan terror təşkilatları ortaya çıxdı. Bunun kimi şiddət qruplarının dünyanın hər tərəfindən gəlib qatılan



**Bir terror aktına müqəssir axtararkən mənbəyini dinsizlikdə axtarmaq lazımdır. Çünki din əxlaqı sevgini, mərhəməti, bağışlayıcı olmağı və sülhü əmr etdiyi halda, terror amansızlıq və şiddət tərəfdarıdır. Qan töküb öldürməyi və əzab çəkdirməyi istər.**

insanlar sayəsində daha da güclənməsi siyasi və dini liderləri yuxarıdakı suallara cavab axtarmağa yönəltmişdir. Xüsusilə də Fransanın mərkəzi yerlərindən birində həyata keçirilən "Çarli Hebdo" hücumu bir daha göstərdi ki, bir çox terror hücumunun təməlində İslam dininə sonradan edilən əlavələr və terror aktlarına zəmin hazırlayan xurafatçı fikirlər durur.

Bu düşüncə İslam dininin müharibəyə qarşı sülhü, ölümə qarşı yaşamağı, cəzalandırmağa qarşı bağışlamağı hədəf alan münasibətindən tamamilə uzaqdır. Müsəlman olmayanlara, hətta İslamı fərqli şəkildə anlayıb tətbiq edənlərə, yaxud da fərqli məzhəbdən olanlara şiddət göstərməyi məşru (şəriətin izin verdiyi) görən xurafatçı zehniyyət hazırda bütün dünyanı təhdid edən böyük bəladır. Kitabın genişləndirilmiş nəşrinə xurafatçı din anlayışından qaynaqlanan terrorun səbəbləri və terror təşkilatları ilə necə fikri mübarizə aparılması haqqında məqalələr əlavə edilmişdir. Birinci istəyimiz budur ki, həlli silahda axtaranlar yanlış fəlsəfi və dini izahların hərbi müdaxilələrlə ortadan qalxmayacağını anlasınlar. Bundan başqa, silaha xərclənən pullar kütlələrin təhsili üçün istifadə olunmalıdır və bütün dünyanı bürüyən bu bataqlığı qurutmaq üçün İslam dünyasından ağıllı, aydın fikirli və modern müsəlmanlarla əməkdaşlıq edilməlidir.



# GİRİŞ

*Həqiqətən, Allah ədalətli olmağı,*
*yaxşılıq etməyi və qohumlara (haqqını)*
*verməyi əmr edir, iyrənc işlər görməyi,*
*pis əməllər törətməyi və azğınlıq etməyi*
*isə qadağan edir. O, sizə öyüd-nəsihət*
*verir ki, bəlkə, düşünüb ibrət alasınız.*
*(Məryəm surəsi, 90)*

2001-ci il, sentyabrın 11-də ABŞ-ın iki böyük şəhərinə qarşı təşkil edilən, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnən terror hücumlarını bir müsəlman kimi qəti şəkildə lənətləyir və Amerika xalqına başsağlığı veririk. Bu hücumlar terrorun əsil mənbəyi ilə əlaqədar olan çox əhəmiyyətli mövzunu dünyanın diqqət mərkəzinə gətirdi və bu vasitə ilə İslamın sülh və xeyirxahlıq dini olduğunu, insanlara mərhəmət və ədaləti əmr etdiyini bütün dünyaya geniş şəkildə göstərdi. Ayrı-ayrı ölkələrin liderləri, dünyanın ən nüfuzlu mətbuat vasitələri, televiziya və radiolar həqiqi İslamın terrorizm və gərginliyə heç bir zaman izin vermədiyini, onun insanlar və cəmiyyətlər arasında daim sülh yaradılmasını əmr etdiyini öz cəmiyyətlərinə dəfələrlə bildirdilər. İslam dinini yaxından araşdıran və Allahın Quranda əmr etdiyi həqiqi İslam dinini yaxşı tanıyan əksər qərb dairələri "İslam" və "terror" kəlmələrinin birlikdə işlədilməsinin qətiyyən mümkün olmadığını, ilahi dinlərin əsla gərginliyə və amansızlığa yol vermədiyini yaxşı bilirlər.

Bu kitabın əsas mövzusu da ondan ibarətdir ki, lənətlədiyimiz bu vəhşiliyin qaynağı digər ilahi dinlər olmadığı kimi, İslam dini də deyil. Bu həqiqəti İslam dininin yeganə mənbəyi olan Quranda, Peyğəmbərimiz hz. Muhəmməd (səv) başda olmaqla, tarix boyu yaşamış bütün müsəlman rəhbərlərin fəaliyyət və nəsihətlərində açıq-aşkar görə bilərik. Təbii ki, sonradan əlavə edilən və şiddətə zəmin hazırlayan uydurma hədislər və xurafatlara əsaslanaraq İslam dinini yaşayan qruplar tarix boyu yaşamış və dinimizin qəti qadağan etdiyi terror aktlarını həyata keçirmişlər. Bu səbəblə də İslamın terroru qadağan etdiyini və terrorizmi, vəhşiliyi, bütün qeyri-insani əməlləri, amansızlığı və qəddarlığı haram buyurduğunu bu kitabda Quran ayələrinin işığında tarixi nümunələrlə və bütün dəlilləri ilə ortaya qoyacağıq.

Bəlli olduğu kimi, əsrlərdən bəri dünyanın müxtəlif bölgələrində terror əməliyyatları həyata keçirilir. Hər biri fərqli qruplar tərəfindən və müxtəlif məqsədlərlə həyata keçirilən bu əməliyyatlara görə məsuliyyəti bəzən bir kommunist təşkilatı, bəzən faşist qrupu, bəzən də radikal və ya separatçı dairələr öz üzərinə götürür. Amerika kimi ölkələr tez-tez irqçi və marjinal terror qrupları tərəfindən gerçəkləşdirilən hücumlara məruz qaldığı halda, Avropa ölkələrində çeşidli terror təşkilatları tərəfindən irimiqyaslı və amansız terror aktları həyata keçirilir. Yunanıstanda “17 noyabr”, Almaniyada RAF, İspaniyada ETA, yenə Almaniyada neonasist qruplar, İtaliyada “Qırmızı briqadalar” və daha neçə-neçə təşkilatlar səslərini terror və amansızlıq üsulları ilə eşitdirməyə çalışır, heç bir günahı olmayan, müdafiəsiz insanları vəhşicəsinə qətlə yetirirlər. Türkiyənin cənub-şərqində də marksist-stalinist terror təşkilatı olan PKK 30 ildir ki, terror aktları həyata keçirir və bu müddət ərzində on minlərlə insanı şəhid edib. Terro-

run əhatə dairəsi və təsir gücü, xüsusilə də internet kimi kütləvi informasiya vasitələrinin imkanları hesabına daha da genişlənir. Qərb mənşəli təşkilatlarla yanaşı, Yaxın Şərq mənşəli terror təşkilatları da var. Belə ki, dünyanın hər tərəfindəki terror hadisələrinin məsuliyyətini məhz bu qruplar öz üzərinə götürür və öz əməllərini həyata keçirməyə davam edirlər. Ancaq burada çox önəmli olan faktı da




**Əsrlərdir dünyanın müxtəlif bölgələrində müxtəlif qruplar tərəfindən fərqli məqsədlərlə terror aktları həyata keçirilir. Yunanıstanda "17 noyabr", Almaniyada RAF, İspaniyada ETA, yenə Almaniyada neonasist qruplar, İtaliyada "Qızıl briqadalar" və daha neçə-neçə təşkilatlar terror və şiddət tətbiq edərək heç bir günahı olmayan, müdafiəsiz insanları vəhşicəsinə qətlə yetirirlər.**
**Türkiyənin cənub-şərqində də marksist və stalinist terror təşkilatı olan PKK 40 ilə yaxın müddətdir ki, həyata keçirdiyi terror aktları ilə on minlərlə insanı şəhid etmişdir.**

vurğulamaq lazımdır. Belə terror aktlarını həyata keçirən insanların xristian, müsəlman və ya yəhudi adı daşıması bəzi insanların yanlış qənaətə gəlməsinə və onlarda ilahi dinlər haqqında qərəzli fikirlər formalaşmasına səbəb olur.

Terrorçuların müsəlman adı daşıması və onların şəxsiyyət vəsiqəsində müsəlman yazılması belələrinin törətdiyi cinayətlərə "İslam terroru" deyilməsinə haqq qazandırmır. Bu sözlər eyni qaydada xristian və yəhudilərə də aiddir. Çünki kitabın növbəti bölmələrində də bildirdiyimiz kimi, günahsız insanların **ilahi din adı altında** öldürülməsi mümkün deyil.

Bu insanlar xurafatlarla Allahın bəşəriyyəti sülh və qardaşlığa çağırmaq üçün endirdiyi müqəddəs kitabları yanlış şərh edərək özlərindən fərqli düşünənlərə qarşı şiddəti qanuniləşdirirlər. Əslində, onlar bu əməlləri ilə dinin əmrlərinə qarşı çıxırlar. Yaddan çıxarmaq olmaz ki, sentyabrın 11-də Nyu-York və Vaşinqtonda qətlə yetirilmiş insanlar arasında hz. İsanı sevənlər (xristianlar), hz. Musanı sevənlər (yəhudilər) və müsəlmanlar da vardı. Bu günahsız insanları öldürməyi Allah bağışlamaz və bu, cəhənnəm əzabı ilə nəticələnən böyük günahdır. Dinə inanan, qəlbində Allah qorxusu olan insan əsla belə şey etməz.

**Belə cinayətin səbəbkarları hər hansısa dinə mənsub olduqlarını iddia etsələr də, onlar ya öz mənfəətləri üçün dinin adını istifadə edirlər, yaxud da bu əməlləri cahilliklərindən və ya dinə olan düşmənçiliklərindən qaynaqlanır.** Çünki bu şiddət hadisələrindən sonra insanlar dindən soyuyur, dindarlara qarşı onlarda nifrət hissi yaranır. Bir sözlə, günahsız insanlara qarşı din adı altında edilən hər bir təcavüz, əslində, dinin özünə qarşı edilmiş təcavüzdür.

Din sevgi, mərhəmət və sülhü əmr edir. Terror isə dinin əksinədir, yəni mərhəmətsizdir; qan tökmək, öldürmək və acı çəkdirmək istəyir. Buna görə də

müəyyən terror aktının səbəbini tapmaq istəyərkən onun qaynağını dində və dindarlıqda deyil, dinsizlikdə axtarmaq lazımdır. Belə amansız və vəhşi hadisələrin mənbəyini faşist, kommunist, irqçi, materialist düşüncəli insanlarda axtarmaq lazımdır. Terrorçuların hansı adı daşıması, şəxsiyyət vəsiqələrində nə yazılması önəmli deyil. Bir adam günahsız insanları gözünü də qırpmadan öldürürsə, o, əlbəttə ki, dindar deyil və mütləq dinsizdir. Bu səbəblə də "İslam terroru" ifadəsi son dərəcə xətalı və kökündən yanlış anlayışdır. Əksinə, **İslama görə, terror adlandırdığımız əməllər böyük günah və cinayətdir. Bundan başqa, müsəlmanlar bunların qarşısını almaqla, eləcə də yer üzünə sülh və ədalət gətirməklə məsuliyyət daşıyırlar.**

*Allahın verdiyi ruzidən*
*yeyin-için, fəqət*
*yer üzündə öz həddinizi*
*aşaraq fəsad törətməyin!*
*(Bəqərə surəsi, 60)*



# İSLAM ƏXLAQI SÜLHÜN VƏ TƏHLÜKƏSİZLİYİN MƏNBƏYİDİR

Din adına ortaya çıxdığını bildirən insanların bir qismi, ola bilsin ki, o dini səhv anlayır və səhv tətbiq edir. Buna görə də həmin insanlara baxaraq o din haqqında fikir söyləmək yanlışdır. Dini tanımağın ən doğru yolu onun müqəddəs qaynağını araşdırmaqdır. İslamın müqəddəs mənbəyi Qurandır. Quran əxlaqı sevgi, şəfqət, ədalət, təvazökarlıq, fədakarlıq və sülh anlayışlarına əsaslanır. Bu əxlaqı həqiqi mənada yaşayan müsəlman son dərəcə kübar, ağıllı, təvazökar, ədalətli və kamil insandır, ətrafına daim rahatlıq və güvən hissi bəxş edir. Bu həqiqətə baxmayaraq, Quran və İslamiyyət son dövrlərdə qorxu kəlməsi ilə birgə anılmağa başlamış və islamofobiya yayılmışdır. Halbuki qorxunun qaynağı İslam deyil, xurafat dinidir. İslam adına ortaya çıxan radikallar və onlardan qorxan islamofoblar eyni səhvi edirlər. Heç biri gerçək İslamın sevgisiz və nifrət dolu xurafat dini ilə əlaqəsinin olmadığını anlamamışlar. Odur ki, İslamı Quran əsasında insanlara tanıtmaq və İslamı terrorla əlaqələndirməyə çalışanların yanıldıqlarını göstərmək çox önəmlidir.

## İslamın sülh dini olduğunu demək kifayətdirmi?

Bir tərəfdən İslamın sevgi dini olduğunu deyib, digər tərəfdən namaz qılmayan, oruc tutmayan, hətta saqqal saxlamayan insanların öldürülməsini əmr edən qaynaqların mövcudluğu ziddiyyətli və çox təhlükəlidir. İslamın qadınlara dəyər verdiyindən bəhs edənlərin "qadınlar nə desə, tərsini edin", "qadınlar əskikdir", "cəhənnəm əhlinin çoxu qadınlardan ibarətdir" kimi saxta hədislərin əsassız olduğunu qəbul etməməsi böyük problemdir. İslama sonradan daxil edilən və Quranla ziddiyyət təşkil edən nifrət və şiddət dolu ifadələrin hamısı ortadan qalxmayınca İslamın sülh dini olduğunu demək kifayət deyil.

Qurana görə, əlbəttə, müsəlmanlar sevgi dolu və mərhəmətli olmalıdır və heç kimin bir başqasına təzyiq göstərməyə haqqı yoxdur. Lakin məsələ İslam aləminin bir qisminin Qurana deyil, bir neçə batil adətlərə və xurafatlara əsasən davranmasıdır. Dolayısı ilə, yuxarıda yalnız bir-iki nümunəsini verdiyimiz xurafatlar tamamilə təmizlənmədikcə və müsəlmanlar Qurana yönəlmədikcə İslam adından zorakılıq tətbiq edənlərin önünü kəsmək mümkün olmayacaq.

Sənət, elm və texnologiyanı müsəlmanlara qadağan edən və bunları İslam kimi tanıdıb müsəlmanları əzilməyə məhkum edənlərin təsirini ortadan qaldırmağın tək yolu təhsildir.

Qərb təhsil sistemi, şübhəsiz ki, lazımlıdır. Lakin Qərbdə təlim-tərbiyə gördüyü halda, Şərqə və Afrikaya gedib terrorçu qruplara qatılan insanların sayı da az deyil. Bu halda, bu sualın cavabı verilməlidir: hər yöndən yaxşı yetişmiş gənclər terrora necə meyil edir?

Diqqətlə araşdırıldıqda bu problemin təməlində istər Qərbdə, istərsə də




**İslama sonradan əlavə edilmiş və Quranla ziddiyyət təşkil edən nifrət, qəzəb, şiddət dolu ifadələrin hamısı aradan qaldırılmadan "müsəlmanlar sevgi doludur" və yaxud "İslam sülh dinidir" demək kifayət etmir.**

İslam dünyasında çox rast gəlinən və şiddətə zəmin hazırlayan təlimlərin olduğu görünər. Qərb təhsilinin təməlindəki darvinist düşüncədən qaynaqlanan mənfi ünsürlər hər kəsə məlumdur, bu kitabın növbəti səhifələrində onlardan geniş bəhs edəcəyik.

Bunu nəzərinizə çatdıraq ki, bəzi şiə və sünni qaynaqlarının şiddəti təşviq etməsi görməzlikdən gəlinir və gənclərə öncəliklə bu qaynaqlar öyrədilir. Quranda nə yazıldığını belə bilməyən, bildiklərini isə xurafatçı düşüncənin izahları əsasında öyrənən nəsil şiddətə asanlıqla meyil edir. Beləliklə, terrorun səbəbi

ilahi din deyil, xurafat məntiqi ilə qarışdırılmış darvinist təlim-tərbiyədir. Terrorun qəti həlli xurafatdan uzaq və Qurana əsaslanan İslamın öyrədilməsindədir.

## İslam sülh dinidir

Terrorun əsas mənası qeyri-hərbi, yəni mülki hədəflərə qarşı siyasi məqsədlə güc tətbiq etməkdir. Başqa sözlə desək, terrorun hədəfləri tamamilə günahsız dinc insanlardır. Bu insanların yeganə "günahı" terrorçunun gözündə qarşı tərəf – onlardan olmayan tərəf olmalarıdır. Bu səbəblə də terror günahsız insanlara qarşı zor tətbiq etməkdir ki, bunun da heç bir üzrlü səbəbi yoxdur. Bu, Hitlerin və ya Stalinin cinayətləri kimi, insanlığa qarşı edilmiş günahdır. İman gətirənlər üçün isə bu, Allahın qəti qadağan etdiyi əmrinə qarşı çıxmaqdır. İslamı terrorla əlaqələndirməyə çalışanlar birinci bu həqiqəti anlamalıdırlar.

Quran Allahın insanlara yol göstərici kimi endirdiyi kitabdır və Allah Quranda insanlara gözəl əxlaqı əmr edir. Bu əxlaqın əsasında isə sevgi, şəfqət, xeyirxahlıq, ədalət və mərhəmət kimi anlayışlar dayanır. Ərəb dilində "İslam" kəlməsi "sülh" sözü ilə eyni məna daşıyır. İslam Allahın sonsuz mərhəmət və şəfqətini özündə əks etdirən və insanlara sülh dolu həyat bəxş etmək üçün yer üzünə endirilən dindir. Bir Quran ayəsində insanlar İslam əxlaqına belə çağırılır:

> **Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir! (Bəqərə surəsi, 208)**

Ayədən də göründüyü kimi, insanlar əmin-amanlığı Quran əxlaqına uyğun yaşamaqla əldə edə bilərlər. Quran əxlaqına görə, bir müsəlman bütün insanlarla

mehriban və ədalətli davranmaq, zəif və günahsızları qorumaq və yer üzündə fitnə-fəsadın qarşısını almaqla məsuliyyət daşıyır. Fitnə-fəsad insanların əmin-amanlığını, rahatlığını və sülhü pozan hər cür anarxiya və terror halıdır. Bir ayədə buyurulur ki, **Allah fitnə-fəsadı sevməz! (Bəqərə surəsi, 205)** Bir insanın günahsız yerə öldürülməsi isə ən böyük fitnə-fəsadlardan biridir. Allah öncədən Tövratda musəvilərə vəhy etdiyi bu əmri Quranda belə bildirir:

> **Kim bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. (Maidə surəsi, 32)**

**İslam Allahın sonsuz mərhəmət və şəfqətinin yer üzündə təzahür etdiyi hüzur və barış dolu həyatı insanlara vermək üçün endirilmiş dindir. İslam əxlaqının yaşandığı cəmiyyətdə sülh, əfvedicilik, sevgi, şəfqət, yardımlaşma, fədakarlıq və sevinc hakimdir.**





Göründüyü kimi, bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürən şəxs bütün insanları öldürmüş qədər günah qazanır. Bu halda terrorçuların törətdiyi cinayətin, soyqırımının və intihar hücumlarının nə qədər böyük günah olduğu açıq-aydındır. Allah terrorun axirətdəki "mükafatı"nın nə olacağını belə bildirir:

**Cəza ancaq insanlara zülm edənlərə, yer üzündə fitnə-fəsad törədənlərə verilər. Məhz belələrini şiddətli əzab gözləyir! (Şura surəsi, 42)**

Bütün bunlar onu göstərir ki, günahsız insanlara qarşı terror aktları törətmək İslama tamamilə ziddir və heç bir müsəlman belə günahı edə bilməz. Əksinə,



Terrorçuların hədəf aldığı dünyada şiddət, qarşıdurma və xaos mövcuddur.

müsəlmanlar günahların qarşısını almağa, yer üzündəki fitnə-fəsadı aradan qaldırmağa, bütün insanlara rahatlıq və əmin-amanlıq gətirməyə görə məsuliyyət daşıyırlar. İslam terrorla birgə təsəvvür edilə bilməz. İslam terrorun qarşısındakı ən böyük maneə və terrorizm probleminin həlli yoludur. Sülh İslamın təməli və ruhudur, lakin İslamı Qurana deyil, xurafatlara əsaslanaraq yaşayanlar bunun tam əksini tətbiq edirlər.

Xurafatçıların problemi xurafatları din kimi qəbul etmələridir. Çox qəribədir ki, xurafatçıların saxta dinini tənqid edənlər bəzən onları doğru zənn edib radikal olurlar. Qurandan dəlil gətirildikdə onlar da xurafatlardan dəlil gətirməyə çalışırlar. Elə ən böyük xətanı da burda edirlər. Əgər gerçək İslamı tanıyıb xurafatın həll yolunu tapmaq istəyirlərsə, Quranda bildirilən həqiqi dinə yönəlməlidirlər. Xurafat və İslam arasındakı fərq ortaya çıxarılmadıqca radikalizm və islamofobiya böyük bəla kimi dünyanı bürüməyə davam edəcək. Bu səbəbdən bütün dünyada Qurandakı gözəl əxlaq, yəni gerçək İslam hər fürsətdə anladılmalı və insanlara tanıdılmalıdır. Beləliklə, xurafatla İslam arasındakı fərq ortaya çıxarılmalıdır. Allahın fitnə-fəsadı qadağan etdiyi, gözəl əxlaqı təşviq etdiyi və düşüncə azadlığının, demokratiyanın ən gözəlinin Quranda olduğu açıqlanmalıdır.

## Allah fitnə-fəsadı qadağan etmişdir

Allah insanlara pislikdən çəkinməyi əmr etmiş, zülmü, əzab-əziyyəti, qəddarlığı, öldürməyi, qan tökməyi qadağan etmişdir. Quranın bu mövzudakı ayələrindən bəziləri belədir:

**Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri qırıb dağıdanlar, yer üzündə fitnə-fəsad salanlar isə lənətə düçar olacaqlar. Onları axirətin pis aqibəti gözləyir. (Rəd surəsi, 25)**

**Allahın verdiyi ruzidən yeyin-için, amma yer üzündə öz həddinizi aşaraq fəsad törətməyin. (Bəqərə surəsi, 60)**

**Yer üzü düzəldikdən sonra orada fəsad törətməyin. Allaha həm qorxu, həm də istəklə dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır. (Əraf surəsi, 56)**

Fitnə-fəsad və günahsız insanları öldürməklə müvəffəqiyyət qazanacaqlarını zənn edənlər yanılırlar. Çünki Allah həm də terror və amansızlıq mənasına gələn hər cür fitnə-fəsadı qadağan etmiş, bunlara yol verənləri lənətləmişdir.



**Allah bir insanı haqsız yerə öldürən şəxsin sanki bütün insanları öldürmüş kimi olacağını "Maidə" surəsinin 32-ci ayəsində bildirmişdir. Tək bir insanı belə qətlə yetirmək Quran əxlaqına tamamilə ziddir.**

Ancaq bu gün də dünyanın hər tərəfində terror hadisələri yaşanır, günahsız insanlar vəhşicəsinə öldürülürlər. Bir-birindən fərqli tarix, mədəniyyət və ictimai quruluşa malik olan ölkələrdə meydana gələn qanlı hadisələrin özünəməxsus səbəbləri ola bilər, ancaq kökündə Qurandan uzaqlaşmaq dayanır.

Dinsizlik nəticəsində Allah qorxusu olmayan, axirətdə əməllərinə görə hesab verəcəyinə inanmayıb: "Heç kim qarşısında məsuliyyət daşımıram ki", – deyə düşünən, hər cür əxlaqsızlığı və vicdansızlığı rahatlıqla edən insanlar yaranır. Allah və din adından ortaya çıxan və günah işlər görən ikiüzlü insanların var-



lığına Quranda da diqqət çəkilmişdir. Bəzi insanların Allah adına ortaya çıxması və Allaha and içib özlərini dindar kimi təqdim etməsi o insanların heç də dindar olduğunu göstərmir. Əksinə, belələri Allah rizasına və din əxlaqına tamamilə zidd işlər görə bilərlər. Bu məsələdə əsas meyar onların əməllərinin mahiyyətidir. Əgər onların gördüyü işlər ayədə də bildirildiyi kimi, yer üzündə fitnə-fəsad törətməkdirsə, bilin ki, o adamlar həqiqi dindar ola bilməz və onların məqsədi də dinə xidmət etmək deyil. Qəlbində Allah qorxusu olan və həqiqi İslam əxlaqını anlayan şəxs qətiyyən fitnəkar ola bilməz. Buna görə də terror probleminin köklü həll yolu əsil İslam əxlaqıdır. Quran əxlaqı xurafatlardan təmizlənmiş şəkildə təbliğ olunarsa, insanlar şiddət və cinayət törədən qruplara dəstək verməzlər. Allah Quranda fitnə-fəsadı qadağan etmişdir:

> **(O şəxs səndən) ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli məhv etməyə çalışar. Halbuki Allah fitnə-fəsadı sevməz! Ona: “Allahdan qorx!” - deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər. Beləsinə cəhənnəm kifayətdir. Ora nə pis məskəndir! (Bəqərə surəsi, 205-206)**

Allahdan qorxan adam dövlət və millətinə, ümumiyyətlə, bütün bəşəriyyətə ən kiçik zərərin belə toxunmasına göz yummaz. Allaha və axirət gününə inanmayan şəxs isə kimsəyə hesab verməyəcəyini zənn etdiyi üçün hər cür pis əxlaqı göstərə bilər. Bu gün də davam edən terror bəlasından qurtulmaq üçün ilk atılmalı addım dinsizliyin və din adı altında ortaya atılmış səhv inancların təlim vasitəsilə aradan qaldırılması, eləcə də insanlara Allah qorxusu və həqiqi Quran əxlaqının aşılanmasıdır.

## İslam yaxşılığı, ədaləti, gözəl olan hər şeyi təşviq edir

Terrorun səbəblərindən biri də fərqliliklərə gözəllik kimi baxılmamasıdır. Yaşadığımız dövrdə dünyanın hər tərəfində insanlar irqlərinə və ya dərilərinin rənginə görə ədalətsiz rəftar görürlər. Lakin Quranda bildirilir ki, fərqli xalq və qəbilələrin yaradılmasının hikmətlərindən biri insanların bir-birini tanımasıdır. Fərqli millətlər və ya qəbilələr bir-birini tanımalı, yəni bir-birinin mədəniyyətini, dilini və adətlərini öyrənməlidir. Müxtəlif irq və millətlərin mövcudluğunun məqsədi münaqişə və savaşlar deyil, mənəvi zənginlikdir. Bu müxtəliflik Allahın yaratmasındakı gözəllikdir. Bir insanın uzun, digərinin qısa boylu olması, birinin dərisinin ağ, digərinin sarı olması insana hər hansı üstünlük gətirmədiyi kimi, əskiklik kimi də xarakterizə edilə bilməz. Bunların hər biri Allahın təqdiri ilə və bir çox hikmətlə yaradılmışdır, bu müxtəlifliyin Allah qatında heç bir əhəmiyyəti yoxdur. İman gətirən şəxs yaxşı bilir ki, yeganə üstünlük təqva ilə, yəni Allah qorxusu və Allaha olan iman ilədir. Allah "Hücurat" surəsində bu həqiqəti belə bildirir:

> **Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir. (Hücurat surəsi, 13)**

Allahın tövsiyə etdiyi ədalət anlayışı heç bir ayrı-seçkiliyə yol vermədən bütün insanlara qarşı xoş davranmağı labüd edir. Misal olaraq deyə bilərik ki, bir insanın ədalətli qərar verməsinə və ağıllı davranmasına mane olan ünsürlərdən biri başqa şəxsə və ya cəmiyyətə olan kinidir.

Kin və qəzəbin hakim olduğu cəmiyyətlərdə hər kəs qarşısındakı insandan tezliklə pislik görəcəyini düşünür. Bir-birinə güvənməməyin nəticəsində yardımlaşmaq və mərhəmət göstərmək kimi insani xüsusiyyətləri itirir və digərlərinə nifrət etməyə başlayırlar. Lakin iman gətirən şəxsin bir cəmiyyətə və ya insana qarşı duyğuları onun verdiyi qərarlara qətiyyən təsir etmir. Möminlər qarşıdakı adam əxlaqsız olub düşmənçilik etsə də, qərar vermək lazım gəldikdə duyğularını kənara qoyub ədalətli davranar və ədaləti tövsiyə edərlər. O adama olan hissləri ağıllarının və vicdanlarının önünə keçməz. Vicdanı ona hər zaman Allahın əmr və tövsiyələrinə tabe olmağı, gözəl əxlaq göstərməyi bildirir. Çünki bu, Allahın iman gətirənlərə Quranda buyurduğu əmrdir. "Maidə" surəsində bu şəkildə bildirilir:

**Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır! (Maidə surəsi, 8)**

Ayədə də bildirildiyi kimi, Quran əxlaqı müsəlmandan ədalətli olmağı tələb edir. İman gətirən şəxs bilir ki, ancaq Allahın rizasını axtararsa, Allah ondan razı olar. Bundan başqa, onun gözəl əxlaqına şahid olan hər insan bu adama güvənər, onun yanında rahat olar və hər cür vəzifəni arxayınlıqla ona verər. Allahdan qorxan, mənəvi dəyərlərə əhəmiyyət verən və millətinə, vətəninə şövqlə xidmət edən şəxs cəmiyyətə faydalı olar. Bu səbəbdən insanların gerçək dini öyrənib Quran əxlaqını yaşamağı çox önəmlidir.

İslam əxlaqı yoxsulu, yetimi və ehtiyac içində olanı qorumağı, həmçinin yardımlaşmağı və yaxşılıq etməyi əmr edir.





## Allah bağışlamağı və mərhəməti əmr etmişdir

Allah ayələrdə bağışlamağın həmişə üstünlük olduğunu bildirmiş və **"Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs bağışlasa və barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, Allah zalımları sevməz!" (Şura surəsi, 40)** ayəsi ilə bu əxlaqı yaşayan insanları böyük əcrlə müjdələmişdir.

Allah Quranda insanlara haqsızlığa uğrasalar belə, bağışlamağın xeyirli olduğunu bildirmişdir. Bir ayədə belə deyilir:

**Onların az bir qismi istisna olmaqla, sən onlardan həmişə xəyanət görəcəksən. Bununla belə, onları bağışla, günahlarından keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər! (Maidə surəsi, 13)**

**Yaxşılıqla pislik eyni ola bilməz! Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən! (Fussilət surəsi, 34)**

## İslam fikir azadlığını müdafiə edir

İslam insanların həyat və düşüncə azadlığını təmin edir və buna zəmanət verir. İslam insanlar arasındakı gərginlik, anlaşılmazlıq və münaqişəni, hətta insanların bir-birinə zənlə yanaşmasını belə qadağan edir. İslam terrora qarşı çıxdığı kimi, insanlara təzyiq göstərməyi qadağan edir və bunu yolverilməz sayır.

**Dində məcburiyyət yoxdur. Şübhəsiz, doğruluq azğınlıqdan aydın fərqlənir. (Bəqərə surəsi, 256)**


Quran əxlaqının yaşandığı bir cəmiyyətə sülh, mərhəmət, bağışlama, sevgi, şəfqət, fədakarlıq və sevinc hakimdir.
Qurani Kərim

**Öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən! Sən onların üzərində hakim deyilsən! (Ğaşiyə surəsi, 21-22)**

İnsanların hər hansı dinə inanmağa və ya o dinin ibadətlərini yerinə yetirməyə məcbur edilməsi İslama ziddir. Çünki İslamda səmimi iman gətirmək azad iradə ilə mümkündür. Əlbəttə, müsəlmanlar bir-birini Quran əxlaqına təşviq edə bilərlər. Quran əxlaqının insanlara ən gözəl tərzdə təbliğ olunması bütün iman gətirənlərin üzərinə düşən məsuliyyətdir. İman gətirənlər **"İnsanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et" (Nəhl surəsi, 125)** ayəsinə əsasən, dinin gözəlliklərini izah edər və **"İnsanları doğru yola yönəltmək sənin borcun deyildir. Allah kimi istərsə, onu doğru yola istiqamətləndirər" (Bəqərə surəsi, 272)** ayəsinə uyğun davranarlar. Onlar əsla məcbur etməz və insanlara maddi-mənəvi təzyiq göstərməzlər. Həmçinin dünyəvi imtiyazlardan istifadə edib insanları dini yaşamağa yönləndirməzlər. Təbliğ etdiyi insanlar inkar etdikdə **"Sizin öz dininiz var, mənim də öz dinim!" (Kafirun surəsi, 6)** ayəsinə uyğun cavab verərlər.

Müsəlmanlar qarşıdakı şəxsin inancından asılı olmayaraq, ədalətli və insanpərvər davranmağa borcludurlar. İman gətirənlərin vəzifəsi insanları Allahın dininə gözəllik və xeyirxahlıqla dəvət etməkdir. İman gətirib-gətirməmək qarşı tərəfə aiddir. Bir adamı iman gətirməyə məcbur etmək, bəzi şeyləri zorla qəbul etdirməyə çalışmaq Quran əxlaqına uyğun deyil. Necə ki Allah Quranda iman gətirənlərə belə xatırladır:

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Yunis, surəsi, 99)**

İnsanları ibadət etməyə məcbur etmək İslama tamamilə ziddir. Çünki inanc və ibadət yalnız Allaha inandıqda və insanın azad seçimi ilə olduqda dəyərli olur. Əgər insanlar inanc və ibadətə məcbur edilirsə, bu halda, insanlar sadəcə o sistemdən qorxduqları üçün dindar olurlar. Halbuki İslam əxlaqına uyğun olan insanların dini sərbəst yaşamağıdır.

İslam tarixi bütün dinlərə hörmətlə yanaşan və söz azadlığını təmin edən müsəlman liderlərin nəcib əməlləri ilə zəngindir. Məsələn, Hindistan hökumətində işləyən ingilis missioneri Tomas Arnold İslamın azadlıqsevər xüsusiyyətini belə etiraf edir:

> *"...Nə qeyri-müsəlmanların qanunsuz olaraq müsəlman olmağa məcbur edilməsi, nə də zülm edilərək xristianların sıxışdırılması haqqında bir şey eşidilmişdir. Necə ki Ferdinand və İzabella İslamı İspaniyadan silib atmışdı, XIV Lüdoviq Fransada protestantlığı cinayət hesab etmişdi və yəhudilərin 350 il ərzində İngiltərəyə ayaq basmasına imkan verməmişdi, xəlifələr də bunlar kimi asanlıqla xristianlığı ölkələrində qadağan edə bilərdilər. Asiyadakı Şərq kilsəsi xristian dünyasının digər bütün bölgələri ilə müştərək dini fəaliyyətdən üz çevirdiyindən özünü dinsiz cəmiyyətlərdən sayan xristian dünyasının adıçəkilən qisimlərinə kömək üçün heç bir təşəbbüs də edilə bilməzdi. Beləcə, Şərq kilsələrinin dövrümüzə qədər varlığını davam etdirməsi Muhəmmədin (səv) yolunu izləyən hakimiyyətlərin xristianlar qarşısında mərhəmətli idarəetmə sərgilədiyinin güclü dəlillərindən biridir".*[1]







Din dəyişdirməyi qəbul etməyən yəhudilər 1492-ci ildə yuxarıda rəsmləri verilmiş İzabella və Ferdinand tərəfindən İspaniyadan sürgün olunmuş, onları qəbul edən ölkə isə mərhəmətli və ədalətli idarəsi ilə tanınan Osmanlı İmperiyası olmuşdur.

## Qurana görə, öldürmək ən böyük günahlardan biridir

Bir insanı günahsız yerə öldürmək Qurana görə, ən böyük günahlardan biridir:

**Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə, o, bütün insanları diriltmiş olur. Bizim peyğəmbərlərimiz İsrail oğullarına açıq möcüzələrlə gəlmişdilər. Bundan sonra da onların bir çoxu yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

**Onlar Allahla yanaşı, başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etməz, zina etməzlər. Hər kəs bunu etsə, cəzasını çəkər. (Furqan surəsi, 68)**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, günahsız insanları haqsız yerə öldürənlər böyük əzabla təhdid edilirlər. Allah tək bir adamı öldürməyin bütün

insanları öldürmək qədər ağır günah olduğunu buyurur. Allahın müəyyənləşdirdiyi həddi aşmayan möminin nəinki minlərlə günahsız insanı qətlə yetirmək, hətta bircə insana belə zərər vermək ehtimalı yoxdur.

Bunlar göstərir ki, İslamın insanlara verdiyi nəsihətlər bütün dünyaya hüzur və sülh gətirəcək əxlaqi xüsusiyyətlərdir. Hazırda dünyada aktual olan və terror adı verilən vəhşilik isə Quran əxlaqından tamamilə uzaq, dinlə heç bir əlaqəsi olmayan cahil və xurafatçı insanların – canilərin əsəridir. Bu vəhşilikləri din pərdəsi altında edən şəxs və qruplara qarşı tətbiq ediləcək yeganə mədəni həll gerçək İslam əxlaqının insanlara öyrədilməsidir. Başqa sözlə, xurafatın yanlışlığının ortaya çıxarılaraq tamamilə yox edilməsi və Qurana əsaslanan İslamın izah edilməsi terrorizm ideologiyasını kökündən məhv edəcək və yer üzünü bu bəladan xilas edəcək.



## İslam əxlaqı əsil demokratiyanın mənbəyidir

Allah insanlara asanlıq, rahatlıq və xoşbəxtlik diləyir və qullarına zülm etmir. Allahın buyurduğu din insanlara keyfiyyətli, rahat, hüzurlu və xoşbəxt həyatın necə yaşandığını göstərir. Dində məcburiyyət yoxdur, bir insan Allahın varlığını və birliyini ağıl və vicdanla görüb iman gətirər. Dinin buyurduğu ibadətlər qəlbən qəbul edilib yaşandıqda gözəl və məqbuldur.

Quranda vicdan və söz azadlığı mühiti təsvir edilir. Bunlar demokratiyanın xülasəsidir və bunun əsil qaynağı Qurandır. Sosial ədalət və bərabərlik axtaranlar ən gözəlini İslamda tapar.

### 1. Sosial ədalət: uca Allah sosial ədaləti və yardımlaşmağı əmr edir

Gerçək demokratiyada sosial ədalət təməl özəllikdir. İnsanlar sosial ədaləti hz. İbrahim və hz. Nuhdan öyrənmişlər. Dini qaynaqlara görə, hz. Nuh tufandan sonra çox az qalan noxud, mərcimək, üzüm və əncir kimi qidaların hamısını qarışdırıb bişirmişdir. Sonra gəmidə olan hər kəslə birlikdə hazırladığı yeməyi yemişdir. Bu, ən gözəl sosial ədalət nümunələrindən biridir. Çünki hər kəsə bərabərliyi və yardımlaşmağı öyrədir, insanlara yemək paylamağın əhəmiyyətini xatırladır.

**"Elçilərimiz İbrahimə müjdə gətirdilər və: "Salam!" – dedilər. O da: "Salam!"– dedi və dərhal qızardılmış bir buzov gətirdi" (Hud surəsi, 69)** ayəsində də xəbər verildiyi kimi, hz. İbrahim qonaqlar gələndə tez buzovu kəsib bişirmiş və onların önünə qoymuşdur. Uca Allah Quranda hz. İbrahimin heç tanımadığı şəxsləri qonaq etməsini gözəl davranış kimi göstərmişdir. Bundan başqa, hz.İbrahimin timsalında imkanı çatdığı qədər kasıblara əl tutmağın əhəmiyyətini bildirməklə sosial ədalətə diqqət çəkmişdir.

## 2. Bərabərlik: uca Allah Quranda irqlərə görə üstünlük olmadığını bildirir

Uca Allah bir Quran ayəsində üstünlüyün təqva ilə olduğunu bildirmişdir. Aşağıdakı ayədə belə buyurulur:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hücurat surəsi, 13)**

Bu həqiqəti Peyğəmbərimiz (səv) belə açıqlamışdır:

*Ey insanlar, hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar irqi ilə öyünməkdən mütləq uzaq durmalıdırlar. (Sünəni-Əbu Davud, 4/331)*

Peyğəmbərimiz (səv) vida xütbəsində də müsəlmanlara belə səslənmişdir:

*"Soylarla öyünmək olmaz. Ərəblər ərəb olduqlarına görə əcəmlərdən, əcəmlər də əcəm olduqlarına görə ərəblərdən üstün deyil. Çünki Allah qatında ən uca olanınız Ona qarşı çıxmaqdan ən çox qorxanınızdır (ən təqvalı olanınızdır).*

## 3. Ədalət: uca Allah ədaləti əmr edir

Allah Quranda möminlərə belə buyurur:

**Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! (Nisa surəsi, 135)**

Qurana uyğun olaraq peyğəmbərimiz hz. Muhəmmədin (səv) həm müsəlmanlar arasında verdiyi hökmlər, həm fərqli din, dil və irqə mənsub olan insanlarla ədalətli və şəfqətli davranması, eləcə də varlı-kasıb demədən hər kəslə xoş rəftar etməsi demokratiya anlayışına ən gözəl nümunələrdəndir.

## Demokratiya Allahın əmr etdiyi əxlaq anlayışının yaşanması ilə mümkündür

Göründüyü kimi, İslamda düşüncə, inanc və söz azadlığı vardır. Bəzi insanlar demokratiyanın insanlıq tarixinə qədim Yunanıstanla girdiyini düşünürlər. Halbuki insanlara demokratiyanı öyrədən Allahdır. Hz. Adəmdən bu yana bütün peyğəmbərlər azadlıq və demokratiyanın gerçək təmsilçiləri olmuşlar. Demokratiya deyildikdə insanların ağlına gələn ədalət, hörmət, söz azadlığı kimi anlayışların hamısı din əxlaqında mövcuddur. İnsanlar bunları tarix boyu Allahın endirdiyi haqq dinlər vasitəsilə öyrənmişlər və ən gözəl nümunələrinə haqq dinlərin yaşandığı zamanlarda şahid olmuşlar. İnsanlara düşüncələrinə görə zülm edildiyi, fərqli ideologiya və dinə mənsub insanların əzildiyi, elm və incəsənətin zəiflədiyi dövrlərə nəzər saldıqda ya dinsizliyin, ya da xurafatın təsirli olduğunu görürük. Haqq din Allahın əmr etdiyi kimi yaşanarsa, insanların arzuladığı gerçək ədalət və sevgi hər yerə hakim olar. Allahın izni ilə yaxın zamanda demokratiya, sevgi, dostluq və sülh tarixdə görünməmiş şəkildə bütün dünyaya hakim olacaq və insanlar imanın sevincini doyunca yaşayacaqlar. Quran ayələrində verilən əlamətlər, Peyğəmbərimizin (səv) hədisləri və böyük İslam alimlərinin

sözlərindən açıqca göründüyü kimi, yaşadığımız dövr axırzamandır.

Axırzamanın əziyyətli və çətin günləri hz. İsa və hz. Mehdinin vasitəsilə bu əsrdə sona çatacaq, dünya yeni aydınlıq dövrünə girəcək. Allahın varlığını, birliyini ən gözəl və hikmətli şəkildə anlatmaq, həmçinin insanlara Qurandakı və Əsri-səadət dövründəki İslamı izah etmək isə yaxın gələcəkdə qovuşacağımız rifah günlər üçün çox önəmli zəmin hazırlayacaq.

**Onlar cahiliyyə hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)**



*Həqiqətən də, Allah insanlara qarşı Şəfqətlidir, Rəhmlidir.*

*(Bəqərə surəsi, 143)*



# QURANA ƏSASƏN, ŞƏRİƏT, CİHAD VƏ SAVAŞ

Dünyadakı terror aktlarını İslam adından törətdiyini deyən və İslamı qorxu dini kimi göstərənlərin yanlış şərh etdiyi iki əsas anlayış vardır: şəriət və cihad.

Allah "Yusif" surəsinin 111-ci ayəsində Quranın hər şeyi **müfəssəl açıqladığını** bildirmişdir. Buna baxmayaraq, uydurma hədisləri özlərinə rəhbər tutan radikal dini qruplar Quranı qətiyyən yetərli görməmişlər. Odur ki, belə düşünən insanlar tarix boyu bir qisim Quran hökmlərinin açıq-aşkar anlaşılmadığını (Quranı tənzih edirik) və bunun üçün əlavə izahlara ehtiyac olduğunu iddia etmişlər. Beləliklə də, Quranın ancaq hədislər vasitəsilə tam başa düşüləcəyi iddiasını ortaya atmışlar.

Peyğəmbərimizin (səv) sözləri "hədislər" adı ilə bu günə qədər gələn izahlardır. Bir qismi səhih, yəni gerçək söz və əməllər olmaqla yanaşı, bir qismi də zamanla Peyğəmbərimiz adına uydurulmuşdur. Bir qisminin isə zamanla əsil mənası dəyişdirilmişdir. Bir hədisin, həqiqətən də, Peyğəmbərimizin (səv) sözü olduğunu anlamağın iki yolu var: Qurana uyğun olması və gerçəkləşməsi. Qurana zidd olan sözün Peyğəmbərimizə (səv) aid olduğunu iddia etmək tamamilə cəfəngiyatdır. Çünki Peyğəmbərimiz yalnız Qurana tabe olmuşdur.

"Quranı ancaq hədislər vasitəsilə anlaya bilərik" düşüncəsi İslam dünyasına daim böyük zərərlər vermişdir. Çünki belə düşünən bir qisim müsəlmanlar uydurma hədislərə inanmağa başlamışlar. Bir müddət sonra hətta Quranı kənara qoyub yalnız həmin uydurma hədisləri dinin qaynağı kimi qəbul etmişlər. Uydurma hədislər Quran ayələrinə zidd düşəndə isə bəziləri bu hədislərin Quran ayələrini nəsh etdiyini (ayələrin hökmünü qaldırdığını) deməyə belə cürət belə etmişlər. Bu yolla yüzlərlə fərqli hədisdən qaynaqlanan fərqli dinlər ortaya çıxmış və İslam dini üzrə bir-birinə çoxlu mövzuda zidd olan ayrı məzhəblər meydana



**"Əsr namazı" rəsmi, Qahirə (Con Frederik Luis, 1847)**

gəlmişdir. Məzhəb alimləri isə özlərini müsəlman adlandırsalar da, hamısı fərqli fikri müdafiə etmişlər, hətta özləri kimi düşünməyənlərin dindən çıxdığını iddia etmişlər.

İslam aləminin düşdüyü bu vəziyyəti Peyğəmbərimiz (səv) Quranda uca Allaha belə şikayət edir:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!" -deyəcək. (Furqan surəsi, 30)**

Həqiqətən də, İslam aləminin ən böyük problemi müsəlmanların Quranı tərk etməsidir. Quran tərk edildikdən sonra növbə icmaya gəlmişdir (icma: hər hansı bir dövrdə yaşamış din böyüklərinin müqayisəli dəlillərə əsaslanıb şəriət mövzusunda hökm çıxarması). Bu şəxslər Qurana tabe olmadıqlarına görə minlərlə hədisin arasında sanki "boğulmuş" və hökmləri nə Quranın, nə də hədislərin açıqladığı qənaətinə gəlmişlər. Daha sonra isə bu din "böyükləri" İslam adından qanunlar çıxarmağa başlamışlar.

İlk öncə məzhəblər, daha sonra məzhəbdaxili icmalar bir-biri ilə çəkişməyə başlamışdır. Hər din "böyüyü"nün öz şərhi hökm kimi qəbul edilmiş, hər camaat fərqli qaydaları əsas almış və böyük İslam aləmi məzhəb və siniflərə, sonda isə kiçik qruplara bölünməyə başlamışdır. Quran isə bəzək kimi divardan asılı qalmışdır. Bütün bunların nəticəsində İslam cəmiyyətinin böyük qismi Quranı tərk etmişdir.

İslam əleyhdarlarına nəzər saldıqda onların bir çoxunun xurafatçılarla eyni düşüncədə olduğunu görürük. Onlar da İslamı Qurandan öyrənmirlər. Xurafatçılar kimi onlar da İslamı uydurma hədis, ənənə və bir qisim insanların Qurana



**Hər il dünyanın dörd tərəfindən iki milyona yaxın müsəlmanın ziyarət etdiyi Kəbə İslam əxlaqındakı sülh və mərhəmətin simvoludur.**

zidd şərhləri əsasında qiymətləndirirlər. Onlar İslama xurafatçıların həyatı və tətbiqi kimi baxır, bu uydurma dinin qaydalarına şəriət deyirlər. Quranın dəyərlərindən xəbərsizdirlər, lakin xurafatçıların saxta dininin qanunlarını çox yaxşı bilirlər. Bu qanunları mühakimə edərkən İslamı hədəf aldıqlarını düşünürlər. Xurafatçıların dinini elə müdafiə edirlər ki, bunun İslama aid olmadığını deyəndə inanmırlar. Belə ki, bu, böyük xətadır.

Həmin şəxslər xurafatçı düşüncəyə qarşı çarə axtarırlarsa, buna inanmalıdırlar: onların dini İslam deyil. Bir müsəlmana Quran təkbaşına kafidir. Hədislər Qurana uyğun olduğu müddətcə doğru və etibarlıdır. Qurana uyğun olmayan hədisin İslamda yeri yoxdur. Əgər müsəlman Quranda İslamı tapa bilmirsə, deməli, başqa din axtarır. O dinin şəriəti isə İslam deyildir.

## Qurandakı gerçək şəriət

Şəriət kəlməsinin mənası "yol" deməkdir. Müsəlman Qurana baxaraq hansı yolu gedəcəyini asanlıqla anlaya bilər. Quranda haramlar olduqca azdır və qəti



hökmlərlə bildirilmişdir, müzakirə və şərhə ehtiyac yoxdur. Məsələn, adam öldürmək, zina etmək, faiz almaq, donuz əti yemək, qan içmək kimi hökmlər Quran ayələrində qəti olaraq haram buyurulmuşdur. Bu, Quranın əhəmiyyətli özəlliyidir. Ayələri şərh edib halalları haram etməyə çalışan şəxslər bunu öz istəklərinə uyğun edirlər. Halbuki Allah haramları qəti hökmlərlə qadağan etmişdir. Aşağıdakı ayədə bildirildiyi kimi:

**O, sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir. (Bəqərə surəsi, 173)**

Allah Quranda İslam adından halal-haram çıxaran şəxslərin varlığını belə bildirir:

**Dilinizin uydurduğu yalana əsasən: “Bu, halaldır; o, haramdır!”– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar. (Nəhl surəsi, 116)**

Peyğəmbərimizin (səv) dövründən sonra yuxarıdakı ayədə bildirildiyi kimi, Allaha qarşı yalan uyduran insanlar ortaya çıxdılar və Qurana zidd gedərək

istədiyi şeylərə halal və ya haram dedilər. Fəqət elə bir topluluq da vardır ki, Allah onların özəlliklərini xüsusilə vurğulayır. Bu, onların halal nemətləri haram etmələridir.

**Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir. (Maidə surəsi, 87)**

Odur ki, dünyada şəriət adı altında tətbiq edilən, halbuki tamamilə İslama zidd olan qorxu sistemi Qurandan uzaqlaşmağın nəticəsidir. Quran ayələri ilə açıqlanan gerçək şəriət, yəni Quranın doğru yolu isə belə təsvir edilə bilər:

***Quran şəriəti*** *sevgi, hörmət, hər din və fikrə mənsub insanlara mərhəmət etmək deməkdir.*

***Quran şəriəti*** *demokratiyanı əsas götürür və fikir azadlığını təmin edir.*

***Quran şəriətində*** *insanlar geniş dünyagörüşünə malik, müasir, bilikli, həmçinin elm, incəsənət, dostluq və sevgiyə dəyər verən insanlardır.*

***Quran şəriətində*** *nifrət, münaqişə və savaş yoxdur.*

Bu meyarlarla Quran şəriətinə uyğun İslam ölkəsinin hazırda dünyada mövcud olduğuna bir baxaq. Əlbəttə, yoxdur. Bu şəriət Peyğəmbərimizin (səv) dövründən bəri tətbiq olunmamışdır. İndiki zamanda dünyada şəriətlə idarə olunduğunu deyən bəzi ölkələr və təriqətlər İslamın yerinə xurafatı önə sürürlər. Onlar bir qisim uydurma hədisləri rəhbər tutub Quranı tərk edirlər.

Qurandakı gerçək şəriət sisteminin əvəzinə, belə vəhşiliyin İslam adından tanıdılması, təbii ki, qorxunc hadisədir. Lakin bunun çarəsi İslamı günahlandır-

maq deyil. İslamı günahlandıranlar, ümumiyyətlə, radikalizm və şiddətin yeganə həll yolunu – Quran əxlaqını görməzlikdən gələrək daha çox zərərə səbəb olurlar. Əsil İslamı zəiflədib radikallara daha çox imkan yaradırlar. Radikalizm və uydurma inanclar qınanmaqla və ya silahlarla deyil, yalnız doğru İslam əxlaqı göstərilməklə aradan qaldırıla bilər. Ortada yanlış inanc problemi var, bunun çıxış yolu isə əsil dinin yaşanmasıdır.

## Quranda gerçək cihad

Rəbbimizin Quranda bildirdiyi cihadda adam öldürmək, kamikadze, bombalamaq və ya mülki şəxslərə qarşı xain hücumlar təşkil etmək yoxdur. Nifrət, kin və lənət oxumaq da Qurandakı cihadda mövcud deyil. Qurana görə hz. İbra-

**Quran şəriəti müsəlmanın modern, baxımlı, alicənab, ağıllı, mədəni, demokrat, açıq fikirli, bütün fikirlərə hörmət edən və sevgi dolu olmasını tələb edir. Quran şəriətində qardaşlıq, sülh və sevgi vacibdir. Quran müsəlmanlara müharibəni, zülmü, kin, qəzəb və qarşıdurmaları qadağan etmişdir. Həqiqi şəriəti bilmək istəyənlər yalnız Qurana müraciət etməlidirlər.**



him, hz. Yaqub və hz. Musanın övladları lənətlənə bilməz, insanları təhdidlə qorxutmaq olmaz. İslam dini xurafatçı və ya radikalların yaşadığı kimi qətliam, ölüm, nifrət və qəzəb dini deyil. Bu davranışlar xristianlıq və musəvilikdə də yoxdur. Əgər bir insan bu hərəkətləri Qurandan öyrəndiyini deyirsə, ya doğru danışmır, ya da yanlış məlumatlandırılmışdır. Müsəlman olduğunu iddia edən hər hansı radikal yalnız adam öldürmək, bombalamaq və lənətləmək üçün uydurulmuş dinə tabe olur, bu dinin qaynağı isə əsla Quran deyil.




**İslamda cəhd etmək qarşı tərəfi məlumatlandırmaq, gözəl əxlaqı öyrətmək, insanları pis əməllərdən uzaqlaşdırmaq üçün çalışmaq deməkdir. Öz aləmlərində cihad etmək adı altında qətliam törədənlər Qurana görə davranmırlar.**

Xurafatçılar öpüb divara asdıqları müqəddəs kitabımızı (Quranı), bəlkə də, heç oxunmurlar. Bu dində hər şey qaranlıqdır. Sevginin yerinə nifrət, şəfqətin yerinə qəzəb, qardaşlığın yerinə düşmənlik və biliyin yerinə isə cəhalət hakimdir. Belə dinə inananları silahlandırıb nifrət dolu insanlardan ibarət cəmiyyət meydana gətirmək çox asandır. Odur ki, radikalizm və xurafat bəlası dünyada yalnız İslamda deyil, bütün haqq dinlərdə, eləcə də marksizm, satanizm, materializm, qısası, bütün din və ideologiyalarda mövcuddur.

Bəs radikalizm və ya xurafat hansı səbəbdən mövcuddur? Bu sualın cavabı açıq-aydındır, çünki insanların əksəriyyəti bu təlimi alıblar. Başqa din öyrənməyiblər. İslam adından ortaya çıxan radikalların İslam olaraq bildiyi yalnız bu olmuşdur. Onlar cahil yetişdiriliblər və ictimaiyyət, elm və sənətdən uzaqlaşıblar. Cihad anlayışını yanlış bilib tətbiq ediblər, çünki onlara bu öyrədilib. Öyrəndiklərini həyata keçirib yaxşı iş gördüklərini zənn edirlər. Dinlərinə, ailələrinə və həmçinin başqalarına zərər verdiklərini heç düşünməyiblər. Halbuki Quranda təsvir edilən cihad xurafatçıların düşündüyündən çox fərqlidir.

Bəs cihad deyəndə nə başa düşülməlidir? "Cihad" sözünün kökü "cəhd" kəlməsidir və ərəbcə mənaları bunlardır:

**1. Çalışmaq, cəhd etmək, fədakarlıq etmək, əzm göstərmək**

**2. İnsanın öz nəfsinə hakim olması**

Bu mənalara baxanda anlayırıq ki, İslamda cəhd etmək qarşı tərəfi məlumatlandırmaq, gözəl əxlaqı öyrətmək və insanları pis şeylərdən uzaqlaşdırmaq deməkdir. Müsəlman bunu edərkən həm öz nəfsini tərbiyə etməli, həm də qəzəb və nifrətdən uzaqlaşmalıdır. İnsanlar arasında sevgi, sülh və şəfqəti yaymaq, onları pis əxlaqdan çəkindirmək üçün şəfqətlə yanaşmalı və öz əxlaqı ilə nümunə olmalıdır.

Quranın heç bir yerində "cəhd" sözü şiddət və zülmə təşviq edən mənada istifadə olunmamışdır. Dolayısı ilə, Quranı özünə rəhbər edərək cihad adı ilə qətliam törədənlər ya yalan danışırlar, ya da yanlış öyrədiliblər. Hazırda cihad adı ilə insanları qətl edənlər, kamikadze kimi həm özünü, həm də müdafiəsiz mülki şəxsləri öldürənlər və savaşı daha da körükləyənlər Qurana görə harama girirlər. Növbəti bölmələrdə radikalların savaş üçün yanlış açıqladığı Quran ayələri və aqressiyaya səbəb kimi qəbul etdikləri uydurma hədislər ətraflı açıqlanacaq. Burda önəmli bir şeyi vurğulamaq lazımdır:

Radikalların böyük qismi cəhalət üzündən şiddətə baş vururlar. Gerçək dini bilmirlər, hətta bir çoxu Quranı heç oxumamışdır. Bu səbəbdən öldürməklə cihad etdiyini düşünən şəxsi qınamaq, lənətləmək, onu təhdid etmək və ya həbs etmək heç bir işə yaramır. Problemin əsası həmin şəxsin Qurandan xəbərsiz olmasıdır. Yanlış məlumatlandırma davam etdiyi müddətcə nə etdiyindən xəbərsiz radikalların mövcudluğunu qəbul etmək məcburiyyətində qalacağıq. Əsas olan problemin kökünü araşdırıb tapmaqdır. Belə olduğu təqdirdə, cihad adı altında terror törədənlərin tək ehtiyacının doğru məlumatlandırma olduğunu görəcəyik.



## İntihar cihad deyil, intihar haramdır və Quranda qadağan edilmişdir

Son 20-30 ildə dünyada həyata keçirilən terror hadisələri, xüsusilə Yaxın Şərq qaynaqlı terror təşkilatlarının hücumlarının əksəriyyəti intihar yolu ilə həyata keçirilir. Qurana görə, öz canına qəsd etmək, yəni intihar etmək haramdır. Bəs bomba yüklənmiş maşını özü içində ola-ola havaya uçuran və ya üzərinə bağladığı partlayıcı maddəni mülki insanların arasında partladan şəxs bunu necə edə bilir?

Ərəb ölkələrinin çoxu İkinci dünya müharibəsindən sonra güclənən kommunizmdən nəsibini almış ölkələrdir. Misir, Suriya və İraqda güclənən

**Cihad adı altında insanları qətl edənlər intihar bombaçısı olaraq öz canına, eyni zamanda da mülki əhalinin canına qəsd edənlər çox ciddi günah işləyir və Qurana görə harama yol verirlər.**





BƏƏS partiyası, Çinin himayəsi ilə qurulan və səssizcə ərəb ölkələrini və İranı müdafiə edən Şanxay qrupu, Fələstində Ərəfatın öndərliyi ilə güclənən Əl-Fətih kommunist-sosialist tərəfdarı olduqlarını heç vaxt gizlətməyiblər. Qatı milliyyətçiliklə yoğurulan ərəb sosializminin tarix boyu ərəb ölkələrində nə qədər qan tökdüyü hər kəsə məlumdur. Tarixi bilməyənlərin isə hazırda bu ölkələrdəki duruma və ya Suriyada Hafiz Əsəd mirasının necə qorunduğuna nəzər yetirməsi kifayətdir.

Sosialist və kommunist ideologiyalarda şiddət labüddür. Bəzən başqasının həyatına son verməklə yanaşı, öz canına qıymaq da bu batil inancda guya dünyanın və o ölkənin inkişafına təkan kimi qəbul edilir. Beləliklə, dəyərsiz gördüyü digər canları özünə qəsd edərək ortadan qaldırması bu vəhşi sistemə görə, cəmiyyətin inkişafı üçün stimuldur. Bu, tamamilə yanlış məntiqdir və ayrı bir müzakirə mövzusudur.

İslam haqqında yanlış məlumatlara sahib olan dairələr düşünürlər ki, İslam intihar hücumlarına izin verir. Təbii ki, bunun ən önəmli səbəbi terror təşkilatlarının İslam dinində haram edilən bu qorxunc əməlləri uydurma qaynaqlar və ya yanlış izahlarla məşru hala gətirmək cəhdləridir. Əgər hər hansı bir kamikadze törətdiyi əməli İslam adından etdiyini iddia edirsə, bu, böyük əxlaqsızlıqdır və İslama atılan iftiradır. Demək ki, burada çox böyük xətalar vardır.

Bir müsəlman əsla adam öldürə bilməz. Bu, haramdır. Allah bir Quran ayəsində belə bildirir:

**Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. (Maidə surəsi, 32)**

Ayədəki ifadə çox aydındır. Bir insanın digərini öldürməsi necə cinayət və günah sayılırsa, eyni şəkildə, özünü öldürməsi də cinayət və haramdır. İctimai yerdə özünü partlatmaq cihad deyil. Belə əməli tərifləyənlər və onun şəhid olduğunu düşünənlər cihadı deyil, cinayəti alqışlayırlar. Özü ilə yanaşı, müdafiəsiz insanları da öldürmək çox böyük cinayətdir. Əvvəlki bölmələrdə də anlatdığımız kimi, İslam bir topluluğa qarşı hücum etmədiyi müddət boyu savaşmağı qadağan edir.

Cihad insanları doğru və gözəl olan şeylərə yönləndirmək üçün elmi yöndə çalışmaq və insanlara sevgi ilə yanaşmaqdır, onları öldürmək deyil.

Şəhidlik İslam üçün dostluq və qardaşlığı yaymağa çalışarkən, yəni Allah yolunda cəhd edərkən ölümün gəlməsidir. Adam öldürmək cinayət və haramdır, mükafat veriləcək məziyyət deyil.

Kamikadzelər və onları dəstəkləyənlər başqalarını öldürməyi əmr edən dinin təbliğatını aparırlar. Bu insanların dini Allahın dini deyil. Bu dinə tabe olanların çox azı bu həqiqəti bilir. Bu saxta dini gerçək zənn edən və ona tabe olan çoxlu insan mövcuddur.

Əsil problem də elə budur: öz dinini bilməyən insanların xurafatları müdafiə etməsi. Öz dinlərini və Qurandakı gerçək sevgini öyrənmədikcə kamikadzelər də, onları təşviq edənlər də mövcud olacaqlar. Onlara doğrunu öyrətməyin yolu bomba deyil, bunun tək çarəsi doğru təlim-tərbiyədir. Buna görə haqq insanları – müsəlman, xristian və musəvilərdən sevgi tərəfdarları bir araya gəlməlidir. Birlik güclü olduqda o zaman yanlış yoldakılar da bizə qulaq asarlar.

## İntihar hücumlarının sayı niyə artır?

Dünyada siyasi məqsədli intihar əməliyyatları 1980-ci illərdə ortaya çıxıb. Livandakı daxili qarışıqlıqlarda Hizbullahın həyata keçirdiyi intihar hücumları bu əməliyyatların ilkin nümunələridir.

1980-ci ilin əvvəllərindən 21-ci əsrə kimi bütün dünyada təxminən 200 intihar hücumu həyata keçirilmişdir. Fəqət intihar hücumlarındakı əsas artım 2000-ci ilin əvvəllərində baş verib və son 30 ildə 3500-dən çox hücum həyata keçirilib. Təkcə 2013-cü ildə 18 ölkədə baş verən 291 intihar hücumunda təxminən 3100 insan həyatını itirib. Bu rəqəm öncəki illə (230 intihar hücumu) müqayisədə 25% artım deməkdir. Bu tarixlərdə həyata keçirilən intihar hücumlarının əksəriyyəti müsəlman ölkələrində baş vermişdir. Yaxın Şərq ölkələri, xüsusilə İraq on ildir ki, hücumların ən üst səviyyədə olduğu ölkələrin başında gəlir. Əfqanıstan, Pakistan, Suriya, Livan, "ərəb baharı"nın yaşandığı Tunis və Liviya, Afrikada Somali, Mali və Nigeriya, intihar hücumlarının gerçəkləşdiyi digər müsəlman ölkələri... Bəs bu hücumların sayı niyə artır? Bu problemin ilk cavabı həmin ölkələrin siyasi yöndən göstərdiyi qeyri-sabitlik ola bilər. Hücumların, ümumiyyətlə, əcnəbi ordular tərəfindən işğal edilən ölkələrdə gerçəkləşdirildiyi düşünülsə də, intihar hücumlarının yalnız 32%-i xarici qoşunların olduğu ölkələrdə meydana gəlir. Digər 68%-i isə öz vətəndaşlarına, yəni günahsız xalqa yönəlmişdir.

İraq və Suriya kimi vətəndaş müharibəsinin yaşandığı ölkələrdə məzhəb və etnik yönlü çaxnaşmalar, yaxud Misir kimi ölkələrdə millətçi dünyəvi güclərlə islami qruplaşmalar arasındakı münaqişə bu intihar hücumlarının səbəbləri arasında yer tutur. İntihar hücumla-




rında restoran, market və məscidlər, ictimai nəqliyyatlar, yəni mülki şəxslərin olduğu yerlər hədəf seçilir. Qadın, uşaq, yaşlı, qısası, günahsız xalq bu əməliyyatların hədəfi olur. İraqda olduğu kimi, hətta müsəlmanlar ibadət edərkən və ya Yəməndəki kimi dini mərasim zamanı hücumlar təşkil olunur. Bu hallar son dərəcə düşündürücüdür.

Əsgərlərini Qüdsdə məscidə soxduğu üçün bir çox islami qruplaşmalar İsraili qınamış, hətta düşmən elan etmişdi. Çox maraqlıdır ki, eyni qruplaşmalar müsəlmanların olduğu məscidə intihar hücumu təşkil edilərkən səssiz qalmış, hətta bunu təqdir etmişdilər.

Bu hücumların səbəbi xurafatdan qaynaqlanır. Odur ki, vaxt itirmədən Qurana əsaslanan İslam əxlaqı təbliğ edilməlidir və bu mövzuda səfərbərlik elan etməlidir.

## İslamda savaş mövzusunda yanlış bilinənlər

### Müsəlman Quranın bütün ayələrinə iman etməlidir

Bu mövzunun ələ alınmasının səbəbi İslama əlavələr etməyə çalışan xurafatçıların və onlardan təsirlənən bəzi İslam əleyhdarlarının yanlışlarını ortaya çıxarmaqdır. Bu insanlar bəzi Quran ayələrinin başqa ayələri nəsh etdiyini (Quranı tənzih edirik), yəni hökmünü qaldırdığını iddia edirlər. Dəlil olaraq isə aşağıdakı ayəni misal gətirirlər:

**Biz bir ayəni dəyişdirir və ya onu unutdururuqsa, ondan daha yaxşısını və ya ona bənzərini gətiririk. Məgər bilmirsən ki, Allah hər şeyə qadirdir? (Bəqərə surəsi, 106)**

Qurana dil uzadanlar öz mənfəətləri üçün bu ayəni yanlış şərh edirlər. Bu minvalla, bir qisim ayələrin hökmünü qaldıracaqlarını və hətta yerinə uydurma hədisləri daxil edəcəklərini düşünürlər. Bir qisim İslam əleyhdarı da sərxoşedici içkilərlə bağlı və ya savaşla əlaqəli nəsh edilmiş ayələrin mövcudluğunu iddia edirlər. Beləliklə, müsəlmanları "hökmü qaldırmağa tabe olanlar" və "olmayanlar" olaraq iki yerə ayırmağa çalışırlar. Ayənin əsil mənası belədir:

"Bir ayəni dəyişdirir" ifadəsindəki "ayə" sözü tək halda işlənmişdir və "dəlil", "möcüzə" kimi mənalar ifadə edir. Necə ki Quranda tək halda işlənən "ayə" sözü həmişə dəlil mənasında işlənmiş və digər bütün ayələrdə bu mənada tərcümə edilmişdir. Quran ayələrini ifadə edən "ayə" sözü isə Quranın heç bir yerində tək halda işlənməmişdir.



Məscid qapısında,
Osman Həmdi, 1891

Bu ayədəki məna da Quran ayələri yox, Qurandan əvvəl göndərilmiş dəlil, qanun və şəriətlərdir. Ayəyə əsasən, haqq kitab verilmiş öncəki cəmiyyətlərin, yəni musəvi və xristianların məsuliyyət daşıdığı, lakin zamanla unudulan bir qisim hökm və ibadətlər Quranda xatırladılmış və ya ortadan qaldırılmışdır. Onların əvəzində isə bənzəri və ya daha xeyirlisi Quranla gətirilmişdir.

Burada ayədə işlənən "unutdurmaq" sözünün də üzərində durmaq lazımdır. Bir hökmün digərini nəsh etməsi üçün digər hökm unudulmalıdır. Quranda ayələrin hamısı 1400 il boyunca dəyişmədiyinə görə bir ayənin digərini nəsh etməsi mümkün deyil. Xurafatçıların iddia etdiyi nəsh edilən hökmlər unudulmamışdır, Quranda hələ də mövcuddur. Açıq şəkildə başa düşülür ki, burada bəhs edilən nəsh mövzusu keçmiş cəmiyyətlərə və zamanla unudulmuş hökmlərə aiddir. Keçmiş cəmiyyətlərə endirilən, fəqət unutdurulan hökmlər bunların bənzəri



və daha xeyirlisi ilə Quranda adları keçən cəmiyyətlərə hökm kimi göndərilmişdir.

## Quran qorunan kitabdır

Quran Rəbbimizin ayədə də açıq bildirdiyi kimi, qorunan kitabdır:

**Şübhəsiz ki, Quranı Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

Qorunan bir kitabda hökmləri bütün müsəlmanlara şamil edilən ayələrin bir qisminin əsas görülüb, bir qisminin isə yox sayılması mümkün deyil. Quranın mükəmməlliyi, elmi möcüzələri, yol göstərici xüsusiyyəti və Quranın qorunduğuna dair ayələr xurafatçıların və bəzi İslam əleyhdarlarının bu iddiasını təkzib edir:

**Şübhə yox ki, zikr (Quran) onlara gəldiyi zaman onu yalan saydılar. Həqiqətən, bu, əzəmətli bir kitabdır. Nə önündən, nə də arxasından batil ona girişə bilər. O, müdrik, tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir. (Füssilət surəsi, 41-42)**

Həmin insanların harada yanıldığının aydın olması üçün bu iddiaları araşdıraq:

## "Məkkə dövrü və Mədinə dövrü müsəlmanları" yanlışlığı

Bir çox İslam əleyhdarı mötədil müsəlmanları "Məkkə dövrü müsəlmanları" adlandırır. Onlara görə, Peyğəmbərimizin (səv) Məkkədə olduğu dövr savaşların yaşanmadığı sülh dövrüdür. Peyğəmbərimizin (səv) Mədinəyə hicrətinin ardınca savaşlar başlamışdır. Bir çoxları bunu əsas alıb İslamda savaşı müdafiə edənlərin yalnız Mədinə dövründə vəhy olunan ayələri qəbul etdiyini, sülh tərəfdarlarının isə Məkkə dövrü ayələrini qəbul etdiyini iddia edirlər. Bu, cahillikdir və məntiqsiz iddiadır.

Daha öncə də vurğuladığımız kimi, bir insanın müsəlman xüsusiyyəti qazanması üçün ən əsas şərt Quran ayələrinin heç birini digərindən ayırd etmədən hamısına inanmasıdır. Əgər tək bir ayənin hökmünü qəbul etmirsə, Quranda bildirilən mənada müsəlman xüsusiyyətini itirər. Beləliklə, müsəlman olduğunu deyən şəxs Qurana əsasən, bir ayəni qəbul edib digərindən üz çevirə bilməz.

Peyğəmbərimizin (səv) zamanında müharibənin Məkkə dövründə deyil, Mədinə dövründə başladığı və buna aid ayələrin endirildiyi doğrudur. Bunun səbəbini anlamaq üçün Peyğəmbərimizin (səv) yaşadığı dövrün çətin mühitini qavramaq lazımdır.

### Məkkə dövründə müsəlmanların çətin imtahanı

Quranın Peyğəmbərimizə vəhyi tam 23 il davam etmişdi. Bunun ilk 13 ilində müsəlmanlar Məkkədə bütpərəstlərin arasında azlıq təşkil edirdilər və



müxtəlif təzyiqlərlə qarşılaşdılar. Bir çox müsəlmana fiziki işgəncələr verildi, bəziləri şəhid edildi, bir çoxunun evi və malı qarət edildi, təhqir və təhdidlə üzləşdilər. Buna baxmayaraq, müsəlmanlar şiddət tətbiq etmədən yaşamağa davam etdilər və sadəcə bütpərəstlərdən uzaqlaşıb onları sülhə dəvət etdilər.

Lakin bütpərəstlərin hücumu bitmirdi. Qüreyşlilər əvvəlcə elə davranırdılar ki, sanki hz. Muhəmmədin (səv) peyğəmbərliyinə əhəmiyyət vermirlər. İman gətirməməklə yanaşı, bütlərinə bir söz deyilmədikcə hz. Muhəmmədin (səv) dəvəti qarşısında səssiz qalırdılar. Yalnız hər dəfə Peyğəmbərimizi görəndə ona söz atırdılar və müsəlman görəndə lağ edib məsxərəyə qoyurdular. Beləliklə, qüreyşilərin sözlü hücum dövrü başladı.

Quranda həmin mövzu bizə belə bildirilir:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər. Onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər. Öz ailələrinin yanına fərəhlə qayıdırdılar. Möminləri gördükdə isə deyirdilər: "Həqiqətən, bunlar azmışlardır!" (Mütəffifin surəsi, 29-32)**

Məkkə bütpərəstlərin mərkəzi idi. Məkkə hər gün Kəbə və ətrafındakı bütləri ziyarətə gələnlərlə dolub-daşır, bu səbəbdən Qüreyş əhli həm pul, həm də etibar qazanırdılar. Qüreyşlilər Məkkədə müsəlmanlığın yayılmasını təhlükə olaraq görürdülər. Çünki düşünürdülər ki, bu gerçəkləşərsə, mənfəətlərinə zərər gələr və digər qəbilələr onlara düşmən kəsilər. Həmçinin bilirdilər ki, İslama görə, hər kəs bərabərdir, insanlar soy və zənginliyinə görə fərqlənmirlər. Buna görə də Qüreyşin zənginləri

müsəlmanlığın yayılmasını durdurmaq üçün tədbir görmək qərarına gəldilər. Buna müsəlmanlara qarşı işgəncələr və hətta cinayətlər də daxil idi. (İbn Hişam, 1/287)

Dövrün müşrikləri hz. Əbubəkr və hz. Osman kimi güclü və etibarlı ailələrə mənsub müsəlmanlara toxuna bilmirdilər. Fəqət kimsəsiz və fəqir müsəlmanlara tarixdə bənzəri görünməmiş vəhşiliklərlə işgəncələr verirdilər. Əbu Füheyqə, Həbbab, Bilal, Süheyb, Əmmar, Yasir və Süməyya bu ağır işgəncələrə məruz qalan müsəlmanlardan idilər.

Bütün işgəncələr müsəlmanlara yalnız iman gətirdikləri və insanlara İslamı anlatdıqları üçün verilirdi. Müsəlmanlar bu təzyiq və işgəncələrə İslamın şərti gərəyi heç cür qarşılıq vermədilər və ən insani haqları olaraq özlərini müdafiə belə etmədilər. Müsəlmanların qarşılıq vermədiyini görən Qüreyş müşrikləri bu işgəncələri daha da artırdılar. Bundan sonra həmin qüreyşilər artıq rastlaşdığı müsəlmanı şəhid etməyə başladılar.

Verilən bütün əziyyətlərə qətiyyən qarşılıq verməyən və Quranda qan tökməyə izin verilmədiyi üçün müdafiə belə olunmayan müsəlmanlar bu işgəncələrə görə artıq Məkkədə qala bilmədilər. Bu vəziyyət Mədinəyə köçü labüd etdi.

## Mədinə dövrü və savaşlar

Məkkədə bütpərəstlərin təzyiqinin artması ilə yanaşı, müsəlmanlar daha azad və dostanə mühitin olduğu Yəsrib (sonrakı adı Mədinə) şəhərinə hicrət edərək idarəçiliklərini qurdular. Siyasi quruluşlarını formalaşdırdıqdan sonra

belə məkkəli bütpərəstlərin hücumu sona yetmədi. Qüreyşlilər müsəlmanları təqib edib yenə də şiddət göstərirdilər. Peyğəmbərimiz və ətrafındakı müsəlmanlar Məkkənin təcavüzkar bütpərəstlərinə əsla savaşla qarşılıq vermədilər.

**Dünyada heç bir şəxs, topluluq və ya ölkə hücum qarşısında cavabsız qalmaz, mütləq hücum edənlərə cavab verər və ya ən azından özünü müdafiə edər. Özünü müdafiə edən insanları məhkəmələr, ölkələri isə beynəlxalq hüquq həmişə haqlı görür. Çünki qarşı tərəfdən haqsız hücum var və şəxsin canı, ailəsi və sevdikləri, həmçinin ölkənin milləti, namusu və torpağı təhlükədədir. Peyğəmbərimizə özünü və topluluğu**



**müdafiə izni Mədinəyə köç etdikdən sonra bu ayələrlə verilmişdir:**

**Zülmə məruz qaldıqlarına görə vuruşanlara izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir! O kəslər ki, haqsız yerə, ancaq: "Rəbbimiz Allahdır", – dediklərinə görə yurdlarından çıxarıldılar... (Həcc surəsi, 39-40)**

Bu ayələrə əsasən, yalnız: "Rəbbimiz Allahdır", – dediklərinə görə haqsız yerə yurdlarından sürgün edilən müsəlman topluluq müdafiə hazırlıqlarına başlamışdır. Ayədə açıqca bildirildiyi kimi, hücuma məruz qalan müsəlman toplulu-

**Peyğəmbərimiz (səv) bütpərəstlərin vəhşi davranış və işgəncələrinə məruz qalan müsəlmanlara Quran ayələrinin hökmünə görə müdafiə xarakterli müharibə etməyə izin vermişdir.**



ğa müdafiə izni verilmişdir, hücum əmri deyil. Bu ayədən sonra müsəlmanlar özlərini qorumağa başlamış, hücum edən azğın qruplara qarşı müdafiə məqsədli savaşlar həyata keçirmişdilər. Bundan sonra savaş və müdafiə haqqında endirilən ayələr davam edən müharibələrdə müsəlmanların necə davranmalarını göstərən ayələrdir. Başqa sözlə, yalnız o savaşdakı vəziyyətə aid açıqlama verilir. Buna görə də Qurandakı bütün döyüş ayələri yalnız o dövrdəki hücumlarla bağlı endirilən xüsusi ayələrdir.

## Peyğəmbərimizin (səv) dövründə müharibələr kimlərə qarşı aparılmışdır?

Quranda müharibə ilə bağlı endirilən ayələrdə "qarşı tərəf"dən bəhs edilir. Bir çox dini və tarixi qaynaqlar Peyğəmbərimizin dövründə müharibələrin musəvilərə qarşı aparıldığını yazır. Həmin qaynaqları oxuyan bir qisim insanlar Qurandakı savaşlara aid endirilən ayələrin musəvilər üçün olduğunu iddia edib İlahi kitabda bir növ antisemitizm axtarmağa başlayırlar. Halbuki bu, çox ciddi yanlışlıqdır.

Peyğəmbərimizə və müsəlmanlara qarşı zülm edənlər müşriklər idi, bunların da əksəriyyəti bütpərəstlər idi. Məqsədləri bütlərinə və azğın inanclarına zərər toxunmasını əngəlləmək idi. Bir qismi isə musəvilərin arasından çıxan münafiq və müşriklər idi. Onların musəvi adlandırılması böyük xətadır. Müsəlmanların arasından çıxan müşrik və ya münafiq müsəlman sayılmadığı kimi, musəvilərin arasından çıxan və təxribat törədən müşrik və münafiqlər də musəvi sayılmırlar. Həqiqi musəvi əsla dindar insanları qətlə yetirməz.

Quran antisemitizmi lənətləyir. Elə bu səbəbə görə Quranda musəvi düşmənliyi axtaranlar boş yerə vaxt itirirlər. Həmin ayələri musəvilərə qarşı savaş anlamında açıqlayanlar bunu bilməlidirlər ki, Peyğəmbərimiz dövrünün musəvilərinə xoş davranıb onları sevmiş, eyni münasibəti də onlardan görmüşdür. Bu mövzu kitab əhlinə münasibətdən bəhs edilən hissədə ətraflı şəkildə açıqlanmışdır. (Baxın: "İslamın kitab əhlinə baxışı" bölməsi)

## Quranda savaş haqqında

Quranda savaşın nə zaman və necə edildiyi açıq-aydındır:

**Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir. (Bəqərə surəsi, 190)**

Müharibə ancaq müsəlmanlara qarşı savaşanlarla aparılmalıdır, yəni müdafiə məqsədli olmalıdır. Müsəlmanların qarşı tərəfə səbəbsiz yerə hücum etməsi Quranda qəti qadağan edilmişdir. Allahın Qurandakı əmrlərindən biri də odur ki, müsəlmanlar haqsızlıqdan dolayı bir topluluğa qəzəblənsələr belə, onlara qarşı ədalətli davranmalıdırlar. Bir ayədə belə xəbər verilir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Məsələn, Allah bir ayədə müsəlmanların Kəbəyə girişini əngəlləyən camaata yaxşılıq etməyi nəsihət etmişdir:

**Sizi Məscidül-harama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. (Maidə surəsi, 2)**

Həcc ibadətləri əngəllənən və haqsızlıq görən müsəlmanlar həddi aşmaq mövzusunda uca Rəbbimiz tərəfindən xəbərdar edilirlər. Allah müsəlmanlara bu şərtlərdə belə ədalətlə davranmağı, yaxşılıq etməyi əmr edir. Müsəlman hər vəziyyətdə Qurandakı hökmə tabe olmalıdır.

Quranda özünümüdafiə müharibəsindən bəhs edilən ayədə bir şərt də vardır: həddi aşmamaq. Bunun mənası hücum zamanı müsəlmanın yalnız özünü qoruması, həddi aşmaması və haqsız yerə təcavüz etməməsidir. Yəni Quranda hücum, vəhşilik, şiddət və ədalətsizlik qadağan edilmişdir. Yalnız və yalnız hücum edənlərə qarşı müdafiə məqsədilə cavab vermək başqa ayələrdə belə bildirilmişdir:

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. (Mümtəhinə surəsi, 8-9)**

Burada bir məqama xüsusi diqqət etmək lazımdır: müsəlmanlara fikrən



qarşı olub hücum etməyənlərlə vuruşmaq haramdır. Müsəlman onlarla hörmətlə və ədalətlə davranmalıdır. Yuxarıdakı ayəyə görə, müsəlmanlara inancları üzündən zülm edən və onlara feili olaraq hücum edən, yəni döyüşən tərəfə qarşı özünümüdafiə izni verilmişdir. Əlbəttə, hər insan hücum edilərsə, özünü qoruyar. Bu, hər kəsin, hər millətin və hər dövlətin haqqıdır.

Peyğəmbərimizə savaş izni nazil edilən ayəyə qədər müsəlmanların qətiyyən müdafiə olunmaması böyük fədakarlıq və dindarlıqdır. O vaxta qədər **“Onlarla ən gözəl tərzdə mübahisə et” (Nəhl surəsi, 125)** ayəsinin hökmünə əsasən, Peyğəmbərimiz yalnız gözəl tərzdə onlara təbliğ edirdi. Baxmayaraq ki, bütpərəst qüreyşlilərin məqsədi ancaq qətliam törətmək idi...

Bu əhəmiyyətli mövzunu açıqladıqdan sonra xurafatçıların və İslam



əleyhdarlarının İslamın adından istifadə edib vəhşiliyə dəlil gətirməyə çalışdığı Quran ayələrinin hamısını bir-bir açıqlayıb dəlilləri ortaya çıxaracağıq.

Bu ayələri araşdırmadan əvvəl hər kəs bilməlidir ki, Quranda açıqlanan bütün savaşlar o bölgədəki müəyyən camaata qarşı bəzi şərtlər daxilində aparılmışdır və bu şərtlər də ayələrdə bildirilir. Bu, müsəlmanlarla müqavilə bağlayan müşrik topluluqdur. Dolayısı ilə, bu savaşların hamısı müşriklərin qarşılıqlı sülh və dostluq müqavilələrini pozaraq etdikləri hücumlar əsasında baş vermişdir. Nazil olan ayələr tamamilə o dövrkü durumla əlaqəli olub həmin dövrü təsvir edir. Bu həqiqətin daha yaxşı anlaşılması üçün o dövrün müşrikləri və bağlanan müqavilələr haqqında məlumat verək:

## Müqavilə bağlanılan müşriklərin vəziyyəti

"Müşrik" kəlməsi həmin dövrdən bəhs edən müxtəlif təfsirlərdə yalnız "şərik qoşan" mənasında işlənsə də, termin kimi Allaha şərik qoşan, çoxlu tanrı qəbul edən, həmçinin müsəlman, musəvi, sabii, xristian və ya məcusi olmayan bütpərəst mənasına gəlir.

Quranda İslamın yaranması zamanı Ərəbistandakı dinlərdən bəhs olunarkən

müşriklər daima ayrı qrup kimi göstərilmişdir. Peyğəmbərimizin (səv) dövrünə nəzər salınsa, kitab əhli olan musəvi və xristianlarla evlənmək və kəsdiklərini yemək halal edildiyi halda, məcusi, sabii və bütpərəst qadınlarla evlənmək və kəsdiklərini yeməyin qadağan edildiyini görürük.

Peyğəmbərimiz Mədinəyə köçdükdən sonra müşriklərlə və o bölgədə yaşayan digər insanlarla bir çox müqavilə bağlamış və müşriklərin azğın hərəkətlərinə baxmayaraq, sülhü təmin etmək üçün onları daima birliyə dəvət etmişdir. Bu vəziyyət fərqli din və dilə malik insanların bir arada hüzur içində yaşaya biləcəyini sübut etmişdir. Onun sülh və sevgi dəvətçisi olduğunun əsas dəlillərindən biri yazdırdığı ilk məktubun sülh müqaviləsi olmasıdır. Hz. Muhəmməd Məkkəni fəth etdikdən sonra müsəlmanlara əvvəllər işgəncə verən müşrikləri də sərbəst buraxıb onlara mərhəmət göstərmişdir. Peyğəmbərimizin (səv) göstərdiyi bu üstün əxlaq əvvəllər ərəb cəmiyyətlərində rast gəlinməyən vəziyyət idi və insanlar bunu təqdirlə qarşılayırdılar.

O dövrdə fəth edilən əcnəbi ölkələrdə də gerçək ədaləti göstərməklə hz. Muhəmməd bütün müsəlmanlara nümunə olmuşdur. Peyğəmbərimiz (səv) ələ keçirilən ölkələrin yerli xalqlarına qarşı Quranda bildirilən ədaləti tətbiq etmiş, onlarla hər iki tərəfin razı qaldığı anlaşma imzalamışdır. Hz. Muhəmməd və səhabələri **"Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər" (Əraf surəsi, 181)** ayəsində bildirildiyi kimi, insanlar arasında ədaləti təmin edən camaat olmuşdur.

Ərəbistan yarımadasının cənub hissəsindəki xristian nəcran xalqı ilə bağla-

nan müqavilə də Peyğəmbərimizin (səv) mərhəmət və ədalətinin ən gözəl nümunələrindəndir. Müqavilə maddələrindən biri aşağıdakı kimidir:

*"Nəcranlıların canı, malı, dini, var-yoxları, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Peyğəmbərinin himayəsi altına alınacaq". (Türkcə mənbə: M.Xoduri, İslamda savaş və sülh, səh. 209-210)*

O bölgədəki bütün camaatla anlaşma əldə olunduqdan sonra Peyğəmbərimiz İslam tarixindəki ilk qanun olan Mədinə vəsiqəsini hazırlayıb dövlət qurmuşdur. Mədinə vəsiqəsi tarixdəki demokratik qanunun ilk və ən mükəmməl nümunəsidir.

## Tarixin ilk çoxsaylı və ən demokratik qanunu: Mədinə vəsiqəsi

Peyğəmbərimiz yazılı olaraq Mədinə dövlətinin ilk qanunu olan Mədinə vəsiqəsi ilə fərqli irq, din və qəbilələrdən ibarət bir şəhərə Ərəbistan yarımadasında əvvəllər heç görülməmiş demokratik və sülhsevər quruluş gətirmişdir.

Həmin qanuna görə, Mədinədəki bütün topluluqlar sülh içində birlikdə yaşayacaqlar. Həm həyatlarını öz din və inancları əsasında, qanunlarına uyğun yaşayacaqlar, həm də Mədinə vəsiqəsini tətbiq edəcək gücə malik olacaqlar.

Mədinə vəsiqəsi bundan təxminən 1400 il əvvəl, 622-ci ildə fərqli inanclara sahib xalqların tələblərinə uyğun olaraq hz. Muhəmmədin (səv) öndərliyində qələmə alındı və yazılı hüquqi müqavilə kimi həyata keçdi. Bunun nəticəsində də 120 il boyu bir-birinə düşmən olan fərqli din və irqlərə malik topluluqlar sülh içində bu anlaşma sayəsində yaşadılar. Hz. Muhəmməd bu müqavilə ilə hər

fürsətdə bir-birinə hücum edən və razılığa gəlməyən insanların birlikdə rahat yaşaya biləcəyini göstərdi.

Mədinə müqaviləsinə görə, hər kəs təzyiq edilmədən istədiyi din, inanc, siyasi və ya fəlsəfi seçim etməkdə sərbəstdir. Eyni düşüncəyə malik insanlar cəmiyyət qurmaqda və hüquqlarını tətbiq etməkdə azaddırlar. Lakin cinayətə yol verən şəxs heç kim tərəfindən qorunmayacaq. Müqaviləyə tabe olan qruplar bir-birinə yardım edib hz. Muhəmmədin (səv) himayəsində olacaqlar. Tərəflər arasındakı anlaşılmazlıqlar Allahın Rəsuluna çatdırılacaq. Müşriklər də ən ədalətli



**Mədinə vəsiqəsi müsəlmanların bütün digər din nümayəndələrinin və müşriklərin hüquqlarını qoruyan yol tutduğunu göstərən tarixin ilk plüralist və ən demokratik konstitusiyasıdır.**

şəxs kimi Peyğəmbərimizin (səv) hakimliyinə daim üstünlük vermişlər.

Peyğəmbərimizin (səv) hazırlatdığı bu müqavilə mərhələli şəkildə 622-ci ildən 632-ci ilə qədər tətbiq olunmuşdur. Bu vəsiqə ilə qan və qohumluq əlaqələrinə əsaslanan qəbilə quruluşu ortadan qalxmış, coğrafi, mədəni və etnik mənşəyi tamamilə fərqli insanlar toplaşıb birlik qurmuşlar. Mədinə vəsiqəsində çox geniş din və inanc azadlığı təmin edilmişdir. Bu azadlığı ifadə edən maddələrdən biri belədir:

*"Bəni-Əvf musəviləri möminlərlə bərabər eyni ümmətdirlər. Musəvilərin .7dini özlərinə, müsəlmanların dini də özlərinə aiddir". (türkcə mənbə: M.Həmidullah, İslam müəssisələrinə giriş, səh. 128)*

Mədinə vəsiqəsi 47 maddədən ibarətdir. 1-23-cü maddələr müsəlmanlar, 24-47-ci maddələr isə Mədinədəki musəvi qəbilələrlə əlaqədardır. Say etibarilə az da olsa, xristian ünsüründən bəhs edilməsi fərqli din mənsublarının marağı yönündən əhəmiyyətlidir. Pr. Leonard Suidlerin "Plüralizm perspektivində Mədinə vəsiqəsinin yenidən qiymətləndirilməsi" adlı hesabatında həmin müqavilə ilə əlaqədar belə diqqətçəkən fikir bildirmişdir:

*"Vəsiqə hz. Peyğəmbərin şəhər xalqını birləşdirmə və xalqa açıq elan edilən hüquq ətrafında toplama cəhdləri baxımından önəmli sənəddir. Bu hüquqa görə, hər bir fərd bərabər haqlara, din seçmə azadlığına və müsəlmanlarla birlikdə savaşa qatılıb-qatılmama sərbəstliyinə sahibdir. Lakin hər bir halda şəhərin düşmənləri ilə müqavilə bağlamaq qadağan idi*

*ki, bu da Mədinə qruplarının bir-birinə olan möhkəm bağlılığını təsis etmə səyini göstərir. Bu siyasi və dini mətn bərabərlik və azadlıq dəyərləri əsasında yeni topluluq qurmaq məqsədi güdürdü. Vəsiqədə də vurğulandığı kimi, hüququn hər bir fərd üzərindəki üstünlüyü dialoq və bərabər yaşamaq mühitinin qurulması məqsədinə çatmaq üçün atılan təməl addım idi. Vəsiqədəki maddələr ümumi mənada Mədinədəki hər bir fərdin şəhərin qorunmasında məsuliyyətinin bərabərliyini də göstərir. Buna əlavə olaraq əxlaqi xarakterini ortaya qoyan maddələrdəki paralel ifadələrin də çoxluğunu görürük. Sonda isə şəhərdəki müxtəlif qrupların adlarının maddələrdə tək-tək qeyd olunduğunu düşündükdə vəsiqənin, beləliklə, hz. Peyğəmbərin şəhərin bu qruplarını leqal topluluqlar kimi qəbul etdiyini və onları diqqətə aldığını görə bilərik". (türkcə mənbə: M.Xoduri, İslamda savaş və sülh, səh. 209-210)*

Mədinə vəsiqəsi müsəlmanların və müşriklərin haqq və hüquqlarını qoruduğunu göstərir, Mədinənin müdafiəsində onların da müsəlmanlarla birlikdə hərəkət etməyini istəyir. Müşriklərə qarşı belə münasibət isə heç də təəccüblü deyil. Çünki Qurana görə, müsəlmanlar müqavilə bağladığı müşrikləri öz canları bahasına qorumaqla vəzifəlidirlər. (Bu mövzu haqqında növbəti səhifələrdə məlumat veriləcək)

Nəticə olaraq, həmin vəsiqənin birlik və bərabərliyi, sülh və dostluğu özündə əks etdirən əhəmiyyətli tarixi sənəd kimi qəbul edildiyi bir həqiqətdir. Peyğəmbərimizin (səv) sevgi və sülh anlayışı Qurana uyğundur, lakin hazırda



# *Hz.Muhəmmədin (səv) xristianlara verdiyi imtiyazlara dair sənəd*

*(Müqəddəs Ketrin monastrının rahiblərinə məktub)*

*Bu məktub Muhəmməd ibn Abdullahdan yaxındakı və uzaqdakı xristianlara onlarla birlikdə olduğumuza dair sözümdür.*

- *Həqiqətən də, mən, qullarım, yardımçılarım və təbəələrimlə birlikdə onları müdafiə edirik. Xristianlar mənim təbəələrimdir, Allahın izni ilə onları narahat edən hər şeydən qoruyuruq.*
- *Onlara heç bir təzyiq göstərilməyəcək.*
- *Nə hakimləri vəzifələrindən, nə də rahibləri monastırlarından uzaqlaşdırılacaq.*
- *Heç kim kilsələri dağıtmayacaq, zərər verməyəcək və ya oradan müsəlman evlərinə heç bir əşya aparmayacaq.*
- *[Kilsələrdən] bir şey götürən olsa, Allahın anlaşmasını pozacaq və peyğəmbərimizə itaətsizlik edəcək. Onlar, həqiqətən, mənim müttəfiqimdir və düşmənlərinə qarşı mənim fərmanımın təminatı altındadırlar.*
- *Heç kim onları başqa yerə və ya döyüşə getməyə məcbur edə bilməz.*
- *Belə ki, müsəlmanlar onlar üçün [onları qorumaq üçün] döyüşürlər.*
- *Əgər bir xristian xanım bir müsəlmanla evlənərsə, bu evlilik xanımın razılığı olmadan həyata keçirilə bilməz. Bu xanımın kilsəyə getməsinin qarşısı alına bilməz.*
- *Kilsələrə hörmət ediləcək. Xristian kilsələrinin təmir edilməsinə qarşı çıxılmayacaq, müqəddəsliyi zədələnməyəcək.*
- *Müsəlmanlardan heç kim dünyanın son gününə qədər bu anlaşmaya itaətsizlik etməyəcək.*

**Müsəlmanlar xristianlara verilən bu imtiyazı getdikləri hər yerdə ciddi şəkildə tətbiq ediblər.**

belə müsəlman topluluğu görmək çox çətindir. Bu vəziyyət tarixin ilk ən demokratik qanununun Peyğəmbərimiz tərəfindən yazılıb həyata keçirildiyinin dəlillərindəndir.

Beləliklə, kitabın sonrakı hissələrini bu məlumatlar əsasında dəyərləndirmək lazımdır. Müşrikləri qorumağı və kitab əhlinə xoş münasibət bəsləməyi əmr edən Qurani-Kərimin nəsihətləri və Qurana əsasən, daima sülh və demokratiyanı hədəf alan hz. Muhəmmədin tətbiqatı xurafatçıların əməllərindən tamamilə fərqlidir. Onlar müntəzəm olaraq Quranda savaşa dəlil tapmağa çalışarkən Quran daim sülhə çağırır. Beləliklə, mövzu ilə əlaqədar savaş ayələrinin açıqlandığı zaman bu önəmli gerçək mütləq yadda saxlanılmalıdır.

## Savaşla bağlı ayələr və açıqlamaları

Quranda savaşın mənasının necə açıqlandığını izah etdikdən sonra radikallar tərəfindən təhrif edilən və İslam əleyhdarları tərəfindən də İslamı tənqid məqsədilə istifadə olunan ayələri nəzərdən keçirək:

### Bəqərə surəsi 191-ci ayə:

**(Müşriklərə) harada rast gəlsəniz, öldürün və sizi çıxartdıqları yerdən siz də onları çıxardın! Onlar sizinlə Məscidül-haramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir.**

Bu ayə müsəlmanların ağır təzyiq və şiddətə məruz qaldığı və Məkkədən çıxarılıb Mədinəyə hicrət etməyə məcbur edildiyi dövrdə endirilən ayədir. Yuxa-

rıda bildirdiyimiz şərtlər təşəkkül etmiş, müşriklərin zülm və hücumlarına qarşı müsəlmanlar özlərini müdafiə əmri almışdılar. Zülmə davam edən, gözəl sözdən anlamayan və sülhə yanaşmayan bu topluluğa onların üsulu ilə cavab vermək lazım gəlmişdi. Fəqət ayədə Qurandakı savaş hüququna dair xatırlatma da edilir: "onlar sizinlə Məscidül-haramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın" Göründüyü kimi, savaşmağın tək şərti qarşı tərəfin hücumudur. Onlar hücum edib savaşmadıqca müşriklərlə vuruşmaq qətiyyən halal deyildir.

Bu ayənin mənasını dəyişdirməyə çalışan radikalların və İslam əleyhdarlarının ayədəki həmin hökmü görməzlikdən gəlməyi çox şübhəlidir. Ayə açıq şəkildə müsəlmanlara yalnız özlərini qoruma azadlığı verir. Beləliklə, bu ayənin hökmü günahsız insanları gedib öldürmək, savaşmaq və hücum etmək deyil.

Ayədə başqa bir xüsus isə belə bildirilmişdir: fitnə qətldən daha pisdir. Topluluqları qızışdırmaq, nifrət yaymaq, insanlar arasında qorxu və anarxiya yaratmaq fitnədir və ayənin ifadəsinə görə fitnə adam öldürməkdən də betərdir. Odur ki, müsəlmanlara hücum edənlər fitnə çıxaran topluluqlardır. Onların bu hücumuna qarşı müsəlmanlar təbii olaraq özlərini müdafiə edirlər.

Hazırda xurafatçıların ağızdan-ağıza dolaşan məlumatlar və ya xurafatlara inanaraq cəmiyyətləri, dinləri və ya ölkələri fitnəkar elan etməsi və buna Quran ayələrini dəlil gətirməsi böyük xətadır. Fitnə müsəlmanları bölmək, onlara müxtəlif yollarla zərər vermək və günaha çəkmək, bu minvalla üsyanlara zəmin hazırlamaq, müsəlmanlara qarşı feili və sözlü hücumlar təşkil etmək və s. kimi

təxribatçı əməllərdir. Beləliklə, bir insana o zaman fitnəkar demək olar ki, həmin şəxs bu əməllərin bir və ya bir neçəsini etsin. Hazırda fitnəkar damğası vurub musəviləri və ya İsraili günahlandırmağa çalışanlar bu ayəyə müxalif çıxırlar.

Qurana görə, bütün musəviləri və İsraili fitnəkar adlandırmaq haramdır. Hər dindən və ya ölkədən fitnə çıxaranlar ola bilər. Məsələn, ərəb və ya türklərdən hər kim fitnə çıxararsa, buna görə bütün ərəbləri və türkləri fitnəkar adlandırmaq olmaz. Eyni şəkildə, bu, musəvi və israillilərə də aiddir. Qurana görə, müsəlman musəvinin evində yemək yeyə bilər, onunla dostluq edə, hətta evlənə bilər. Belə vəziyyətdə müsəlman səbəbsiz yerə musəvini fitnəkar adlandıra bilməz. Bunu iddia edənlərin əvvəldə də vurğuladığımız kimi, Qurandan heç xəbəri yoxdur və onlar musəvilərlə bağlı uydurma hədislərə inanan cahil insanlardır. Həmin hədislər barədə növbəti səhifələrdə bəhs edəcəyik.

## Nisa surəsi, 89-91-ci ayələr

**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib (onlarla) eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə onlardan (özünüzə) dost tutmayın. Əgər üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir dost, nə də bir köməkçi tutun.**

**Ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır. Əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr,**

**Allah sizə onlara qarşı (vuruşmanıza) yol verməz.**

**Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar. Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onlara harada rast gəlsəniz, tutub öldürün. Biz onlara qarşı sizə açıq-aydın dəlil verdik.**

Yuxarıdakı ayələrdə münafiqlərdən bəhs olunur. Münafiq özünə müsəlman deyən, onların arasında yaşayan, lakin həqiqətdə Allaha və İslama düşmənçilik edib müsəlmanları arxadan vurmağa çalışan şəxsdir. Allah münafiqlərin cəhənnəmin ən alt təbəqəsində olacağını bildirir və onları alçaldır. Anlaşıldığı kimi, münafiq ikiüzlülüyü səbəbi ilə nə inkarçılara, nə də müşriklərə bənzəyən çox təhlükəli və alçaq insan modelidir.

Müsəlmanları yarı yolda buraxan və onların da özləri kimi inkar etmələrini istəyən münafiqlərlə dostluq etmək "Nisa" surəsinin 89-cu ayəsində qadağan edilmişdir. Onlara qarşı savaşın məşru olduğu, yəni "əgər üz çevirsələr" ifadəsindən anladığımız vəziyyət münafiqlərin artıq müsəlmanlara hücumudur. Bunu sonrakı ayədə görmək mümkündür. 90-cı ayədə **"Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr"** ifadəsində bildirildiyi kimi, hücum etməyən topluluqla mübarizə aparmaq olmaz. Açıq-aydındır ki, öldürülməyə izin verilən topluluq müsəlmanlara qarşı döyüşənlərdir. Buradan müsəlmanlara hücum vaxtı özlərini müdafiə haqqı veril-

diyi açıq-aşkar başa düşülür.

Bununla yanaşı, "Nisa" surəsinin 90-cı ayəsi Quranın adil, şəfqətli və daima sülhü qoruyan üslubunun başqa göstəricisidir. Ayədə o zamana qədər müsəlmanları hiyləgərcəsinə arxadan vurub xainlik etmələrinə baxmayaraq, **münafiqlərin bir qisminin toxunulmaz olduğu bildirilir: "Ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır". Eyni ayədə "əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı (vuruşmanıza) yol verməz"** ifadəsi ilə onların toxunulmazlığı təkrar xatırladılmışdır. Bu isə əsil ədalətdir.

91-ci ayədə də müəyyən şərtlər daxilində baş verən halları təsvir edir. Həmin mühitdə peşman olduğunu və savaş istəmədiyini deyən münafiqlərin bəzisi yenə fitnə çıxarıb müsəlmanlara qarşı vuruşmağa başlamışdı. Bu durumda Qurandakı savaş hökmü xatırladılır və hücum etmədiyi müddətcə onların toxunulmaz olduğu bildirilir. **Xatırlatmaq lazımdır ki, ayədə Ühüd döyüşündə baş verən xüsusi vəziyyət və həmin əsnada döyüşdən üz döndərən münafiqlərdən bəhs edildir.**

## Tövbə surəsi, 5-ci ayə

**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, öldürün, onları əsir tutun, onları mühasirəyə alın və onlara hər yerdə pusqu qurun.**

**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah bağışlayandır, rəhmlidir.**

Bu ayədə təşəkkül edən şərtləri bilmək üçün surəni başdan oxumaq lazımdır. O zaman hamısının deyil, yalnız müsəlmanlara qarşı vəhşilik edən və haram aylarda savaşmamaq üçün müqavilə bağlanan müşriklərlə vuruşmağın labüd olduğunu görürük. Burada o müşriklərdən bəhs edilir ki, onlar müsəlmanlarla müqavilə bağlamışdılar və tam əmin idilər ki, müsəlmanlar haram aylarda silaha əl atmayacaq. Buna baxmayaraq, həmin müşriklər qəflətən hücum etməklə müsəlmanları vəhşicəsinə qətlə yetirməyə çalışmışdılar. Belə ki, bu şərtlər daxilində müsəlmanlara özlərini müdafiə etmək haqqı verilmişdir. Ayədən göründüyü kimi, müşriklər haram aylarda müsəlmanlara hücum edib işgəncə verirsə, o zaman müdafiə olunmaq müsəlmanlar üçün məqbuldur.

Ayədə bu həqiqəti də görürük ki, hər bir insan hücum edib şiddətə əl atmadığı müddətcə müsəlmanlar tərəfindən qorunmalıdır. Müsəlman öz dindaşını qoruduğu kimi, kitab əhlini, hətta ateist və kommunisti də qorumalıdır. Bu, müsəlman olmağın Qurandakı təsviri və şərtidir. Hər kim özünə müsəlman deyirsə, qoruyucu olmaq məcburiyyətindədir.

## Tövbə surəsi, 13-cü ayə

**Məgər siz andlarını pozan, Peyğəmbəri qovmaq fikrində olan, özləri də sizinlə (döyüşü) birinci başlayan bir camaatla vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər möminsinizsə, daha çox Allahdan**

**qorxmalısınız.**

Quranda savaş hökmündən bəhs edən ayələrdən biri də budur. Müsəlmanlarla sülh müqaviləsi bağlayan müşriklər müqavilənin şərtlərini pozub hücuma keçsələr, Peyğəmbərimizi (səv) yaşadığı yerdən sürgün etməyə cəhd göstərsələr və ayədə də bildirildiyi kimi, savaşı ilk başlatsalar, müsəlmanlar onlara qarşı döyüşmək haqqı qazanır.

## Maidə surəsi 33-cü ayə

**Allaha və Onun Elçisinə qarşı müharibə edənlərin və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək və ya çarmıxa çəkilmək, ya əl və ayaqlarını çarpazvarı kəsmək və yaxud da yaşadıqları yerdən sürgün edilməkdir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir.**

Bütün müharibə ilə bağlı ayələrdəki mövzu bu ayədə də xüsusilə diqqəti cəlb edir. Burada hücum ediləcək topluluğun xüsusiyyətləri təfsilatı ilə verilmişdir: Allaha və Elçisinə qarşı birbaşa savaş elan etmələri və yer üzündə təxribat törətmələri. Göründüyü kimi, bu adamlar yalnız müsəlmanlara qarşı savaşmır, eyni zamanda, yer üzündə fitnə çıxarırlar. Yəni ayədə bütün dünyada prob-



lem çıxaran, hamının təxribatçı kimi tanıdığı azğın və davakar topluluqdan bəhs edilir.

Bütün döyüşlərdə olduğu kimi, feili olaraq müsəlmanlara savaş elan edən topluluğu döyüşdə məcbur qaldıqda öldürmək və sürgün etmək də əl atılan üsullardandır. Digər ifadə ilə desək, Quran ayələrinə görə, müsəlmanlara adi halda haram edilən əməllər (qətl və sürgün etməyə) yalnız döyüşlərdə məcbur qaldıqda izin verilmişdir.

## Ənfal surəsi, 57-ci ayə

**Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də dağıt ki, bəlkə, ibrət alsınlar.**

Bu ayəni də yenə yuxarıda ətraflı şəkildə izah etdiyimiz kimi, ağılla dəyərləndirmək lazımdır. Peyğəmbərimizə bir qisim ayələrin nazil edildiyi Mədinə dövrünün gərgin döyüşlərə səhnə olduğunu unutmaq olmaz. Bu döyüşlər yalnız **"Onlar ancaq: "Rəbbimiz Allahdır", – dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar" (Həcc surəsi, 40)** ayəsində bildirildiyi kimi, müsəlmanlara edilən haqsız zülmlərin nəticəsində meydana gəlmişdir. Yenə də xatırladacağımız kimi, **"Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı (vuruşmanıza) yol verməz"** ayəsinə uyğun olaraq qarşı tərəf savaşı dayandırdıqda müsəlmanlar da buna son verməlidirlər.

"Ənfal" surəsinin 57-ci ayəsindən əvvəlki ayələrə baxsaq, yenə o dövrdə

müsəlmanlarla müqavilə bağlanan topluluqdan bəhs edildiyini görərik. Müdafiəyə izin verən bütün Quran ayələrində açıqladığımız kimi, bu topluluğun da müqavilə şərtlərini pozub hücuma keçdiyi vurğulanır.

Ardıcıl hücumlar edən, söz dinləməyən və müqavilə şərtlərini müntəzəm pozaraq fitnə çıxaran topluluğa qarşı güc göstərmək lazımdır. Çünki bu vəziyyətdə fitnəyə vərdiş edən həmin insanların qarşısı alınmasa, hücuma hazırlaşan başqa müşriklər də buna cəsarət edəcəklər. Bu, hər bağlanan müqaviləni pozaraq savaşa başlayan tərəfə qarşı önəmli taktikadır və həm də sonrakı savaşları önləyici tədbirdir. Dünyanın, demək olar ki, hər ölkəsinin qanunlarında və beynəlxalq hüquqda bütün cəzaların yayındırıcı olmasına əhəmiyyət verilir. Məqsəd cinayətin eyni şəxs və ya digər şəxslər tərəfindən işlənməsinin qarşısını almaqdır. Beynəlxalq hüquq normalarına görə, belə tədbiri İslamın əleyhinə dəyərləndirməyə çalışmaq onların haqq və ədalət tərəfdarı olmadığını göstərir.

### Muhəmməd surəsi, 4-cü ayə

**(Döyüşdə) kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə (əsirlərə bağladığınız) kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək (kafirlərlə belə rəftar edin). Bax belə! Əgər Allah istəsəydi, onlardan intiqam alardı. Lakin O, sizi biri-birinizlə sınağa çəkmək üçün (belə etdi). Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz.**

Başqa ayələrdə olduğu kimi, bu ayədə də döyüş mühiti təsvir edilir: müşriklər müqaviləni pozmuş, hücuma keçmişlər və müsəlmanların da buna cavab verməkdən başqa yolu qalmamışdır. Bu ayədə açıqlanan beynəlxalq savaş hüququdur. Üstəlik beynəlxalq savaş hüququnda tətbiq olunmayan şey burada var və döyüşdən sonra əsirlər sərbəst buraxılır. Halbuki Əfqanıstana edilən müdaxilə bitsə də, əsirlər hələ də Quantanamoda saxlanılır və BMT, NATO kimi təşkilatlar buna normal yanaşırlar. Odur ki, Quran bu haqsızlığı ədalətli görmür. İslama görə, savaş sona çatdıqdan sonra əsirlər mütləq azad edilməlidir. Ayələrdə bildirilən savaşların o dövrdəki şərtlərə görə müdafiə məqsədli olduğu və yalnız hücuma keçən təxribatçı müşrik və münafiqlərə qarşı edildiyi açıq-aşkardır. Radikallar bu ayələrin mənalarını dəyişdirilərək nifrət və qəzəb siyasətləri üçün istifadə edirlər, bunun əsas səbəbi yüzlərlə saxta hədisin İslama əlavə edilməsi və bir çox təfsirçilərin yanlış şərhləridir. Halbuki İslama sonradan əlavə edilən saxta hədis və xurafatlardan uzaqlaşaraq Quranı diqqətlə oxumaq lazımdır. Dövrün savaş mühitinə görə dəyərləndirdikdə ayələrin mənası aydınlaşır.

## İslamda savaşa yer yoxdur

İslamın müharibə ilə yayıldığını və savaş dini olduğunu iddia edənlər (dinimizi tənzih edirik) bu düşüncənin İslam doktrinasına tamamilə zidd olduğunu başa düşməlidirlər. İslam haqqındakı bütün yanlış düşüncələr Quranın vəhyindən və Peyğəmbərimizdən sonra ortaya çıxarılan uydurma hədis və xurafatlardan qaynaqlanır. Bəzi radikal qruplaşmalar bu uydurma hədislərə əsaslanıb İslam dinini yanlış şərh etməklə savaşı qanuniləşdiriblər. Müsəlman olmayan, hətta

özləri kimi düşünməyən müsəlmanlara qarşı hücum edərkən bunu əsas alıblar.

Əvvəlki hissələrdə də ətraflı açıqladığımız kimi, Quranda qarşı tərəfə hücum etmək üçün heç bir səbəb yoxdur. Quran demokratiya və azadlığı ən mükəmməl şəkildə təsvir edir. Azadlığın mövcud olduğu yerdə kimsəni düşmən elan edib onu susdurmağa cəhd edilə bilməz. Çünki belə azad mühitdə hamıya hörmət edilir və hər kəs rahat fikrini bildirir. İslam şəriəti həmin mühiti təşviq edir. Beləliklə, Quranda müharibəyə yer yoxdur, lakin xurafatçıların uydurduğu şəriətdə savaşmaq, hücum etmək, öldürmək üçün saysız-hesabsız səbəblər vardır. Bu həqiqətləri Quran ayələri işığında izah edək:

## İslamı zorla qəbul etdirmək üçün müharibə edilməz

İslamı insanlara savaş və təzyiq yolu ilə qəbul etdirməyə çalışanlar Qurana xəyanət edirlər. Quranda ən açıq hökmlərdən biri dində əsla məcburiyyətin olmamasıdır:

**Dində məcburiyyət yoxdur. (Bəqərə surəsi, 256)**

Bu açıq ayə Quranın hökmüdür. Heç bir müsəlman bu hökmdən kənara çıxıb başqasına dindar olmaq üçün təzyiq göstərə bilməz. Bu, Quranda qadağan edilmişdir.

Peyğəmbərimiz yalnız nəsihət edir, təbliğ etmək və son gələn haqq din İslamı cəmiyyətlərə tanıtmaqla məsuliyyət daşıyırdı. O dövrdə İslam dinini Peyğəmbərimizdən və müsəlmanlardan dinləyənlərin bəzisi iman gətirmiş,

bəzisi isə gətirməmişdir. Quranın açıq hökmlərinə əsasən, Peyğəmbərimiz və yanındakı müsəlmanlar qətiyyən insanlara təzyiq göstərməmişlər.

Quranda Peyğəmbərimizə **"(Onlara) nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üzərində hakim deyilsən!" (Ğaşiyə surəsi, 21-22)** ayələri ilə təzyiq göstərmək qəti olaraq qadağan edilmişdir. Qurana əsasən, digər bütün müsəlmanlar da İslam əxlaqını yaymaqla vəzifəlidirlər. Lakin heç kim "sən



**İslam hüququna görə, müharibə ancaq hücuma qarşı özünümüdafiə şəklindədir və müharibə başa çatdıqda tutulan əsirlər sərbəst buraxılır. Bu beynəlxalq müharibə hüququnda belə olmayan bir tənzimlənmədir. Buna baxmayaraq, Əfqanıstan müdaxiləsinin bitməsinə rəğmən, Quantanamoda müharibə əsirləri hələ də məhbus olaraq saxlanılır və BMT, NATO kimi paktlar da bu vəziyyəti məqbul hesab edirlər.**



müsəlman olmalısan", "ibadət etməlisən" kimi sözlərlə məcbur edilə bilməz. Quranın məqsədi dünyaya sevgi və hüzur gətirməkdir. Beləliklə, İslamda məcburiyyət yoxdur.

Quranda təzyiqin açıqca qadağan edildiyi digər ayələr belədir:

**De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın". (Kəhf surəsi, 29)**

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən? (Yunis surəsi, 99)**

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**



**(Onlara) nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üzərində hakim deyilsən! (Ğaşiyə surəsi, 21-22)**

**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 1-6)**



Məcburiyyət və təzyiq Quranda qadağan olunduğuna görə savaş, hücum, düşmənçilik və qəzəb üçün heç bir səbəb qalmır. Əgər təzyiq yolu ilə dini qəbul etdirmək haramdırsa, müsəlmanlar müşrik topluluqlarını nəyə məcbur edəcəklər? Beləliklə, Qurandakı İslama görə, İslamı qəbul etdirmək üçün əsla savaşa əl atılmaz.

## İdeoloji və etnik yöndən üstünlük qazanmaq üçün müharibə edilməz

İslamda hər ideologiya, millət, etnik qrup və dinə hörmətlə yanaşılır. İslam hər fikrin dinlənildiyi və söz azadlığının tam yaşandığı dindir. Belə nümunəvi demokratik anlayışın və hürriyyətin olduğu dində fikir və ya etnik fərqliliklərə görə müharibə etmək mümkün deyil.

## Müsəlman lider İslam qanunlarını yaymaq məqsədilə müharibə etməz

Qurana əsasən, müsəlman lider cəmiyyətdəki xristian, musəvi, ateist, kommunist, aqnostik, buddist və bunlar kimi digər ideologiyalara malik insanları da qorumalıdır. Fikir azadlığını tam mənası ilə mənimsəyib insanlara hürriyyət verməlidir.

Azadlığın olmadığı yerdə anarxiya, çaxnaşma, qarışıqlıq, həmçinin ikiüzlü insanlar ortaya çıxırlar. Müsəlman lider bütün bunların qarşısını almalı və Quranın əmrini yerinə yetirməlidir. İman gətirən hər kəs **“Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun” (Nisa surəsi, 135)** ayəsinə əsasən,

insanların inanc və soyuna baxmadan ədaləti təmin etməklə vəzifəlidir, öz əleyhinə olsa belə...

### Düşmən kimi görünən şəxslərin ortadan qaldırılması üçün müharibə etmək olmaz

İslamda necə düşmən ola bilər? İslam dini bütün insanların bərabər və qardaş olmasının tərəfdarıdır. İslama görə, dərisinin rəngi, dili, dini, irqi, vətəni və sosial durumun necə olmasından asılı olmayaraq, insana sırf insan olduğu üçün hörmət edilər. Bütün haqq dinlərin bildirdiyi kimi, insanlar hz. Adəmin övladları olaraq qardaşdırlar. Bu qardaşlıq dindar olmağın zərurətidir.

İslam irq üstünlüyünə əsaslanaraq insanları inkişaf etmiş və ibtidai olaraq siniflərə ayıran bütün faşist ideologiyalara, materialist və darvinist düşüncələrə qarşıdır. Beləliklə, bu azğın ideologiyaların səbəb olduğu münaqişə və savaş anlayışları İslamda yoxdur, tam əksinə, İslam bunlara qarşı elmi mübarizə aparır. İslamın hər kəsin hörmətə layiq olduğunu göstərən qanunları insanlar arasındakı gözəl münasibət üçün zəmin yaradır. Yanlış əxlaqlı şəxsə də İslama görə hörmət edilər və gözəl əxlaqlı olması üçün cəhd edilər. Beləliklə, həqiqi müsəlmanın özünə düşmən qazanması mümkün deyil. Hər müsəlman başqalarına qarşı şəfqətlə davranmalı və gözəl əxlaqı yaymağa çalışmalıdır.

Quran ayələrində insanlara xitabən ayrı-seçkilik edilmədən "Adəm oğulları" ifadəsindən istifadə olunması insanların bərabər yaradıldığını göstərir:

**Biz, Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik. (İsra surəsi, 70)**

Yuxarıda xülasə şəklində qeyd etdiyimiz kimi, heç bir əsas olmadığı halda, İslamın savaş dini adlandırılması yalnız xurafatçıların yanlış əməllərindən qaynaqlanır. Bir qisim insanlar İslamla əlaqədar həqiqətləri bilmədiklərinə və yalnız radikalların hərəkətlərinə şahid olduqlarına görə İslam haqqında yanlış fikrə düşürlər. Halbuki İslam dini və İslam şəriəti Quran ayələri üzərində qurulmuşdur. Uydurma hədis və xurafatlara əsaslanan başqa qaynaqların həqiqi müsəlman üçün əhəmiyyəti yoxdur. Bəs elə isə müsəlmanlar savaşmaq istəyərlərmi?

## Müharibəni kimlər istəyir?

Bəzi qruplar tərəfindən idarə edilən silah sektoru iqtisadi böhrandan təsirlənməyən yeganə sahədir. Alış-satışının bitmədiyi və davamlı yenilərinin dünya bazarına çıxarıldığı bu sektorun güclü olmasının səbəbi, təbii ki, müharibələrdir. Bunun üçün öz dinini savaş dini zənn edən və bu səbəbdən ölüb-öldürməyə hazır olan kütlə, yəni İslam adına ortaya çıxan radikal qruplar təhrik edilir.

Bir qisim neokonlar və Qərbdəki digər İslam əleyhdarları vəhşiliyin dünyaya radikallar tərəfindən yayıldığı mövzusunda haqlıdırlar. Lakin onlar Üsamə Bin Laden kimi bəzi liderlər haqqında yanılırlar. Ümumiyyətlə, belə

saxta liderlər İslamla əlaqəsi olmayan, fəqət müxtəlif kəşfiyyat orqanlarının nəzarətində saxlanılan şəxslərdir. Müəyyən yerlərdə qarışıqlığın çıxması və ya savaşın başlaması üçün dərhal önə çıxarılırlar. Qərb ölkələrində bar və kafelərdə vaxt keçirərkən əmr gələndən sonra tez saqqal buraxır, paltarını və üslubunu dəyişib Yaxın Şərqə məxsus görünüşə bürünürlər. Beləliklə, illərlə öyrəndiyi xurafatları tətbiq etmək üçün hərəkətə keçirlər.

Bu ssenari dünyada dəfələrlə həyata keçirilmişdir. Bin Laden bu ssenarinin aktyorlarından yalnız biri idi. Bəzi gizli təşkilatlar Peyğəmbərimizin (səv) axırzamandakı ən böyük müjdəsi olan hz. Mehdinin gəlişindən və müsəlmanların bu mövzudakı səmimi arzusundan istifadə edib Bin Ladeni sanki Mehdi görünüşündə qələmə verdilər. Bir çoxlarını da buna inandırmağa çalışdılar. Bin Ladenlə başlayan proses təkcə Əfqanıstana deyil, bütün müsəlman aləminə zərbə vurdu. Ssenarinin sonunda isə Bin Ladenin ölmüş görüntüləri göstərildi. Bu, planın ən diqqətçəkən hissəsi idi. Plana görə, müsəlman aləmi Mehdilərinin öldüyünü görəcək və bütün ümidləri suya düşəcək. Bu, İslam aləminin gücdən salınıb daha çox istismar edilməsi üçün qurulmuş sistemli plan idi.

Radikal düşüncəli insanlar da bu məsələdə, əlbəttə, günahkardırlar, ancaq onları yetişdirən təşkilatlar da onlar qədər günahkardırlar.

Silah sənayesi çox gəlirli sahə olduğu üçün müharibə bəzi şəxslərin işinə yarayır. Müharibəyə təşviq edilənlər, əsasən, radikal qruplardır, lakin

müharibədən mənfur mənfəətləri üçün istifadə edənlər radikalların başçılarıdır.

Radikallardan şikayət edən amerikalı və avropalılar bu başçıların öz içlərində olduğunu unutmamalıdırlar. Müsəlman ölkələrindəki etiraz və qiyamları açıqca təşkil edib yönləndirən təşkilatlar bu hədəflərini dilə gətirməkdən çəkinmirlər. Bu, yenə də xurafat üzündən məzhəblərə bölünüb bir-birini düşmən elan edən radikal qrupların günahını xəfiflətmir.



Yuxarıda saydığımız halları nəzərə alaraq deyə bilərik ki, sülhün bərqərar olması üçün şəxsi mənfəətlər düşünülməməli, torpaq hərisliyi bitməli, düşmənçilik ortadan qalxmalı və xurafat yox edilməlidir. Bunlar üçün də haqq dinlərə, din əxlaqına, dindarlara və Qurana ehtiyac vardır. Əks halda siyasi və maddi mənfəətlər, yaxud torpaq və ya ideologiyalar uğrundakı çəkişmələr daim davam edəcək. Bunu ancaq gerçək din anlayışına əsaslanan maarifləndirmə aradan qaldıra bilər. Qurana əsaslanan belə təlim yanlışlıqları və düşmənlikləri sona çatdırar. Zehinləri dəyişən insanlar düşmənlik və ya müharibə üçün heç bir səbəb tapmayacaqlar. Qeyd etdiyimiz kimi, bunun yeganə yolu Quran əxlaqına uyğun maarifləndirmədir.





**Öz zalım əməlləri üçün müharibəyə ehtiyacı olanlar, əsasən, radikal qrupları təşviq edirlər. Müharibəyə hazır olan cəhalət içindəki bu qruplar onları "idarə edənlər" üçün nəzərdə tutulmuş örtükdür. Bunlar asanlıqla müharibəyə yönləndirilə bilən adi piyadalardır.**

## Radikalizmə yol açan önəmli səbəb: Quantanamo

2015-ci ilin əvvəllərində Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) hesabatı yayımlandı. Bu hesabat bütün dünyada böyük diqqətə səbəb oldu və 11 sentyabrdan sonra ABŞ-ın məhkumlara qarşı hamıya məlum işgəncələrini dəqiqləşdirdi.

Əbu Qreyb həbs-xanasının şəkilləri, Quantanamoda göstərilən təzyiqlər və sərbəst buraxılanların



sözləri əsasında dünya onsuz da 11 sentyabrdan sonra ABŞ-da kəşfiyyat işlərinin necə həyata keçirildiyini az-çox bilirdi. ABŞ-da 11 sentyabrdan öncə də işgəncələrə əl atılırdı. Bununla yanaşı, yayımlanan hesabatda yeni işgəncə üsullarından tutmuş bunu tətbiq edən mütəxəssislərə nə qədər pul ayrıldığına qədər bütün təfərrüatları dünya gördü. Bəs illərlə davam edən işgəncələr ABŞ-a, yaxud dünyaya nə qazandırdı? Rahat şəkildə bu suala cavab olaraq: "Heç bir şey", -deyə bilərik. Senator Herri Reyd işgəncələrin ABŞ-a mənfi imicdən başqa heç nə qazandırmadığını etiraf edir. Bəzi respublikaçıların iddialarının əksinə, tədqiqatçılar da MKİ-nin 6 milyon səhifəlik sənədlərini araşdırmasının ardından zəruri məlumat tapılmadığını təsdiq etdilər.



Bu, bir həqiqətdir ki, radikal terror təşkilatları haqqında mühüm məlumatları olan qruplaşma liderlərini və ya mənsublarını canlı surətdə ələ keçirmək haradasa qeyri-mümkündür. Belə bilgisi olan terrorçular mütləq mühafizəçi, polis, yaxud da əsgərlərlə döyüşə girib ölümə vəsilə axtarırlar. Ələ keçiriləcəyini anladıqda isə intihar edirlər. İndiyədək bu nümunələrə dəfələrlə rast gəlinmişdir. Lakin ABŞ-ın ələ keçirdiyi şəxslər araşdırıldıqda çoxunun müqavimət göstərmədən həbs edildiyini görürük. Həmin şəxslər özlərinə, yaxud çevrəsinə zərər vermədiyi halda, həbs edilmişlər. Onlar işgəncənin tez bitməsi üçün verdikləri məlumatların xəyallarının məhsulu olduğunu etiraf etmişlər. Beləliklə, bu tarixi dərs bir daha sübut edir ki, heç bir dövlət mühüm bilgilərə sahib terrorçuları canlı ələ keçirə bilməz.

ABŞ azad, təhlükəsiz və adət-ənənələrini qoruduğu ölkə kimi yaşamaq istəyir. Buna görə trilyonlarla dollar xərcləyir və minlərlə gənc müharibədə həyatını itirir. Tək məqsədi isə öz dəyərlərini qorumaq və bunları təhdid edənlərə göz dağı verməkdir. Hamıya məlumdur ki, ABŞ hər nə qədər dünyəvi qanunlarla idarə olunsa da, özünü xristian cəmiyyət kimi qələmə verir və Avropa ilə müqayisədə daha mühafizəkar quruluşa malikdir. Bəs bu mühafizəkar cəmiyyətin müqəddəs kitabı olan İncil sevgini, şəfqəti, bağışlayıcı və birləşdirici olmağı əmr etmirmi? Hansı xristian cinayət törətməkdə şübhəli bilinən

bir insana işgəncə verilərək öldürülməsinə razı olar? Əgər ABŞ öz dəyərlərini qorumaq istəyirsə, çətin şərtlərdə belə bunlara sadiq olmalıdır. Senator Dayan Faynşteyn senatda çıxışı zamanı işgəncələrin Amerika dəyərlərinə ləkə gətirdiyini qəbul etmişdir.

İşgəncə mübarizə üsulu deyil, qəddarlıq nümunəsidir. 12 illik müharibədə çətinliklə toplanan məlumatlar Əl-Qaidə və Taliban kimi terror təşkilatlarının nəinki ortadan qalxmasına, heç zəifləməsinə də yardımçı olmamışdır. Əksinə, həmin terror təşkilatları daha da güclənmiş, dünyanın fərqli bölgələrinə yayılmış və yeni qruplaşmalar yaratmaqla daha təhlükəli olmuşdur. ABŞ Əl-Qaidəni ortaya çıxaran səbəblərlə fikri mübarizə aparmaq yerinə, müharibələrdə çoxlu mülki şəxslərin ölümü ilə nəticələnən hücumlar həyata keçirmiş və bu da bəzi yeni alt qruplaşmaların terror təşkilatlarına qoşulmasına yol açmışdır.

Dağıdıcı qüvvəyə qarşı dağıdıcı üslubda cavab vermək onun təsirini azaltmır. Şiddət hər zaman daha çox şiddətə, qan hər zaman daha çox qana səbəb olur. Beləliklə, radikal terrorla mübarizə zamanı daha radikal taktikalardan istifadə etmək həmin terror qruplaşmalarının güclənməsinə səbəb olur. Beləcə, əsla bitməyən müharibələrə yeni qapılar açılır.

*De: "Haqq gəldi,*
*batil puç olub getdi.*
*Həqiqətən də*
*batil puçluğa məhkumdur!"*
*(İsra surəsi, 81)*



# RADİKALİZMİN YANLIŞLIĞI VƏ HƏQİQƏTLƏR

Terror anlayışından bəhs etdiyimiz bu kitabda radikalizm haqqında da məlumat vermək lazımdır. “Radikalizm” hər hansı mövzuda sərt və köklü dəyişikliklərin tərəfdarı olmaq və bu məqsədə çatmaq üçün amansız siyasət yürütmək mənasına gəlir. Hər mövzuda olduğu kimi, bunda da müsəlmanın meyarı Quran ayələri və Peyğəmbərimizin (səv) həyatı olmalıdır. Qurana nəzər saldıqda radikal üslubun Allahın möminlərə əmr etdiyi üslubla əsla əlaqəsinin olmadığını görürük. Allah Quranda möminləri həlim, təvazökar, gözəl sözlü insanlar kimi təsvir edir. Bu mövzuda bizə yol göstərən nümunələrdən biri Allahın hz. Musa və hz. Haruna əmridir. Allah elçilərinə Fironla yumşaq danışmağı buyurmuşdur:

> **Fironun yanına gedin. Çünki o həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun! (Taha surəsi, 43-44)**



Firon öz dövrünün ən zalım və üsyankar inkarçısı idi. Allahı inkar edib saxta ilahlara inanmış, iman gətirənlərə (İsrail oğullarına) dəhşətli zülmlər vermişdir. Buna baxmayaraq, belə şəxslə Allah yumşaq davranmağı buyurmuşdur. Diqqət edilsə, görürük ki, Allahın bildirdiyi üslub dostcasına ünsiyyət qurmaqdır, etiraz nümayişləri və ya qəzəbli şüarlarla istəyini bildirmək deyil.

## Quranda gözəl söz söyləməyə bəzi nümunələr

Müsəlmanlara gözəl üslubun necə olduğunu göstərən nümunələrdən biri də keçmiş peyğəmbərlərdən hz. Şüeybin qövmü ilə olan dialoqudur. Quranda bu barədə belə deyilir:

**Mədyən qövmünə də qardaşları Şüeybi (göndərdik). O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi bolluq içində görürəm və qorxuram ki, başınıza (hər şeyi) bürüyən günün əzabı gələ.**

**Ey qövmüm! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əksik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!**

**Əgər möminsinizsə, Allahın saxladığı (nemətlər) sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm”.**

**Onlar dedilər: “Ey Şüeyb! Atalarımızın**





**ibadət etdikləri (tanrılardan), yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan".**

**O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun?" Sizə qadağan etdiyim şeylərlə əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm.**



**Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam". (Hud surəsi, 84-88)**

Bu dialoqda hz. Şüeybin qövmünü dinə gözəl əxlaqla dəvət etdiyi və bu zaman çox təvazökar davrandığı görünür. Ayələrdəki bəzi ifadələrin hikmətini belə açıqlamaq olar:

*** "Mən sizin üstünüzdə gözətçi deyiləm"**: hz. Şüeyb bu sözü ilə qövmünə hökm etmək niyyətində olmadığını, onlara yalnız Allahın bildirdiyi həqiqətləri çatdırdığını buyurur.

*** "Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan"**: inkarçıların hz. Şüeybə dediyi bu söz onun çox mülayim və nəzakətli olduğunu təsdiq edir. Onlar hz. Şüeybin ağıllı və kamil insan olduğunu qəbul edirlər.

*** "Ey qövmüm! Bir deyin görək"**: Bu ifadə hz. Şüeybin insanların fikrini öyrənib onları dinlədiyini və düşünməyə dəvət etdiyini göstərir.

*** "Sizə qadağan etdiyim şeylərlə əleyhinizə çıxmaq istəmirəm"**: Hz. Şüeybin bu qadağası feili deyil, bəzi şeylərin günah olduğunu açıqlayıb insanları bundan vaz keçməyə dəvət edir. Bundan başqa, hz. Şüeyb belə deməklə məqsədinin qövmü ilə çəkişmək olmadığını, onları yalnız iman və gözəl



əxlaqa dəvət etmək olduğunu bildirir.

Quran ayələri araşdırıldıqda yumşaq və mərhəmətli üslubun bütün peyğəmbərlərin ortaq xüsusiyyəti olduğu görünür. Allah hz. İbrahimin mülayim əxlaqını **“Həqiqətən, İbrahim çox yalvaran həlim bir kimsə idi” (Tövbə surəsi, 114)** ayəsi ilə təsvir edir. Peyğəmbərimiz hz. Muhəmmədin (səv) əxlaqını göstərən bir ayə isə belədir:

**Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. (Ali-İmran surəsi, 159)**

## Qəzəbli üslubdan çəkinmək Allahın əmridir

Radikalizmin nəzərəçarpan bir xüsusiyyəti də qəzəbli üslubdan istifadə edilməsidir. Bu, radikal şəxslərin danışıq və yazılarında özünü qabarıq şəkildə büruzə verir. Halbuki qəzəb müsəlman xüsusiyyəti deyildir. Allah Quranda möminləri təsvir edərkən belə buyurur:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 134)**

Müsəlmanların qəzəbli davranmasına hər hansı vəziyyət səbəb ola bilməz. Müsəlmanın digər insanlardan tək istəyi onların Allaha iman gətirməsi və gözəl əxlaqlı olmasıdır. Bu isə ancaq Allahın o insanlara hidayət verməsi ilə mümkündür. Biz nə etsək də, insanlara həqiqətləri nə qədər izah etsək də, qəlblər





Allahın əlindədir. Allah **“İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi?” (Rəd surəsi, 31)** ayəsi ilə bu önəmli həqiqəti müsəlmanlara xatırladır.

Bu səbəbdən müsəlmanın vəzifəsi yalnız haqqı çatdırmaq və insanları Quran əxlaqına dəvət etməkdir. Onların bunu qəbul edib-etməməsi tamamilə öz vicdanlarına buraxılır. Allah bunu Quranda bir daha vurğulayır və dində məcburiyyətin olmadığını bildirir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah eşidəndir, biləndir. (Bəqərə surəsi, 256)**

İnsanların iman gətirib müsəlman

olması, həmçinin müsəlman olanların ibadətləri yerinə yetirməsi və günahlardan çəkinməsi üçün heç bir təzyiq göstərilə bilməz. Buna görə yalnız öyüd-nəsihət verilə bilər. Allah müsəlmanların məcburedici olmadığını Peyğəmbərimizə xitabən vəhy etdiyi bəzi ayələrdə belə xəbər vermişdir:

> **Biz onların nə dedik-lərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

> **De: "Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Mən sizi qoruyan deyiləm". (Yunis surəsi, 108)**

Müsəlmanlar yalnız din əxlaqını yaymaqla və ən zalım inkarçılara belə yumşaq davranmaq-la məsuliyyət daşıyırlar. Buna görə də radikal ola



bilməzlər, radikallar isə saydığımız bütün müsəlman xüsusiyyətlərin əksini müdafiə edirlər. Həqiqətdə radikalizm İslam dünyasına sonradan əlavə edilən fikir cərəyanı və siyasi mövqedir. Sosial faktlar araşdırıldıqda radikalizmin keçmişdə kommunistlər tərəfindən istifadə olunan üsul və üslubların məcmuəsi olduğunu görürük. Radikalizm İslamda heç bir yeri olmayan fanatizmin (Fəth surəsi, 26) ifadəsi kimi ortaya çıxıb.

## Radikalizm və terror ortadan necə qalxar?

Əvvəlki hissələrdə də bəhs etdiyimiz kimi, Əfqanıstandan Liviyaya, Nigeriyadan İraqa kimi 13 illik hərbi əməliyyatlardan sonra məlum olmuşdu ki, radikal terrorçu qruplaşmalar hərbi güc, şiddət və təzyiqlə yox olmamış, əksinə, daha da güclənmişdir. Bundan başqa, hava hücumları və quru əməliyyatları da daxil olmaqla, hər növ hərbi əməliyyat daha çox mülki vətəndaşların ölümünə, şəhər və infrastrukturların dağılmasına səbəb olub. Bu da həmin ölkələrdə qəzəbə yol açmış və radikal təşkilatların işinə yaramışdır.

Bəzi analitiklərə görə, terror təşkilatlarının liderlərinin öldürülməsi ən təsirli metod kimi göstərilsə də, daha geniş perspektivdən baxdıqda bunun heç bir nəticəsinin olmadığı görünür. Məsələn, Üsamə Bin Ladenin öldürülməsi Əl-Qaidənin dağılması ilə nəticələnmədi. Bununla yanaşı, terror təşkilatları bu silahlı hücumları mahirliklə təbliğat vasitəsinə çevirirlər. Onlar bu hücumları öz məqsədlərinin haqlı olduğuna dəlil kimi göstərirlər. Buna görə də bu cür terror təşkilatları həm daha da güclənir, həm də fəaliyyətlərini yeraltı sığınacaqlarda davam etdirirlər ki, bu da onlara qarşı hərbi müdaxiləni təsirsiz




edir. Terroru ortadan qaldırmaq üçün sosial-iqtisadi inkişafa təkan vermək və şiddətli terror fəaliyyətlərinin baş verdiyi bölgələrdə demokratik prosesləri sürətləndirmək lazımdır. Bunları həyata keçirmək üçün radikal düşüncənin kökündə yatan cəhalətin ortadan qaldırılması şərtdir. Bunu isə ancaq maarifləndirmə və mədəni fəaliyyətlər yolu ilə həyata keçirmək olar. Bu üsul silahlara milyardlarla pul xərcləməkdən daha sərfəlidir və daha yaxşı nəticələr






**Radikal ideologiyaya qarşı yalnız fiziki gücdən istifadə etməklə mübarizə aparmaq nəticə verməz, hətta bu radikalizm tərəfdarlarının sayını daha da artırar. Radikalizmi və onun qlobal təsirini aradan qaldırmaq, həmçinin demokratiya, plüralizm və insan haqları kimi müsbət insani keyfiyyətləri ayaqda saxlamaq üçün təhsil ən vacib addımdır.**

verər. Terror təşkilatlarının üzvləri azğın qatil olmamışdan əvvəl onları maarifləndirmə yolu ilə durdurmaq, həmçinin həmin təşkilata qoşulanların artmasının qarşısını almaq mümkündür. Kütləvi informasiya vasitələri ilə aparılan təlim işlərinə heç bir terror təşkilatı müdaxilə edə bilməz. İdeologiyası-

nı itirən hərəkat həyatda qala bilməz. Ölkələr ya bu vəzifəni öz boyunlarına götürməli, ya da bunu yerinə yetirməyə könüllü olan ictimai təşkilatları dəstəkləməlidirlər. Dünya miqyasında üz-üzə qaldığımız amansız terrorun qarşısını almaq üçün ideoloji əsasının nə olmasından asılı olmayaraq, bütün terror təşkilatlarına qarşı təlim səfərbərliyi aparılmalıdır. Məsələn, NATO ekstremizmə qarşı silahlı mübarizəyə böyük məbləğdə maliyyə ayırır, lakin bir tərəfdən də təhlükə böyüməyə davam edir. Bu problemin həlli maliyyə qaynaqlarının düzgün idarə olunmasındadır. Ekstremist ideologiyaya qarşı yalnız fiziki mübarizə aparmaq çox az nəticə gətirir, hətta bu ideologiyanı dəstəkləyənlərin sayını artırır. Bölgədəki hərbi əməliyyatlar həm daha çox insanın həyatı bahasına başa gəlir, həm də bu əməliyyatlarda ölən insanların yaxınlarının Qərbə qəzəblənərək ekstremistlərə qoşulmasına səbəb olur. Son dərəcə təhlükəli olan radikal cərəyanların məğlub olması üçün onların ideoloji əsasları dünya miqyasında yox edilməlidir. Bunun öhdəsindən isə ancaq qərbli müttəfiqlərin də yardımı ilə Yaxın Şərq ölkələri gələ bilər. Radikalizmi və onun dünyadakı təsirlərini ortadan qaldırmaq, demokratiya və insan haqlarını ön plana çıxarmaq üçün maarifləndirmə ən əhəmiyyətli addımdır. Dünyanın təhlükəsizliyini təhdid edən radikalizmin inkişafının qarşısını almaq üçün dünya liderləri təlimə önəm verməli və fikri mübarizənin təcili olduğunu görüb cəhalətin ortadan qaldırılması yollarını axtarmalıdırlar.

# MÜHARİBƏNİN SƏBƏB OLDUĞU MADDİ ZİYAN VƏ BUNUN ƏVƏZİNƏ ÇƏKİLƏCƏK XƏRCLƏR




ABŞ-ın hərbi büdcəsi ardıcıl olaraq 11 il ərzində 104 % həcmində artmışdır. 2001-ci ildə 354 milyard dollar olan xərclər 2011-ci ildə 721 milyard dollara yüksəldi.

Pentaqon müharibə üçün 50 ştatın səhiyyə, təhsil və təhlükəsizlik xərclərindən daha artıq büdcə nəzərdə tutmuşdur.



Hərb üçün xərclənən 1 milyard dollarla təbiətə, səhiyyə və təhsilə investisiya qoyula bilər, beləcə, 5000-dən 17 000-dək insana işləməyə şərait yaranar və ya 1 ildə İraqda müharibə üçün xərclənən 11 milyard dollar ilə 220 000 müəllimin maaşı verilə bilər. Eyni şəkildə, İraqdakı tək bir əsgərin illik dolanışıq xərci ilə Amerikada ehtiyacı olan 60 ailənin yemək xərcləri ödənilə bilər.





## Terrorla fikri mübarizənin əhəmiy-yətinə bir nümunə: "Çarli Hebdo" (Charlie Hebdo) hücumu

Kitabın əvvəlindən bəri bəhs etdiyimiz xurafatlardan güc alan radikalizmin ən qorxunc terror əməllərindən biri Parisin mərkəzində "Çarli Hebdo" jurnalının 12 əməkdaşının öldürülməsi idi. Bu hücumdan sonra sinaqoq, məscid, qəbiristanlıq və dini vəqflər də təhlükə altında idilər. Danimarkada həmin jurnalın əməkdaşlarının anım mərasiminə təşkil edilən hücum problemin ciddiliyini bir daha göstərirdi.

Hazırda dünyada nifrət geniş yayılıb, bundan da ən çox adi insanlar zərər çəkirlər. Başda müsəlmanlar olmaqla, radikallar Avropanı musəvilər, xristianlar və digər azlıqlar üçün yaşanmaz yerə çevirmək istəyirlər. Bu vəziyyət öz vətəndaşlarına da təsir edir. Terror, anarxiya və şiddət bu əsrin ən böyük bəlasına dönüb. Xüsusilə İslam coğrafiyası bu bəla üzündən çox acılar çəkir. Lakin bunu təkrar qeyd etmək lazımdır ki, terrorun dini yoxdur. Terror və şiddət insanı kor təsadüflərin məhsulu zənn edən təhsil sisteminin labüd nəticəsidir. Bu sistem insanları vəhşi mühitdə həyatda qalmaq üçün





**Fikirlərdəki yanlışlıqlar müxtəlif formalarda ifadə edilə bilər, ancaq fərqli düşündüyü üçün bir insanın öldürülməsi, ya da insana əziyyət verilməsi qəbul edilə bilməz. Haqqında danışılan şəxs ifadə azadlığından sui-istifadə edib başqalarının müqəddəs dəyərlərini təhqir etsə belə, problem şiddət və ya kobud yollarla deyil, ancaq mədəni və hörmətə əsaslanan davranış çərçivəsində həll edilməlidir.**

mübarizə aparan heyvan kimi görür və insanlara mərhəmətsizliyi, eqoistliyi öyrədir. Bu sistemdə yardımlaşma, şəfqət və sevginin dəyəri yoxdur. Bir insanın nə qədər mərhəmətsiz olarsa, o qədər güclü olacağı düşünülür. Bu təhsili alan insan mənəvi yöndən güclü deyilsə və vicdanına tabe olmazsa, terroru "özünü sübut etmə və haqqını əldə etmə" vasitəsi kimi görər və hər cür ideologiyaya meyil edə bilər. Qısacası, belə təhsilə yiyələnmiş insanı bəziləri kommunist, bəziləri xurafatçı və ya digər azğın ideologiyanın təlqinləri ilə terrora yönləndirə bilər. Buna görə də dünyanın terrora qarşı almalı olduğu ilk tədbir bu yanlış təhsil sistemini düzəltmək olmalıdır.

"Çarli Hebdo"nun və bənzəri informasiya vasitələrinin müsəlmanları incitdiyi doğrudur. Jurnal təkcə müsəlmanları deyil, həmçinin xristian, musəvi və buddistləri də incidən məqalələr yayımlamışdır. Belə ki, bir müsəlman hüquq çərçivəsində məhkəməyə baş vurub haqqını tələb edə bilər. Həmin şəxslərə dostca yanaşmaqla, etdiklərinin xoş olmadığını söyləyib sevgi və mərhəməti təşviq edə bilər. Bu hərəkətlərin yanlış olduğunu yazaraq və ya danışaraq doğruları dünyaya çatdıra bilər. Qurana tabe olan müsəlman İslama inanmadığı üçün əsla başqasını öldürməz.

Digər tərəfdən, dünyanın bir çox yerində İslam adından cinayətlər törədilir və son dərəcə vəhşi əməllər edilir. Üstəlik bu mənfur əməllərdən ən çox elə müsəlmanlar əziyyət çəkirlər. Dünyanın hər tərəfində, demək olar ki, hər gün baş verən terror hücumlarında yüzlərlə müsəlman həyatını itirir. Unutmaq olmaz ki, bu insanların əməlləri Qurana uyğun deyil, bunlar xurafatlardır. Peyğəmbərimizin (səv) vəfatından sonra ortaya çıxan xurafat Allahın və Peyğəmbərimizin (səv) adından dində olmayan hökmlər meydana gətirmişdir.

## İSLAM DİNİ BU CİZGİLƏRDƏN MÜNƏZZƏH VƏ UCADIR












**İslam əleyhdarları çəkdikləri karikaturalarla İslama qarşı qorxu və nifrəti gücləndirməyə çalışırlar. Müsəlmanlar bu rəsmlərə etibar etməyib xurafat və fanatizmdən uzaq olan və Qurana əsaslanan İslamı bütün dünyaya yaymağa davam etməlidirlər.**

Uydurma hədislər əsasında ortaya çıxarılan bu sistemdə sevgi, mərhəmət, dostluq, qadına dəyər vermək, elm və sənət, qısası, insanlara hüzur və sevinc gətirən heç bir şey yoxdur. Təzyiq, mərhəmətsizlik və şiddət vardır. Xurafat insanı ölmədən məzara qoyur və İslam adından istifadə edərək insanlardan bütün gözəllikləri uzaqlaşdırır.

Müsəlmanların İslamın sülh dini olması haqqındakı sözləri Qurana əsaslanmalıdır. Xurafatlardan, uydurma hədis və rəvayətlərdən ibarət dini müdafiə edən şəxsin sülh və sevgidən bəhs etməsi mümkün deyil. Bu həqiqət yalnız müsəlmanlara deyil, terrorla mübarizə aparmaq istəyən Qərbə də əhəmiyyətli yol göstərir: terroru yox etmək bu şiddətin bünövrəsini fikrən ortadan qaldırmaqla mümkündür. Xurafat mövcud olduğu müddətcə İslam coğrafiyasını bombalamaq, bölgəyə əsgər göndərmək, terror təşkilatlarının liderlərini öldürmək, bir sözlə, şiddətə şiddətlə cavab vermək terrorun qarşını almaz, əksinə, qızışdırıb daha böyük canavara döndərər. Kin və nifrətə səbəb olan hər cür addımdan çəkinmək və silahların deyil, fikirlərin danışdığı mühit qurmaq lazımdır.

Yenidən xatırladaq ki, terrorun heç bir forması qətiyyən qəbul edilə bilməz. Xüsusilə bir insanı öldürməyi bütün insanları öldürməklə eyni tutan İslam dinini terrorla əlaqələndirmək əsrimizin ən qorxunc tragediyalarından biridir.

Terror küçələrdə keçirilən etiraz aksiyaları, dövlət başçılarının qınanması və yalnız "İslam sülh dinidir" şüarları ilə bitməz. İslamın sülh dini olduğunu bizə bildirən Qurandır. Bu həqiqət israrla, bütün dəlil və açıqlamaları ilə dünyaya elan edilməli, həmçinin İslam dünyası xurafatlardan təmizlənməlidir. Bu mövzuda, əlbəttə ki, Qərbin dəstəyi önəmlidir, lakin bunu əsas müsəlmanlar etməlidirlər.

## İnsanlar radikal terror təşkilatlarına niyə qoşulurlar?

Qərb ölkələrində terroru araşdıran mütəxəssislər, kəşfiyyatçılar, yazıçı və analitiklər müntəzəm olaraq bu suala cavab axtarırlar: insanlar radikal terror təşkilatlarına niyə qoşulurlar?

Bununla bağlı çoxlu nəzəriyyə irəli sürür, "şəhərin kasıb uşaqları", "cahil kütlənin mənsubları", "boşluq içində macəra axtaranlar" kimi ifadələr işlədirlər. Bəziləri bu qətliamları "utopik siyasətin cazibəsi" kimi qələmə verərkən, bəziləri də bu insanların "bizim də hekayəmiz olsun" məqsədilə yola çıxdığını iddia edirlər. Bu cür qruplarda çoxlu sayda karyera sahibi, həkim və mühəndislərin olması, bir çoxunun isə əsilli-köklü ailələrdən gəlməsi bu nəzəriyyələri alt-üst etdi. Bəziləri isə bu təşkilatlara qoşulanlara "ruhi xəstə" adını verdi. Bunun cavabını isə "Massachusetts Lowell's" Mərkəzinin terrorizm və təhlükəsizlik bölməsinin psixiatriya üzrə professoru Con Horqan (John Horgan) belə verir:



*"Onların dəli olduğunu düşünməyə olduqca meyilli idik. Terrorçuların əməllərinə görə mövzunun patoloji yöndən açıqlana biləcəyini zənn edirdik. Lakin terrorizmi ruhi xəstəlik olaraq açıqlamaq yanlışlıqdır".*[2]

Dr. Horqan və başqaları terrorizmə qoşulmaqla bağlı hər cür ehtimalı bir kənara qoydular. Çünki yoxsulluq, əqli xəstəlik və buna bənzər şeylər hər ölkədən insanların bu qədər çətinliyi keçib terror təşkilatlarına qoşulmasını açıqlaya bilməz. Heç kim "hekayəm" olsun deyə ailəsini, sevdiklərini, varını buraxıb hər cür vəhşiliyin yaşandığı savaşın içinə özünü atmaz və ölümü gözüyumulu qəbul etməz. Radikal təşkilatlara Avropa ölkələrindən Qazaxıstana, Avstraliyadan Somali, Rusiya və Tunisə qədər bütün dünyadan insanlar qatılırlar. Bunun sayı sürətlə artır və Fransa, Almaniya kimi Avropa ölkələri isə bu statistikada öndə gedir. İndi isə bu statistika qarşısında "insanlar bu təşkilatlara niyə qoşulurlar?" sualına cavab verək.

Gerçək İslamla əlaqəsi olmayan belə xurafatlardan ibarət dinin mənimsənilməsi müsəlmanların bir qismini azadlıq, elm və sənətdən, ən əhəmiyyətlisi isə Quranın əslindən uzaqlaşdırdığı kimi, onları həm də radikallaşdırdı. Radikalizmin ideoloji əsası nəzarətsiz (bəzən də dərin güclərin nəzarəti altında) yayıldıqca Qərb də daxil olmaqla, geniş coğrafiyanı təhdid etməyə başladı.

İnkişaf edən radikalizm islamofobiyaya səbəb olarkən bunun tərəfdarları istəməyərəkdən radikalizmi gücləndirdiklərini bilmirdilər.

Getdikcə genişlənən radikalizm bir tərəfdən islamofobiyaya səbəb olarkən, digər tərəfdən İslam əleydarları istəməyərək də olsa, radikalizmin güclənməsinə səbəb oldular. Çarəni İslam və müsəlmanları yox etmək, müsəlmanları ölkələrindən qovmaq və dünyada müsəlmanlara qarşı edilən



**Radikal təşkilatlara Avropa ölkələrindən Qazaxıstana, Avstraliyadan Somali, Rusiya və Tunisə qədər bütün dünyadan qoşulurlar.**
**Məsələn, sırf Əsəd rejiminin devrilməsinə dəstək olmaq üçün 80 ölkədən təxminən 15 000 silahlının Suriyaya getdiyi və bunların çoxunun hazırda İŞİD-ə qoşulduğu hesab edilir.**

zülmlərə tamaşaçı qalmaqda görənlərin sayı artdıqca nifrət daha çox böyüdü. Koalisiya qüvvələrinin Əfqanıstan və İraqa müdaxilələri isə səbir kasasını daşıran son damla oldu.

Qərbli koalisiya qüvvələrinin məqsədi, bəlkə də, bu torpaqlarda demokratiyanı bərqərar etmək idi. Lakin metod o qədər yanlış idi ki, bu təkcə Yaxın Şərqə deyil, Qərbin özünə də zərər verdi. Avropadan radikal qruplara qatılanların niyə bu qədər çox olduğunu və ABŞ ordusunun ən böyük prob-



leminin intiharlar olduğunu anlamaq istəyənlər aparılan siyasətlərdəki yanlışlığı bir az araşdırsınlar.

## Bəs həll yolu nədir?

Radikal təşkilatlar dünyada milyonlarla insanın doğru zənn etdiyi xurafatlardan ibarət dini tətbiq edirlər. Bu xurafatın davamçıları da onlara qarşı çıxa bilmir, çünki onların yanlış yolda olduğunu düşünmürlər. Odur ki, bu köklü problemin həlli ancaq İslam aləmini xurafatlardan arındırıb saf Quran əxlaqının tətbiq edilməsi ilə mümkündür ki, bunu da hz. Mehdi edəcək.

Radikal qruplar ən çox internet vasitəsilə güc qazanır. Sosial mediadan istifadə etməklə beş qitənin hamısından tərəfdar toplayırlar – bir neçə sətirlə insanları inandırırlar.



**Radikal təşkilatlar dünyada milyonlarla insanın doğru zənn etdiyi xurafat dinini tətbiq edir. Bu problemin köklü olaraq həll edilməsi ancaq İslam aləminin xurafatlara əsaslanan qaynaqları tamamilə kənara qoyub Qurana yönəlməsi ilə mümkündür.**

Bunu Con Horqan belə bildirir:

*"(Terrorçular) Sosial mediada o qədər professional olublar ki, müqabilindəkilərlə tək-tək təmas qururlar".*[3]

Dini maarifləndirmə bu qədər asan olduğu halda, qərbli koalisiya qüvvələrinin hələ də Körfəz bazalarına silah daşıması çox təəccüblüdür. Eyni metoddan – internet kimi güclü vasitədən istifadə edib xurafatın yanlışlığını Qurandan dəlillər gətirməklə izah etmək lazımdır. İslamın vəhşiliyi rədd etdiyini, sülh və sevgi tərəfdarı olduğunu Quranla sübut etməliyik. Qərbin əlindəki imkanların radikal qrupların imkanlarından daha çox olduğunu, əlbəttə, xatırlatmağa ehtiyac yoxdur. Qərb öz imkanlardan istifadə edərək maarifləndirmə işini aparsa, çox qısa zamanda radikalizm yox olub tarixə qarışar.

Avropa hazırda ölkələrinə qayıtma ehtimalı olan terror qruplarının üzvlərinə görə böyük qorxu içindədir. O bölgələrdə savaşıb geri dönən insanların ölkələrində terror əməllərinə mütləq davam edəcəklərinə inanır və bu səbəbdən güclü təhlükəsizlik tədbirləri alırlar. Həmin insanlar doğru İslama yönəldilsə, problemin kökündən həll olunacağını isə heç düşünmürlər.

Bir insan heç tanımadığı ölkəyə ölmək və ya öldürmək məqsədilə



**Bombalar, silahlar, raketlər radikalizm probleminə əsla həll gətirməyəcək, əksinə, radikal təşkilatlara üz tutanların sayını daha da artıracaq.**

gedirsə, bunun səbəbi yalnız onun inancıdır. Bu inanc yanlış olduğuna görə qarşımızda açıq və qəti həll yolu vardır: bu insanlara doğru inancı doğru qaynaqdan, yəni Qurandan öyrətmək. Ancaq Qərb ölkələri təlimdən qaçmağa davam etdiyi müddətcə dünyanı bürüyən fəlakət onları daha çox təhdid edəcək. Bombalamaq və raket atmaq problemin çarəsi deyil, yalnız nifrəti artıran vasitələrdir.



## TV xəbərləri terrora nəfəs almağa imkan verməməlidir

Artıq dünyanın ən çox inkişaf etmiş ölkələri də təhlükə altındadır. Bunun əsas nümunəsi Fransada İkinci Dünya Müharibəsindən bu yana əsgərlərin ilk dəfə şəhərə girməsidir. Parisdə ehtimal olunan terror hücumuna qarşı Eyfel qülləsinin ətrafına 1080 əsgərin yerləşdirilməsi terror təhlükəsinin ölçüsünü göstərir. Lakin bu tədbirlər kifayət etmədi və Fransa şəhərin mərkəzində ard-arda terror hücumları ilə qarşılaşdı.



Avropada son dövrlərdə faşist cərəyanlar baş qaldırdı, miqrantlara və müsəlmanlara qarşı hücumların sayı artdı. Ruslar və çeçenlər arasındakı gərginlik bitmək bilmir. Afrika və Yaxın Şərqdə uzun illərdir ki, qarşıdurmalar davam edir. Digər tərəfdən, dağlardakı terror əməllərinə guya son qoyan PKK terror təşkilatı Türkiyənin şəhərlərində qətllər törətməkdədir.

Terrorun məhv edilməsi üçün illərlə müxtəlif nəzəriyyələr irəli sürüldü və fərqli üsullardan istifadə edildi. Lakin bunların heç biri nəticə vermədi, əksinə, terror hadisələri daha da artdı. Bunun ən dəqiq nümunəsi Üsamə Bin Ladendir. Bu ölüm Əl-Qaidənin sonunu gətirdimi? Xeyr...

Terror təşkilatları cəmiyyətə hakim olmaq üçün günahsız xalqı qorxudaraq özünə zorla tabe etməyə çalışır. Bunun üçün ən mərhəmətsiz və qanlı olaylardan istifadə edir. Bunu edərkən öz tərəfdaşlarına ruh yüksəkliyi verib onların güclü olduğunu və müvəffəqiyyətin yaxın olduğunu deyirlər. Bu gün Türkiyədəki PKK terror təşkilatının törətdiyi əməllərdə də bunu açıq-aydın görürük.

Terror təşkilatları planlarını öncədən və dəqiqliklə qururlar. ABŞ-dakı 11 sentyabr və Rusiyadakı teatr hadisəsi, İngiltərədəki metro olayı, İspaniyada qatara hücum, Fransadakı hadisələr və PKK-nın Türkiyədəki bütün əməlləri incə planlar əsasında ortaya çıxmışdır. Sonuncu Paris olayındakı soyuqqanlı və professional terrorçular da bunu açıq şəkildə göstərdi.

Demək olar ki, bütün terror təşkilatları reklam məqsədilə mediadan aktiv şəkildə istifadə edirlər. Beləliklə, həmin qruplaşmalar törətdiyi təxribatları media vasitəsilə geniş şəkildə yaymağa çalışırlar. Onlara görə, müvəffəqiyyət əldə etmək törətdikləri əməllərin mediada yayılmasına bağlıdır. Məsələn, bu olaylar davamlı televiziya ekranlarında göstərilib sosial mediada

geniş yayıldıqda yüz dəfələrlə təkrarlanmış kimi təsir meydana gətirir. Bu səbəbdən dolayı, terrorla mübarizədə önəmli vasitələrdən biri mediadır. Media olaylara dair verdiyi xəbərlərdə terror təşkilatlarına istəmədən də olsa dəstək verməməlidir. Medianın terror hadisələrindən hansı şəkildə bəhs etməsi önəmli müzakirə mövzusudur. Necə ki, dünyanın ən qabaqcıl və çağdaş ölkələrinin belə terrora son verə bilməməyinin amillərindən biri medianın faydasız yayımlarla terroru sanki bəsləməsidir. Bu yayımlar sayəsində terror dəhşəti cəmiyyətlərə sürətlə yayılır.

Şübhəsiz ki, media xəbər özəlliyi daşıyan bir mövzuda hadisəyə obyektiv yanaşmalıdır. Lakin terror mövzusunda çox həssas davranmalıdırlar. Çünki insan həyatı hər cür dəyərdən üstün tutulmalıdır və istəməyərək də olsa terror təbliğatına izin verilməməlidir. Media terrorla bağlı xəbərlərə reytinq və rəqabət anlayışı ilə yaxınlaşmamalıdır. Məsələn, 11 sentyabr hadisəsindən sonra Amerika mediası, metro olayından sonra isə İngiltərə mediası bu xəbərlərdən bəhs edərkən çox ehtiyatlı davrandılar və strateji hərəkət etdilər. Son Ferquson hadisələrində də ABŞ olayın şiddətini cəmiyyətə çox yaymadı. Fəqət Parisdə baş verənlərin bütün incəlikləri dünyaya günlərlə xəbər verildi. Terror xəbərləri verilərkən yayımlanan görüntülərdə

çəkilişin yaxından olmamasına və əhalidə təşviş və qorxu yaradan ünsürlərə yer verilməməsinə diqqət edilməlidir. Əlaqəli şəxslərlə televiziya verilişi zamanı onlar siyasətçi də olsa terror təbliğinə yol açan açıqlamalara izin verilməməlidir. Terror təşkilatının çox güclü və təsirli olduğu imici yaradılmamalıdır.

Terrorla mübarizədə media ən önəmli vasitələrdəndir. Dövlətlər üçün media kanalı ilə təmas qurulan xalqı maarifləndirmək çox önəmlidir. Medianın xalq üzərindəki təsir gücü insanları terrorizmə qarşı məlumatlandırmağa yönləndirilməlidir. Terror təşkilatları hakim olmağa çalışdığı yerlərdə xalqa öz ideologiyalarını müntəzəm təlqin etdiyi kimi, dövlətlər də media vasitəsilə əhaliyə davamlı bilgi verməli və buna uyğun proqramların hazırlanmasını təmin etməlidirlər. Məsələn, terror qruplaşmalarının şiddət yönlü çıxışlarının elmi yolla tənqidinin müntəzəm yayımlanması bu yollardan biridir.

Unutmaq olmaz ki, terror yalnız silah və siyasətlə ortadan qalxmaz. Terroru sona çatdıran əsas amil onun ideoloji əsasına yönələn fikri mübarizədir.

## İslamofobiya, artan ifrat sağçılıq və əcnəbilərə qarşı çıxmaq radikalizmi artırır

İslam dininə və müsəlmanlara islamofobiya anlayışı ilə yanaşmaq 11 sentyabr hücumlarından sonra dünya gündəliyini zəbt etsə də, bunun kökü xaç yürüşlərinə, hətta daha da əvvələ – müsəlmanların ilk dövrlərdəki yayılmasına qədər uzanır. Müsəlmanlar indi bütün İslam dünyasına yayılmışdır və onlar 45 milyonu ötən nüfuzla Avropanın 6 faizini təşkil edirlər. Hər il 1 milyon



müsəlman Avropaya köçür. Avropada müsəlmanların doğumu qeyri-müsəlmanlara nisbətən 3 dəfə çoxdur. 2050-ci illərdə müsəlmanların nüfuzunun 20 faizə çatacağı və Avropanın beşdə birini təşkil edəcəyi təxmin edilir. Şübhəsiz ki, bu, Avropada islamofobiyanın artmasının başlıca səbəblərindən biridir. Lakin islamofobiyanın bütün dünyada güclənməsinin əsil səbəbi son dövrlərdə İslam adından ortaya çıxan radikal terror təşkilatlarının insanlığa sığmayan əməlləridir. İslamla heç bir əlaqəsi olmayan batil anlayışa malik bu radikal qruplar bütün dünyada İslama qarşı böyük qorxu və nifrətin oyanmasına səbəb oldu. Özlərini İslam təmsilçiləri kimi tanıdan bu qruplaşmaların vəhşi əməllərindən qaynaqlanan qorxu bütün dünyada islamofobiya kimi yayıldı.

**Avropadakı müsəlman əsilli miqrantlar islamofobiya ilə yanaşı, həm də ksenofobiya (əcnəbi qorxusu) ilə də mübarizə aparmaq məcburiyyətindədirlər.**








Müsəlmanların Qərb ölkələrində məruz qaldığı təzyiq və çətinliklər ədalətsizlik və tolerantlıqdan uzaq, insan haqları və müasir demokratiya ilə heç bir şəkildə uyğunlaşmayan rəftardır.




İslamofobiyanın güclənməsində əvvəllər də İslam əleyhdarları kimi özlərini tanıdan bəzi qruplar mühüm rol oynadılar. Bu qrupların fəaliyyəti haradasa sektor deyiləcək dövriyyənin meydana gəlməsinə və trilyonlarla dollarlıq beynəlxalq təhlükəsizlik, kəşfiyyat və sənayelərin ortaya çıxmasına şərait yaratdı. Bu dövriyyə iqtisadi, maliyyə baxımından güclü, enerji qaynaqları və yeraltı sərvətləri olan İslam dünyasının yüksəlişini durdurmaq məqsədinə xidmət edirdi.

Xüsusilə 11 sentyabrdan sonra qərbli hökumətlərin müsəlmanlara qarşı siyasəti və buna uyğun çıxardığı qanunlar islamofobiyanın yaranmasını






sürətləndirdi. Həmçinin ifrat sağçı partiyalar da İslam əleyhdarlığının qızışmasında böyük rol oynadılar. Bu partiyalar tez-tez islamofobiya ifadəsini işlədib səs toplayır, beləcə, müsəlman əsilli mühacirləri hədəf almaqla yüksəlirdilər. Avropadakı müsəlman əsilli miqrantlar islamofobiya ilə yanaşı, həm də ksenofobiya (əcnəbi qorxusu) ilə də mübarizə aparmaq məcburiyyətindədirlər. Mədəni və sosial həyatlarını təhdid etdikləri bəhanəsi ilə müsəlmanları yad qəbul edib alçaldan və maddi-mənəvi hücumlara məruz qoyan irqçi zehniyyət Avropanın bir çox ölkəsində genişlənməyə davam edir. Ən çox zərər görənlər yenə müsəlmanlardır. Məscid və iş yerlərinin daşlanması, molotov kokteyli atılıb divarlarına təhqiramiz sözlər yazılması, işçilərin döyülməsi, məzarlıqların dağıdılması, evlərə girməklə ailə üzvlərinin təhdid edilməsi və s. kimi hücumlar Avropada müsəlmanların tez-tez qarşılaşdığı hadisələrdir.

Bütün bunlar müsəlmanların qərb ölkələrində məruz qaldığı təzyiqləri gözlər önünə sərir. Halbuki başqa mühacirlər kimi, müsəlman miqrantlar da öz

ölkələrindən ayrılıb gəldiyi yerlərin ictimai həyatına inteqrasiya olmağa çalışan və cəmiyyətə iqtisadi yöndən fayda verən insanlardır. Şübhəsiz, bu insanlara təşəkkür etmək əvəzinə, yad davranmaq ədalətsizlik olmaqla yanaşı, insan haqlarına və müasir demokratiyaya da ziddir.

Qərbdə yaranan İslam və müsəlman əleyhdarlığını bir kateqoriyada vurğulamaq doğru olmaz. Müsəlmanların qərb cəmiyyətində iş və qida imkanlarını azaltdığını düşünənlər, xalqın bu qorxusundan istifadə edib qəsdən İslam düşmənliyi yaradanlar, müsəlmanların sayının artıb xristianlığı ortadan



İslam dini özündən olmayanlara qarşı da sevgi və hörmət bəsləyir, birgə yaşama mədəniyyətini inkişaf etdirməyi əsas götürür.

qaldıracağını zənn edənlər və ya İslamı tanımadıqları üçün onu terrorla bir tutub qorxuya düşənlər yanlış edirlər. Bütün bu problemlərin həlli üçün yeganə yol var: gerçək müsəlmanların dini səbir və təvazökarlıqla anlatması, İslamın xurafatlardan uzaq, modern, elm və vicdana uyğun din olmasını insanlara çatdırması. Müsəlmanlar terroru qadağan edib sülh və sevgini təşviq etdiyini həm sözlərində, həm də hərəkətlərində göstərməlidirlər. Digər yandan, müsəlmanlar məqsədlərinin xristianlığı ortadan qaldırmaq olmadığını, çünki İslamın qaynağı – Quranın xristianları təsdiqləyib təriflədiyini dilə gətirməlidirlər. Bunlarla yanaşı, terror, intihar hücumu, qətliam kimi terminlərlə anılan, həmçinin elmə, sənətə və gözəl olan hər şeyə qarşı çıxan və digər dinlərə düşmənlik edən zehniyyətin İslamdan deyil, xurafatdan



qaynaqlandığını anlatmalıdırlar. Unutmayaq ki, qərblilər radikal xurafatçıların təsiri ilə İslamın ağılsız, mərhəmətsiz və geridə qalmış din olduğunu, terroru, radikalizmi müdafiə etdiyini, həmçinin islami dəyərlərin demokratiya və insan haqları ilə uyğunluq təşkil etmədiyini zənn edirlər. Bir çoxları İslamı elm və mədəniyyət kimi arqumentlərlə deyil, terror, şiddət və xurafatla bir tutur. Buna görə də müsəlmanlar islamofobiyanı gücləndirən səbəblər arasında bu yanlış bilgilərin mühüm yeri olduğunu, dinimizdən qorxan bir çox insanın İslam haqqında çox az şey bildiyini və bildiklərinin çoxunun da doğru olmadığını nəzərə alaraq təbliğat aparmalıdırlar.

Təbii ki, bu yerdə demokratiya və insan haqlarına dəyər verməklə, eləcə də bütün inanclara tolerant yanaşmaqla öyünən Qərbin üzərinə böyük məsuliyyət düşür. Öncəliklə, islamofobik və irqçi hərəkatlara qarşı qanunlar çıxarılmalıdır. Musəvi düşmənliyi kimi, islamofobiya da tezliklə cinayət kimi qəbul edilməlidir. Özlərindən olmayanları alçaltmadan sevgi və dostluq mühitində mədəni həyat yaşamaq Qərbin birinci vəzifəsi olmalıdır. Qərb ölkələri, beynəlxalq və qeyri-hökumət təşkilatları bu mövzuda lazımi diqqəti göstərməlidir. Gələcək nəsillərin bu ön mühakimədən uzaq yetişməsi üçün tez zamanda yeni qanunların çıxarılması və ictimaiyyətə təlim verilməsi dünyada sülhün təmin edilməsi baxımından çox zəruridir.

## Radikalizmin qarşısını yeni qanunlar deyil, maarifləndirmə ala bilər

"Çarli Hebdo" hücumunun ardınca Avropa dövlətlərinin parlamentləri yeni fəaliyyətlərə başladılar. Terrorla mübarizə aparmaq üçün yeni qanunlar qəbul edən və qeyri-hökumət təşkilatlarından yardım almaq məqsədilə hərəkətə keçən Avropa ölkələri diqqət etməlidirlər ki, bu fəaliyyətləri ilə radikalların ideologiyası daha da güclənməsin. Terrorizm dünyanın demoqrafiyasını dəyişdirəcək təhlükə səviyyəsinə çoxdan çatmışdır. Həmin hücumun ardından Avropa Birliyinin quruluşunu, bəlkə də, tamamilə dəyişdirə bilən təkliflər ortaya atıldı. Turizm, ticarət və diplomatiya sahələrində avropalıların həyat standartlarını aşağı salacaq təklif – "Şengen viza sistemi"ni ortadan qaldırmaq və sərhəd nəzarət məntəqələrində ciddi yoxlamalar aparmaq müzakirə olundu. Sərhəd yoxlamalarının yenidən başlanmasını istəyən İngiltərə, Belçika, Danimarka, Fransa, Almaniya, Polşa, İspaniya və Hollandiya terror təhlükəsindən öz payını almış ölkələrdir. Bəs bu ölkələr xalqı narahat edən və cəmiyyətdə qütbləşmə meydana gətirən həmin qanunlarla hansı nəticəni ala bilərlər? Bunu hər kəs bilməlidir ki, müsəlmanların həyatını daha da çətinləşdirməyə yönələn hər addım radikalları daha da aktivləşdirəcək. Çünki qəzəb və nifrət bu qrupları daha da gücləndirir.

Çox ciddi təhlükəsizlik tədbirləri alıb şəhərdə həyatı

çətinləşdirməklə terrorçunun ticarət mərkəzinə bomba qoymağını bir neçə dəfə əngəlləmək olar. Lakin o ticarət mərkəzində dekolte geyinən xanımlara nifrət edən xurafatçının fikrini dəyişdirmək qeyri-mümkündür. Qərb cəmiyyəti o ticarət mərkəzindəki hər kəsin həyatını dəyərli görən və mədəniyyətə hörmət edən nəsillər yetişdirməyi qarşısına məqsəd qoymalıdır. Əks təqdirdə, terrorla mübarizə həm maddi, həm də zaman baxımından girdaba dönər ki, bu da terrorçuların qələbəsi deməkdir.

Fransa daxili işlər naziri B.Kaznevin (Bernard Cazeneuve) sərhəd nəzarəti təklifi Avropa dövlətlərinin radikalizm mövzusunu qavramadığını açıq şəkildə göstərir. Kaznev Avropa Birliyindəki sərhədlərə nəzarət məntəqəsinin yerləşdirilməsi əvəzinə, həmin ölkələrə girişi çətinləşdirən qanun layihəsi təklif etdi. Fransız nazirin radikal təhlükənin sərhəd tanımadığının, Avropanı nə qədər təhdid etdiyinin və genetik mənada avropalı ailələrdə doğulan gənclərin radikallaşma ehtimalının hələ fərqində olmadığı görünür. Halbuki dövrümüzdə informasiya vasitələri radikal terror qruplarının internet üzərindən təbliğatına və hər an dünyanın hər yerinə fikirlərini çatdırmağa imkan yaradır.

1950-ci illərdə Kubada ortaya çıxan kommunist partizan hərəkatı tərəfdar toplamaq üçün Syerra-Maestrada yerləşən dağlıq kəndlərini tək-tək ziyarət edirdi, kəndləri hərbi blokadaya almaq bu hərəkatın qarşısını ala bilərdi. Yaxud Sun Dzının kitabının əldən-

ələ keçməsinin qarşısını almaq Uzaq Şərq ölkələrindəki partizan döyüşçülərinin təliminə təsir göstərə bilərdi. Keçmişdə belə idi, halbuki indi internetlə dünyanın ən yüksək yerindəki kənd də, ən uzaq ada dövləti də bir klaviatura düyməsi qədər yaxındır. İnterneti dayandırmaq da məlumat əldə etməyin qarşısını almadığını göstərdi. Bir sayt bağlandıqda bir başqası həmin an digər ünvanda açılır. Artıq terror olaylarını hücrələrdə fəaliyyət göstərən və "yalnız qurd" adı verilən şəxslər yönləndirirlər.

Bu təhlükənin qarşısında tətbiq ediləcək bir metod qalır: ideoloji təlim üçün internet, televiziya və radiolardan istifadə etmək.

**Radikalizmlə mübarizədə internet, televiziya və radiolardan lazımi şəkildə istifadə etmək tələb olunur. Əgər radikalların ideoloji təbliğat saytlarının sayı 1000 isə, bizim sevgi, qardaşlıq və birlik təbliğatları aparan saytlarımızın sayı on minlərlə olmalıdır.**



Radikalların təbliğat saytlarının sayı mindirsə, bizim sevgi və qardaşlığı təbliğ edən saytlarımızın sayı on minlərlə olmalıdır. Avropa müsəlman cəmiyyətlərdə yalnız Qurana əsaslanan inancın formalaşmasına çalışmalıdır. Dünyada müsəlmanların ən çox yaşadığı ölkələrdən biri olmasına baxmayaraq, demokratik və dünyəvi qanunlara malik olan Türkiyə bu işdə Qərbə yardımçı ola bilər. Avropa ölkələrində müsəlmanların sayı çox az olsa da, qərbdə terror təşkilatlarına qoşulanların 99 faizi müsəlman olan Türkiyə ilə müqayisədə daha çoxdur. Bu prizmadan baxdıqda ölkəmiz terrora qarşı Avropanın müttəfiqi olmağa uyğundur. Türkiyə keçmişindən gətirdiyi gözəl əxlaq xüsusiyyətlərini gələcəyə də daşıya bilən ölkədir.

## Hərbi əməliyyatlar terrora çarə deyil

Amerika filmlərində həmişə Amerika əsgərləri qazanır. Bu filmlərdə ən çətin əməliyyatlar həyata keçirilir, müvəffəqiyyət qazanılır, əsirlər xilas edilir və daim Amerikanın üstünlüyü vurğulanır. Bəs gerçək dünyada da belədirmi?

Tarixi araşdırsaq, həqiqətlərin filmlərdə göstərilənlərdən fərqli olduğunu görürük. Məsələn, "Qartal caynağı" adlı əməliyyat bunlardan biridir. 1980-ci ilin aprel ayında ABŞ ordusunun İran səfirliyində əsir tutulan 52 vətəndaşını qurtarmaq üçün keçirdiyi əməliyyat anidən çıxan qum fırtınası ucbatından pozulmuşdur. Əməliyyat aparılan təyyarə gəmisi "USS Nimitz"ə

geri dönməyə hazırlaşarkən yanacaq doldurma əsnasında baş verən qəzada bir C-130 Hercules təyyarəsi və Amerika vertolyotu partlamışdır. Nəticədə, Amerika ordusu 2 hərbi və 1 nəqliyyat təyyarəsini, 8 əsgərini itirmişdir. Bununla da əməliyyatı başa çatdırmadan ABŞ əsgərləri geri çəkilməyə məcbur olmuşdular. Başqa bir nümunə isə Somalidə yaşanmışdır. 1994-cü ildə ABŞ əsgərlərinin general Uilyam Qarrisonun komandanlığında keçirdiyi əməliyyat tam uğursuzluğa uğramış və Moqadişoda baş verən toqquşmada 24 Pakistan və 19 ABŞ əsgəri ölmüşdür. Amerikanın hərbi tarixi bu ikisi qədər məşhur olmasa da, bir çox müvəffəqiyyətsiz əməliyyatlarla doludur. Bunlardan biri də dekabr ayında Yəməndə Abva bölgəsində yaşandı. Amerikalı dəstənin Yəməndə apardığı xilasetmə əməliyyatında 2 əsir, 33 yaşlı fotomüxbir L.Somers (Luke Somers) və cənubi afrikalı müəllim P.Korki (Pierre Korkie) militanlar tərəfindən vurularaq öldürüldü. Bununla yanaşı, əməliyyatda bir Əl-Qaidə lideri, bir qadın və uşaq, həmçinin bir neçə militan həyatını itirdi. Əməliyyatla bağlı açıqlamada ABŞ müdafiə naziri Çak Hegel hadisənin xilasetmə əməliyyatı zamanı baş verdiyini təsdiqlədi. Somers və Korki bir ildən çox idi ki, Yəməndə əsir saxlanılırdı.

ABŞ Yəməndə 2002-ci ildən bəri pilotsuz hava hücumları həyata keçirirdi. Həmin bu əməliyyatlarda bir çox mülki şəxslərin ölümü ilə nəticələnən müvəffəqiyyətsizlik yaşanmışdı. Son olaraq Yəmənin Rada şəhərində Əl-Qaidəyə məxsus hədəflərə qarşı aparılan




hava hücumlarında 13 mülki şəxs həyatını itirmiş, 20 nəfər isə yaralanmışdı. Həmin ölkələrin terrorla mübarizədə apardığı əməliyyatlar günahsız insanların ölümü ilə nəticələnir. Belə vəziyyətdə nə edilməlidir?

Təkrar qeyd etmək lazımdır ki, öncəliklə, İslam adından istifadə edib şiddət tətbiq edən terror təşkilatlarına qarşı fikri mübarizə aparılmalı və təşkilat mənsublarının yanlış düşüncələri açığa çıxarılmalıdır. Bütün fikir öndərləri və siyasətçilər Qurana görə insanların İslam əxlaqına təzyiq və şiddətlə deyil, yalnız gözəl sözlə dəvət edilməsinin fərz olduğunu tez-tez dilə gətirməlidirlər. Bu şəxslərə İslam əxlaqında vicdan azadlığının



olduğu anladılmalıdır. İstər şiə, istərsə də sünni olsun, bütün müsəlmanlara çatdırılmalıdır ki, şiddət haqqa dəvət etmək üsulu deyil və bu, İslama tamamilə ziddir. Müsəlmanların terror vasitəsilə özlərini müdafiə etmələri tamamilə yanlışdır, əksinə, bu, İslam düşmənlərinin sayını artırır və müsəlmanlara daha çox zərər verir. Bununla yanaşı, məktəblərdə terror təşkilatlarının ideologiyasının səhv cəhətlərini izah edən dərslər keçirilməli, kitab və məqalələr oxudulmalı, konfrans və toplantılar təşkil olunmalıdır. Terrorizm ancaq belə yer üzündən yox edilə və terror bataqlığı qurudula bilər.

Bu gün Orta Asiyadan Qafqaza, Afrikadan Balkan yarımadasına və Avropadan ABŞ-a qədər geniş coğrafiyada radikal təşkilatlara rast gəlmək mümkündür. Radikalizmin bu qədər fərqli mədəniyyət və coğrafiyada tərəfdar toplamasının tək səbəbi isə din mövzusunda məlumatı olmayan və hadisələrə ağılla deyil, emosional yanaşan insanlara verilən təlim və təlqin metodlarıdır. İnternet və sosial media kimi kütləvi informasiya vasitələri radikal təşkilatların ən çox istifadə etdiyi təbliğat yollarıdır. Beləliklə, radikalizmlə mübarizə üçün hərbi müdaxilələrdən fərqli üsul düşünmək lazımdır. Qərbin ən populyar siyasi müşavirləri fərqli hərbi strategiyalardan başqa vasitəyə əl atmır, yeni hərbi əməliyyatlar təklif edirlər. Kütləvi qətliamlardan başqa, hər hansı həll yolu ağıllarına belə gəlmir, radikalizm əsasında duran inanc və ideologiya faktorunu görməzlikdən gəlirlər.



Qurana tamamilə zidd olan ənənəvi qaynaqlardakı saxta hədis və hökmlərə, şərh və ictihadlara, həmçinin xurafatlara əsaslanan yanlış İslam anlayışından törəyən terror, şiddət və cinayətlərin sona çatdırılmasının tək yolu Qurana əsaslanan gerçək İslamın bütün İslam aləminə ən gözəl üslubda anladılması, yanlış inancların Quran işığında düzəldilməsidir. Bütün müsəlmanlar Qurana uyğun olmayan sərt və mübahisəçi üslubdan tamamilə uzaq durmalı, bunun əvəzinə, Allahın Quranda təsvir etdiyi yumşaq və sakit üslubu mənimsəməlidirlər. Müsəlmanlar təvazökarlığı ilə bütün dünyaya örnək olmalı, insanları özlərinə, beləliklə, İslam əxlaqına heyran etməlidirlər. Yalnızca bunda deyil, elm, mədəniyyət, sənət, estetika kimi sahələrdə də İslamı həm ən gözəl tərzdə yaşamalı, həm də dünyaya İslam əxlaqını tanıtmalıdırlar.

## İslam tarixində mərhəmət, sevgi və insanlıq nümunələri

Bura kimi anlatdığımız həqiqətləri yekunlaşdırsaq, xüsusilə onu qeyd etməliyik ki, Quranda təsvir edilən İslam sülh, sevgi və mərhəmət dinidir. Bu həqiqət müsəlman olmayan bir çox tarixçi və teoloq tərəfindən də qəbul edilir. Bunlardan biri keçmiş rahibə və Yaxın Şərq tarixi mövzusunda məşhur tədqiqatçı olan ingilis tarixçisi Karen Armstronqdur. Armstronq üç böyük ilahi dinin tarixini araşdırdığı "Müqəddəs müharibə" (Holy war) əsərində bu mövzuda aşağıdakıları açıqlayır:

*"İslam" kəlməsi ərəbcə sülh sözü ilə eyni kökdən gəlir və Quran savaşı Tanrının rizasına zidd olan anormal vəziyyət kimi lənətləyir... İslam qarşı tərəfi yox etməyə yönəlmiş təcavüzkar savaşı dəstəkləmir... İslam savaşın qaçılmaz olduğunu qəbul edir və zülmü durdurmağı lazımi vəzifə kimi görür. Lakin Quran savaşın müəyyən sərhəd daxilində olmasını və mümkün qədər insani şəkildə yürüdülməsini*



*öyrədir. Hz. Muhəmməd tək məkkəlilərlə deyil, eyni zamanda, bölgədəki musəvilərlə də müttəfiq olub hücuma keçən suriyalı xristian qəbilələri ilə mübarizə aparmağa məcbur olmuşdur. Amma bu, yenə də onun kitab əhlini lənətlədiyi mənasına gəlmir. O, müsəlmanları müdafiə etməyə məcbur olmuş, lakin düşmənlərin dininə qarşı savaşmamışdır. Hz. Muhəmməd azad etdiyi köləsi Zeydi müsəlman ordusunun komandiri kimi xristianlara qarşı savaşa göndərdikdə onlara Tanrı yolunda cəsur, lakin insancasına savaşmağı əmr etmişdir. Rahib, rahibə və keşişlərə qarşı təcavüzkar davranmamalı və savaşa qatılmayan gücsüz insanlara rəhm edilməli idi. Mülki şəxslərə qarşı heç bir zorakılıq edilməməli, tək bir ağac belə kəsilməməli, heç bir şey dağıdılmamalı idi..."*[4]

Peyğəmbərimizdən sonra gələn xəlifələr də fəth edilən ölkələrdə həm yerli xalqın, həm də yeni gələnlərin sülh və təhlükəsizlik içində yaşamağını təmin ediblər. İlk xəlifə hz. Əbubəkrin Suriya səfəri zamanı ələ keçirilən yerlərdə mərhəmətli və tolerant davranmaq haqqında təlimat verməsi Quran əxlaqının gözəl nümunələrindəndir. Hz. Əbubəkrin ilk Suriya səfəri öncəsində ordusuna verdiyi təlimat belədir:

*"Ey insanlar, ürəkdən tabe olacağınız on şey deyirəm: xəyanət etməyin və haqq yoldan ayrılmayın. Uşaq, qadın və yaşlı insanları öldürməyin. Xurma ağaclarını və heç bir meyvə ağacını kəsməyin. Dəvələrdən və ya sürülərdən heç birini öldürməyin... Həyatını axirətə həsr edən insanlarla qarşılaşacaqsınız. Yeyin-için, lakin Allahı anmağı unutmayın".*[5]

Hz. Əbubəkrdən sonra xilafətə gələn, tolerantlığı və ədaləti ilə məşhur olan hz. Ömər isə ələ keçirilən ölkələrin yerli xalqları ilə ədalət əsasında müxtəlif



**Müsəlman, yəhudi və xristianlar üçün müqəddəs diyar olan Qüds hüzur və təhlükəsizlik məkanı olmalıdır.**

müqavilələr bağladı. Məsələn, hz. Ömər Qüds və Lüd xristianlarına verdiyi amannamədə (təhlükəsizlik sənədində) kilsələrin uçurulmayacağı və oralarda müsəlmanların toplu ibadət etməyəcəyi xüsusunda zəmanət təklif etdi. Ləhm xristianlarına təklif edilən şərtlər də eyni idi.

Sasanilərin paytaxtı Mədainin fəthi ilə Nəsturi patriarxı II İşuayhebə (650-660) verilən amannamə də kilsələrin dağıdılmayacağına, heç bir tikilinin məscid və ya evə çevrilməyəcəyinə dair zəmanətlər ehtiva edirdi.[6] Hz. Ömər bu müqavilələrin hamısına sadiq qaldı. III Nəsturi patriarxının fəthlərinin ardından dostuna yazdığı bir məktub müsəlman idarəçilərinin kitab əhlinə qarşı mərhəmətini bir xristianın ağzından anlatması baxımından gözəl nümunədir:

*“Allahın iradə verdiyi bu ərəblər... Bizə heç zülm etmədilər. Onlar, həqiqətən, dinimizə, din xadimlərimizə, kilsə və monastırlarımıza hörmət göstərdilər...”*[7]

Hz. Ömərin verdiyi bu himayə müqaviləsi bizə mömininin Quranda təsvir edilən əxlaqı göstərdiyi təqdirdə, hansı mərhəmətə sahib olacağını göstərir:

*“Verilən bu amannamə xalqın sağlam-xəstə, yaxşı-pis, bir sözlə, bütün fərdlərin din, can və mallarının, kilsə və sinaqoqlarının himayəsini təmin edir. Kilsələr dağıdılmayacağı kimi, məskən də edilməyəcək və onlardan heç nə əskilməyəcək. Xalqdan heç kim zərrə qədər də ziyan görməyəcək. Bu kitabda yazılan xüsuslar Allah və Rəsulunun əhdi, xəlifələrin və möminlərin borcudur”.*[8]

Bütün bunlar Allahın Quranda möminlərə əmr etdiyi ədalət və mərhəmətin təzahürüdür. Bir ayədə Allah belə buyurur:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir. (Nisa surəsi, 58)**

Anqlikan kilsəsinin missioner liderlərindən olan Kanon Taylor İslam əxlaqının gözəlliklərini çıxışında belə ifadə edir:

*“...Adil və Rəhim olan Cənabi-Haqqın iradəsinə təslim olmaq, nəfsin məsuliyyətləri, həmçinin Qiyamət və hesab günündə dəlalətdə qalmağa görə şiddətli cəza veriləcəyi bildirildi. Namaz qılıb oruc tutmaq və xeyirli işlər görmək kimi vəzifələri təyin etdi. Süni fəzilətləri, din adından edilən hiylə və yüngüllüyü, əqaid mövzusunda mübahisə edənlərin bir-birinə*



**Müsəlmanların hakimiyyəti altında olduğu dövrlərdə Qüdsdə müsəlman, xristian və yəhudilər rahatlıq və sülh içində yaşayırdılar.**

*uyğun olmayan sözlərini bir tərəfə atdı. Əsirlərə hürriyyət ümidi, insanlığa qardaşlıq duyğuları aşıladı və insan təbiətinin əsas həqiqətlərini təsdiq etdi".*[9]

Müsəlmanların fəth etdiyi ölkələrdə guya İslamın zorla qəbul etdirilməsi inancı qərbli tədqiqatçılar tərəfindən də qəbul edilməmiş, müsəlmanların adil və şəfqətli münasibəti hər kəs tərəfindən təsdiq edilmişdir. Qərbli tədqiqatçı



**Osmanlı İmperiyası İslamın ədalət və şəfqət anlayışına bağlı qalaraq təbəəsi altında olanlara din və inanc azadlığı vermiş, hüzurlu bir multikultural müxtəliflik təmin etmişdir.**

L.Broun (L.Browne) bu vəziyyəti belə ifadə edir:

*"...Doğru olduğuna şübhə edilməyən gerçəklər xristian qaynaqlarının müsəlmanların getdikləri yerdə xalqa İslamı guya qılınc gücü ilə qəbul etdirməsi iddialarının tamamilə əsassız olduğunu göstərir... Fəthlərin arxasındakı əsas amil onların xalqları İslam qardaşlığına çağırması idi... Odur ki, bu qardaşlığın miqyası İslamı qəbul edənlərlə sürətlə artırdı".*[10]

Broun "İslam perspektivləri" (The prospects of İslam) adlı kitabında müsəlmanların fəthlərinin əsil məqsədinin İslam qardaşlığı olduğunu

göstərmişdir. Tarix boyu geniş ərazilərdə hökm edən bütün müsəlman liderlər digər dinlərin mənsublarına çox mərhəmətli və hörmətcil davranmışdır. İslam dövlətlərində həm musəvilər, həm də xristianlar güvənli və azad həyat yaşamışlar.

Səlcuqlar dövləti və Osmanlı imperiyaları dövründə İslamın ədalət və şəfqəti davam etmişdir. İngilis tədqiqatçısı Tomas Arnold "İslamın təbliği" (The Preaching of İslam) adlı kitabında xristianların Səlcuqların bu münasibətinə görə onların idarəsi altına girmək istədiklərini belə yazır:

*"İslam idarəsi altında dini həyatın əmniyyətdə olduğu haqqındakı bu hisslər yenə o dövrlərdə Anadolu (Kiçik Asiya) xristianlarının Səlcuq türklərini xilaskar kimi qarşılamasına vəsilə olmuşdu... Hətta VIII Mixail (1261-1282) dövründə Anadoludakı kiçik qəsəbə sakinləri Bizans İmperiyasının zülmündən qurtulmaq ümidi ilə türkləri qəsəbənin işğalına çağırmışdılar. Bununla yanaşı, həmin sakinlərdən varlı-kasıb bir çox adam o dövrdəki türk sərhədləri daxilində köç etməyi belə gözə almışdılar".*[11]

Səlcuqların ən parlaq dövründə Məlikşah ələ keçirdiyi torpaqlarda xalqa qarşı ədalət və mərhəmətlə davranmış, bu səbəbdən fəth etdiyi ölkələrin xalqları tərəfindən sevgi və hörmətlə anılmışdır. Bütün bitərəf tarixçilər Məlikşahın bu davranışını səmimi şəkildə dilə gətirirlər. Tarixdə nadir görünən hallardan biridir ki, bir çox şəhər öz istəyi ilə Məlikşahın idarəçiliyi altına keçməyi qəbul etmişdi. II Səlib yürüşünə VII Lüdoviqin şəxsi katibi kimi qatılmış Müqəddəs Denis monastırının nümayəndəsi Odo de Dioqilo adlı rahibin müsəlmanların hansı dinə mənsub olmasından asılı olmayaraq, hər kəsə qarşı ədalətlə davranmasını

söyləməsi Tomas Arnoldun həmin kitabında belə bildirilir:

*"Əgər müsəlman türklərin qəlbinə o səfalət və fəlakəti görməklə mərhəmət hissi gəlməsəydi, arxada qalan xaçpərəst dəstələrin vəziyyəti çox ağır olardı. Türklər bu biçarələrin yaralılarına qulluq etdilər, kasıblarını alicənablıqla yedizdirdilər və onları ehtiyacdan xilas etdilər. Hətta bəzi müsəlmanlar rumluların qorxu və hiylə ilə hacılardan qopardığı fransız pullarını satın alaraq ehtiyacı olan hacılara verdilər. Eyni dindən olmayanların bu himayədarlığı ilə öz dindaşları olan, onlardan ağır işlərdə istifadə edən və onları döyən rumluların hərəkətləri xaçlı hacılar arasında elə bir müqayisəyə səbəb oldu ki, bunlardan bir çoxu onları xilas edən müsəlmanların dinini öz istəkləri ilə qəbul etdilər".*[12]

Tarixçilər tərəfindən yazılan bu sətirlər İslam əxlaqına sahib olan müsəlman rəhbərlərin hər zaman sülh, mərhəmət və ədalətlə hökm etdiyini təsdiqləyir. Əsrlər boyu 3 qitəyə hökm edən Osmanlı İmperiyasının tarixi də mehribanlıq və xeyirxahlıq nümunələri ilə doludur.

İspaniya və Portuqaliyadakı katolik dövlətlər tərəfindən soyqırımına və sürgünlərə məruz qalan yəhudilərin II Sultan Bəyazid dövründə Osmanlı torpaqlarına yerləşməsi İslam əxlaqının gətirdiyi mehribanlığın gözəl nümunəsidir. O dövrdə İspaniya torpaqlarının böyük hissəsinə hakim olan katolik krallar hələ xeyli əvvəldən müsəlman Əndəlus idarəçiliyi altında rahatlıq içində yaşayan yəhudilərə təzyiq göstərmişdilər. Müsəlman, xristian və yəhudilər Əndəlusda sülh şəraitində yaşayarkən katolik krallar bütün ölkəni zorla xristianlaşdırmağa cəhd etmiş, bu məqsədlə yəhudilərə təzyiq göstərərkən müsəlmanlara qarşı da savaşa

girmişdilər. Nəticədə, 1492-ci ildə həm İspaniyanın cənubundakı Qranada bölgəsinə sığınan son müsəlman idarəçiliyinə son qoyulmuş və müsəlmanlara qarşı qorxunc qətliam həyata keçirilmiş, həm də dinini dəyişdirməyi qəbul etməyən yəhudilər ölkədən sürgün edilmişdilər. Yurdsuz qalan yəhudilərin bir qismi Osmanlı İmperiyasına sığınmış və Dövləti-Ali (ali dövlət) bu tələbi qəbul etmişdi. Kamal Rəisin komandanlığı altında olan Osmanlı donanması ölkədən çıxarılan yəhudiləri və soyqırımından qurtula bilən müsəlmanları gəmilərlə daşıyaraq Osmanlı ölkəsinə gətirmişdi. Tarixə son dərəcə dindar mömin kimi düşən II Sultan Bəyazid 1492-ci ilin yazında İspaniyadan çıxarılan bu məzlum yəhudiləri Osmanlı ölkəsinin müəyyən yerlərinə, xüsusilə də hal-hazırda Yunanıstanda olan Selanik (Saloniki), Ədirnə, Əyriboza bağlı Livadiya və Tırhala dairəsinə yerləşdirmişdi. Türkiyədə yaşayan 25 min nəfərə qədər Türkiyə yəhudilərinin böyük əksəriyyəti bəhs olunan İspaniya yəhudilərinin törəmələridir.

Musəvilər 500 il əvvəl özləri ilə gətirdikləri din və ənənələrini Türkiyədə davam etdirdilər: məktəbləri, xəstəxanaları, istirahət yerləri, mədəniyyət və qəzetləri ilə rahat həyat sürdülər. Aralarında tacirlər və iş adamları olduğu kimi, mühəndis, memar, sənətkar, alimlər də mövcud idi. Avropanın bir çox ölkəsindəki yəhudi icmaları əsrlərdir ki, irqçi antisemit hücumların qorxusu ilə yaşadığı halda, Türkiyədəki yəhudi icması rahatlıq içində yaşayırdı. Yalnız bu nümunə İslamın mehribanlıq və ədalət anlayışını göstərməsi baxımından kifayətdir.

II Sultan Bəyaziddə gördüyümüz şəfqət və mehribanlıq bütün Osmanlı padşahlarına xas idi. Fateh Sultan Mehmet İstanbulu fəth etdiyi zaman bu şəhərdə həm xristianlara, həm də yəhudilərə müstəqil yaşamaq hüququ vermişdi.





**Dindar bir insan olan Sultan II Bəyazid gəmilərlə Osmanlı torpaqlarına gələn yəhudiləri ölkənin müxtəlif yerlərinə yerləşdirdi və dinlərini azad yaşaya bilmələri üçün onları hər cür imkanla təmin etdi..**

Müsəlmanların mehriban və ədalətli davranışı mövzusunda İslam dünyasından bəhs edən qiymətli əsərləri ilə tanınan Andre Miquel bir əsərində belə yazır:

*"Xristian xalqlar (Osmanlı zamanı) Bizans və Latın dövlətlərinin tabeliyində olarkən görmədikləri çox yaxşı idarəçilik altında idilər. Əsla zülm görmədilər, tam əksinə, Osmanlı İmperiyası İstanbul başda olmaqla, işgəncə görən İspaniya yəhudilərinə sığınacaq olmuşdu. Heç yerdə zorla islamlaşdırma olmamışdır".*[13]

Osmanlıdan əvvəl İslam dövlətlərində də qeyri-müsəlmanlara böyük hüquqlar verilmişdi. Corctaun Universitetində (ABŞ) din və beynəlxalq əlaqələr



**Fateh Sultan Mehmetin İstanbulu fəth etməsi uzun illər boyu Bizans və latın dövlətlərinin zülmünə məruz qalmış qeyri-müsəlman xalq üçün azad həyat mənasını verirdi.**

üzrə professor Con Esposito tarixdə müsəlman dövlətlərin idarəçiliyinə keçən yəhudi və xristianların burada böyük şəfqətlə qarşılaşdığını belə ifadə edir:

> *"İslam idarəçiliyi Bizans və fars torpaqlarında yaşayan və onsuz da xarici hökmdarlar tərəfindən idarə olunan bir çox qeyri-müsəlman cəmiyyətlər üçün hakimiyyət dəyişikliyi demək deyildi, amma bu yeni rəhbərlər daha mülayim və tolerant idi. Bu icmaların əksəriyyəti daha çox muxtariyyətə sahib idi və əsasən daha az vergi ödəyirdilər... İslam yəhudilər və yerli xristianlara daha çox vicdan azadlığı verməklə daha demokratik din olduğunu göstərdi".*[14]

*İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır.*

*(Ənam surəsi, 82)*



# DİN ADINDAN TERROR TÖRƏDƏNLƏRİN İÇ ÜZÜ

Bura qədər araşdırdığımız həqiqətlər göstərir ki, günahsız insanlara qarşı terror törətmək din əxlaqına tamamilə ziddir. Heç bir müsəlman belə günah işi görməz. Əksinə, müsəlman bu günah işi görən insanları durdurmaqla yer üzündəki fitnə-fəsadı aradan qaldırmağa və bütün insanlara təhlükəsizlik və dinclik gətirməyə borcludur. Buna görə müsəlman məsuliyyət daşıyır. Müsəlmanlıq terrorla bir yerdə təsəvvür oluna bilməz, əksinə, İslam terror qarşısındakı ən böyük maneə və onun çarəsidir.

Xristian, yəhudi və ya İslam terroru yoxdur. Terroru həyata keçirən insanların həyatına baxarkən bunun dini deyil, sosial məsələ olduğunu görürük.

## Səlibçilər – öz dinlərini ayaqlayan barbarlar

Dinin və ya başqa fikir cərəyanının həqiqi mesajı bəzən onun “tərəfdar”ları tərəfindən tamamilə təhrif edilə bilər. Xristian tarixinin qaranlıq dövrünü təşkil edən səlibçilər bunun bariz nümunəsidir.

Səlibçilər XI əsrin sonunda müqəddəs torpaqları (Fələstin ətrafını) fəth etmək məqsədi ilə Avropadan yola düşən avropalı xristianlar idi. Guya dini məqsədlə yola çıxmışdılar, amma getdikləri hər yerə vəhşilik və qorxu saçmışdılar. Kitabın irəlidəki hissələrində ətraflı şəkildə görəcəyimiz kimi, mülki əhalini kütləvi şəkildə qətl etdilər, həddindən artıq kənd və şəhəri talan etdilər. Səlibçilər müsəlman, yəhudi və pravoslav xristianların İslam idarəçiliyi altında rahatlıq və əmin-amanlıq içində yaşadığı Qüdsü fəth etdikləri zaman isə böyük



**Səlibçi orduları getdiyi hər yerdə böyük qətliamlar törətdilər. Dinc əhalini qətl edib bir çox şəhəri qarət etdilər.**

qətliam həyata keçirdilər. Bütün müsəlman və yəhudiləri vəhşicəsinə öldürdülər. Bir tarixçinin ifadəsi ilə desək, qarşılaşdıqları bütün ərəb və türkləri öldürdülər... Kişi və ya qadın bilmədən hamısını qətlə yetirdilər.[15] Səlib yürüşlərinin iştirakçılarından biri olan Raymund of Aquiles bu vəhşiliyi "fəxrlə" belə qeyd edirdi:

*"Görülməli maraqlı səhnələr baş verdi. Adamlarımızın bəziləri –hələ bunlar ən mərhəmətliləri idi– düşmənlərinin başlarını kəsirdilər. Digərləri onları oxla vurub yerə sərirdilər. Bəziləri isə onları diri-diri odun içinə ataraq daha uzun müddətli işgəncələrə məruz qoyurdular. Şəhərin küçələri kəsilmiş başlarla, əl və ayaqlarla dolu idi. Elə vəziyyət yaranmışdı ki, küçədə bunlara dəymədən yerimək çox çətin idi. Ancaq bütün bunlar Süleyman məbədindəkilərin yanında heç nə sayılırdı. Orada nə olduğu ilə maraqlanırsınız? Əgər sizə həqiqəti desəm, inanmağa çətinlik çəkərsiniz. Heç olmasa, bunu deyim ki, Süleyman məbədində axan qanın səviyyəsi adamlarımızın dizindən yuxarı idi".*[16]

Səlibçilərin ordusu Qüdsdə iki gün içində təxminən 40 min müsəlmanı yuxarıda bildirilən üsullarla vəhşicəsinə öldürdü.[17]

Xaçlılar o qədər barbar idi ki, IV səlib yürüşü zamanı onlar öz dindaşlarının şəhəri olan İstanbulu talan etdilər, kilsələrdəki qızılları söküb yağmalamaqdan belə çəkinmədilər. Əlbəttə ki, barbarlıq xristianlığın siyasi doktrinasına zidd idi. Çünki xristianlıq İncildə bildirilən ifadə ilə desək, əslində, sevgi mesajıdır. Matta İncilində hz. İsanın öz tələbələrinə: "Düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin", - dediyi yazılmışdır ("Matta", 5/44). Luka İncilində isə hz.

İsanın: “Bir üzünə şillə vurana digər üzünü çevir”, - dediyi bildirilir (“Luka”, 6/29). Əhdi-cədidin heç bir yerində qarşıdurmanı təşviq edən hökm yoxdur, günahsız insanların qətlə yetirilməsi isə çox böyük günahdır. “Məsumların qətliamı” anlayışı İncildə zalım yəhudi şahı Herodun körpə yaşdakı hz. İsanı məhv etmək cəhdi kimi təqdim edilir.

Bəs xristianlıq qarşıdurmaya və gərginliyə əsla yer verməyən sevgi dini ikən xristian xaçlılar necə olub ki, tarixin ən böyük vəhşiliklərini törətmişdir? Bunun ən böyük səbəbi xaçlıların cahil insanlardan təşkil olunmasıdır. Öz dinləri haqqında heç bir şey bilməyən, İncili heç oxumayan, hətta görməyən, xristianlığın əxlaqi normalarından xəbərsiz olan kütlələr səhv yola düşmüşdülər. Din adı ilə ortaya çıxan bir qrup “Allah bunu istəyir” şüarı ilə Allah adına yalan



söyləyib cahil kütlələri barbarlığa sürükləmişdi. Onlar dinin qəti qadağan etdiyi əməlləri bu cür saxtakar üsulla geniş xalq kütlələrinə tətbiq etmişdilər.

O dövrdə mədəni cəhətdən daha irəlidə və yüksək səviyyədə olan şərq xristianlarının, məsələn, bizanslıların səlibçilərdən daha çox insanpərvər olduğuna diqqət etməliyik. Səlibçilər gəlməmişdən əvvəl də, onlar getdikdən sonra da ortodoks xristianları müsəlmanlarla sülh şəraitində birgə həyat sürmüşdülər. BBC televiziyasının şərhçisi Terri Consun sözlərinə görə, səlibçilərin Yaxın Şərqdən çıxması ilə mədəni həyat təkrar başlamış və üç dinin mənsubları yenə Qüdsdə birlikdə yaşamağa başlamışdılar.[18]

Səlib yürüşləri nümunəsi ümumi qanunauyğunluğu göstərir: bir fikrin ardıcılları əgər mədəniyyətdən uzaq, geridə qalmış cahil insanlardırsa, o zaman



**Xristianlıq şiddətə əsla yer verilməyən sevgi dini olmasına rəğmən, səlibçilər tarixin ən vəhşi əməllərini həyata keçirdilər. Çünki bu cahil kütlələri İncili, bəlkə də həyatı boyunca bir dəfə olsun belə oxumadıqlarından xristianlığın əxlaqi meyarlarından xəbərsizdirlər.**

onların təcavüzkarlığa meyli çox yüksək olur. Bu, dindənkənar ideologiyalara da aiddir. Dünyadakı bütün kommunistlərin ən vəhşisi və qana susamış Kambocada ortaya çıxan qırmızı kxmerlər olmuşdur. Çünki onlar kommunistlərin ən cahilləridir. Cahil insanlar qarşıdurmaya səbəb olan fikrə dəlicəsinə bağlandıqları kimi, şiddətə qətiyyən qarşı çıxan ilahi dinə də düşmənçilik fikirləri qata bilər. İslam dünyasında da bunun nümunələri yaşanmışdır və hələ də yaşanmağa davam edir.

Din adından terror törədənlərin iç üzünü tam anlamaq üçün Peyğəmbərimizin (səv) dövründəki bədəvi xarakterinə də mütləq baxmaq lazımdır.

## Qurana görə, bədəvi xarakteri

Peyğəmbərimizin (səv) dövründə Ərəbistanda iki əsas sosial zümrə var idi: şəhər əhalisi və bədəvilər. O dövrün şərtlərinə görə Ərəbistan şəhərlərində olduqca inkişaf etmiş mədəniyyət hakim idi. Ticarət əlaqələri bu şəhərləri xarici dünyaya bağlayır və bu, şəhərli ərəblərin təcrübəsini artırırdı. Onlar geyim mədəniyyətinə sahib idilər, ədəbiyyatdan, xüsusilə də şeirdən xoşları gəlirdi. Köçəri qəbilələr olan bədəvilər isə çox geridə qalmışdılar. Sənət və ədəbiyyatdan tamamilə xəbərsiz olan bədəvilər səhranın sərt şərtləri daxilində kobud xarakterə sahib olmuşdular.

İslam Ərəbistan yarımadasının ən əhəmiyyətli şəhəri olan Məkkədə doğuldu və inkişaf etdi. Amma İslam yayıldıqca Ərəbistanın bütün qəbilələri onu müəyyən zamanlarda qəbul etdilər. Onların arasında bədəvilər də var idi. Bədəvilərlə bir problemi var idi ki, onların intellektual və mədəni səviyyəsi



Peyğəmbərimizin (səv) dövründəki bədəvi cəmiyyətlər səhrada yaşayan köçəri tayfalar idi. Bədəvilər səhranın sərt şərtləri içində kobud xarakterə malik idilər.

İslamın dərinliyini anlamaq üçün çox aşağı idi. Bir Quran ayəsində onların vəziyyəti belə açıqlanır:

**Bədəvilər küfr və nifaq baxımından daha pis və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri bilməməyə daha layiqdirlər. Allah biləndir və hikmət sahibidir! (Tövbə surəsi, 97)**

Bədəvilər, yəni inkar və nifaq baxımından daha pis olub sərhəd tanımayan sosial qruplar Peyğəmbərimizin (səv) dövründə İslam dünyasına daxil oldular. Ancaq sonrakı dövrlərdə İslam dünyasında problem çıxarmağa başladılar. Bədəvilər arasında inkişaf edən "xaricilər" adlı məzhəb bunun bir nümunəsi idi. İslamın özü və Quran əxlaqının genişliyi mövzusunda heç bir anlayışa sahib olmayan xaricilər bir neçə Quran ayəsini həqiqi mənasından tamamilə uzaqlaşdıraraq özlərindən olmayan bütün müsəlmanlara qarşı savaş açdılar, sonra terror əməlləri törətdilər. Peyğəmbərimizin (səv) ən yaxın səhabələrindən

biri olan və Peyğəmbərimiz (səv) tərəfindən “elm şəhərinin qapısı” kimi təsvir edilən hz. Əli bir xarici tərəfindən hazırlanan sui-qəsd nəticəsində bıçaqla şəhid edildi. Başqa sözlə, səlibçilər xristianlığı həqiqi mənasından tamamilə sapdıraraq onu vəhşi əməlləri üçün istifadə etdikləri kimi, İslam dünyasında ortaya çıxan bir sıra azğın qruplar da İslamı səhv izah edərək qarşıdurma yaratdılar. Onların hər ikisinin ortaq cəhəti Qurandakı ifadə ilə desək, bədəvi, yəni cahil, mədəniyyətsiz, içinə qapanmış, sərt və kobud təbiətli insanlar olmaları idi. Onların törətdikləri vəhşilik mənsub olduqlarını iddia etdikləri dinin deyil, cahilliyin nəticəsi idi. Öz dinlərinin əsil qaynağını belə bilmir, batil inanclar əsasında hərəkət edirlər.

Bədəvi xüsusiyyətinin yalnız o dövrə xas olduğunu düşünmək çox xətalıdır, dövrümüzdə də belə insanlar vardır. Özlərindən, yaxud çevrələrindən başqasını bəyənməyən, hətta başqa dindən olanlara qarşı vəhşilik etməyi dininin əmri kimi görən bu insanların çoxlu yanlış düşüncələri vardır. Təkfir etmək və qisas almaq buna nümunədir.

## İslam adından qan tökənlərin yanlış məntiqi

Eyni Allaha iman gətirən, hz. Muhəmmədin (səv) Allahın elçisi və Quranın haqq kitab olduğunu qəbul edən bəzi müsəlmanlar bir-birini dinsizlik və küfrlə ittiham edib qətlə yetirirlər. Xüsusilə son dövrlərdə şiələrin kütləvi şəkildə öldürülməsi və məscidlərinin bombalanması, eyni zamanda, İraq kimi yerlərdə bir qisim şiələrin sünnilərə hücumu diqqətləri İslam dünyasındakı anormallığa yönəltdi. Bu zehniyyət nə terror təşkilatları ilə əlaqədar idi, nə də yeni xəstəlik idi: Misirdə şiə, İraqda isə sünni olduqlarına görə müsəlmanlar küçələrdə öldürülürlər. Çoxu bilgisiz olan insanları belə vəhşiliyə aparan səbəb televiziya və məscidlərdə İslam adından

danışan bəzi din alimlərinin fətvalarıdır. Digər yandan, istər Yaxın Şərqdə şiə və sünni qrupların eyni ölkə daxilindəki mübarizəsində, istərsə də ölkələrarası məzhəb savaşlarının əsasında yenə bu xurafatlar dayanır. Əlbəttə, şiddət tətbiq etmək çox yanlışdır və bu, dinin əsası olan Qurana yönəlmədən düzəlməz.

### Təkfir etmək, yəni dindən çıxmaq ittihamı

Günahsız insan qanı tökməyə ibadət kimi yanaşan, öz dinlərindən olmayanlara yaşamaq hüququ verməyən və İslam coğrafiyasında durmadan qan axıdan



Küveytdəki İmam Cəfəri Sadiq məscidinin bombalanması



Yəməndə məscidə hücum



İraq Hərbi Hava Qüvvələrinə mənsub 1700 şiə əsgərinin öldürüldüyü “Camp Speicher” qətliamı.

fitnənin yayılmasının səbəbi təkfir etməkdir. Təkfir etmək bir şəxsi, yaxud qrupu İslam dinindən çıxmaqla ittiham etməkdir. Xurafatçılar hansı qrupun İslam dinindən çıxdığı qənaətinə gəlsə, həmin insanları qətl etmək hökmü verirlər. Lakin kimsə müsəlmanlıqdan çıxsa, yaxud da imandan sonra inkar etsə belə, onun cəzası insanlara deyil, Allaha aiddir:

**İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aid-dir. (Şura surəsi, 10)**

**Hökm yalnız Allahındır. O, əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bilmir. (Yusif surəsi, 40)**

Dövrümüzdə bir qisim sünni qrupların şiələri, şiə qrupların da sünniləri təkfir edib biri-birinə nifrət etdiklərinin, bərabər namaz qılmadıqlarının, hətta bir-birini öldürdüklərinin şahidi oluruq. İslam dininə sonradan əlavə edilən təkfir məntiqinin Quranda qətiyyən yeri yoxdur. Müsəlmanlar arasındakı bu fitnənin səbəbi firqeyi-naciyədən (nicat tapmış firqə) bəhs edən hədisdir. Bir çox rəvayətdə yer alan və Quranda qətiyyən əsası olmayan bu hədisin ən çox bilinən forması belədir:

*“Ümmətim 73 firqəyə ayrılacaq. Onlardan birindən başqa, hamısı cəhənnəmlikdir; o biri də mənim və səhabələrimin yolu ilə gedənlərdir”.*

Bu məntiq fərqli rəvayətlərdə müxtəlif formalarda mövcuddur. Məsələn, Tirmizidə *“birindən başqa, digərləri cəhənnəmə girər”* ifadəsi yoxdur. Hakimdə isə bu hədis *“ümmətim yetmiş iki qüsurlu firqəyə ayrılacaq, ən böyüyü keflərinə görə iş görər; halalı haram, haramı halal edər”* formasında rəvayət edilmişdir. (Müstədrək, 4/430)

İslam dünyasının bölünüb parçalanması Quranı kafi görməyən, xurafat və uydurma hədislərlə İslamı fərqli göstərməyə çalışan zehniyyətin məhsuludur. Peyğəmbərimizin (səv) dövründəki kimi Quran müsəlmanı olmaq yerinə, özlərinə görə halal və haramlar çıxaran və yalnız öz məzhəbinin ən doğru olduğuna inanan xurafatçılar digər müsəlmanların dinsiz olduğunu düşünürlər. Halbuki Allah belə düşüncəni Quranda qadağan etmişdir:

**Ey iman gətirənlər! Allah yolunda çıxdığınız zaman diqqətli olun! Sizə müsəlman olduğunu bildirən bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahlanaraq: “Sən mömin deyilsən!” – deməyin! Halbuki çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. (Nisa surəsi, 94)**

*Hədislərə nəzər yetirdikdə görürük ki, Peyğəmbərimiz (səv) də müsəlmanların bir-birini küfrdə günahlandırmasını qadağan edir:*

*“Kim bir insanı “kafir” çağırarsa, yaxud elə olmadığı halda, “Ey Allahın*



**Dövrümüzdə bəzi şiələr sünniləri, sünnilər də şiələri kafir elan edirlər. Halbuki Quranda belə bir təkfirin heç bir səbəbi yoxdur. Peyğəmbərimiz (səv) də müsəlmanları bir-birilərini inkarçılıqla günahlandırmaqdan çəkindirmişdir.**

*düşməni", – deyərsə, o söz özünə qayıdar". (Səhihi-Müslim)*

*"Möminə lənət etmək onu öldürmək kimidir. Bir mömini küfrdə günahlandıran onu öldürmüş sayılar". (Səhihi-Buxari)*

*"Bizim kimi namaz qılan, qibləmizə dönən və kəsdiyimizi yeyən kəs Allahın və Rəsulunun təminatını əldə etmişdir. O halda (belələrini öldürməklə) Allahın verdiyi təminat və əhdi pozmayın". (Səhihi-Buxari)*

*"Bir şəxs (müsəlman) qardaşına: "Ey kafir", – deyə xitab edərsə, bu söz ikisindən birinə gedər. Əgər dediyi kimidirsə, küfr onda qalar, elə deyilsə, söyləyənə qayıdar". (Səhihi-Buxari)*

*"Bir kimsə müsəlman qardaşını təkfir edərsə, lənəti ikisindən birinə (təkfir edilən və ya edəndən) qayıdar". (Əl-Müsnəd)*

Peyğəmbərimizin (səv) dövründə möminlərin arasında münafiqlər, qəlbinə iman



yerləşməyənlər və fasiqlər də olmuşdur. Allah Quranda Peyğəmbərimizin (səv) hökmü ilə razılaşmayan, anormal hərəkatlərə yol verən, hətta müsəlmanlar arasında özünü gizlədən dinsiz şəxslərdən bəhs etmişdir. Lakin Peyğəmbərimiz fərq qoymadan təbliğə davam edib hər kəsin imanını gücləndirməyə çalışmış və onları küfrlə ittiham etməmişdir. Heç kim başqasının imanı ilə bağlı hökm və ya bununla bağlı cəza verə bilməz.

Allah müsəlmanların ayrılığa düşməsinin və ya çəkişməsinin axirətdə qarşılığının olacağını bildirir:

**Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir. Sonra (Allah) onlara etdikləri əməllər barədə xəbər verəcəkdir. (Ənam surəsi, 159)**

Quranda müsəlmanların birlik olması, qardaş kimi yaşaması, dağılıb ayrılmaması və dost olub çəkişməməsi əmr edilir:

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

**Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir. (Ali-İmran surəsi, 105)**

Müsəlmanların birləşməyinə kömək etməyib nifaq və nifrət yaradanlar və ya bir-birinin dindən çıxmasına fətva verənlər bir qisim müsəlmanları şiddətə təşviq edirlər. Məzhəb imamlarına əsaslanıb müsəlmanlara qarşı cihad elan edənlər xətaya düşürlər və bunun hesabını axirətdə verə bilməyəcəklər. Allah

Quranda müsəlmanların arasını düzəltməyi belə əmr edir:

**Möminlər, həqiqətən də, qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin. (Hücurat surəsi, 10)**

## Qisas hökmünün yanlış tətbiqi

**Qurandakı qisas hökmlərinin məqsədi hz. Muhəmməd dövründə ərəb cəmiyyətlərində yayılan kin və şəxsi intiqam duyğularından irəli gələn cəzaları ortadan qaldırmaq idi. Quranın daşındırıcı xüsusiyyəti bu hökmdə də görünür və cinayətin qarşısını almaqla həyatı qoruyur. Qisas da bu hökmlərdən biridir:**

**Ey iman gətirənlər! Öldürülənlərə görə qisas almaq sizə vacib edildi. Azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından (qisas alın!) Əgər (qatil) qardaşı (ölənin varisləri) tərəfindən bir şeylə əfv edilsə, onda insafla davranmalı və ona müvafiq qaydada diyə ödənilməlidir. Bu, Rəbbiniz tərəfindən bir yüngülləşdirmə və mərhəmətdir. Bundan sonra kim həddi aşsa, onun üçün üzücü bir əzab vardır. (Bəqərə surəsi, 178)**

Qisasdan bəhs edən bu ayədə diqqət çəkən məqam bağışlamaq və əfv etməyin təşviq edilməsi və bunun daha gözəl olduğunun bildirilməsidir.

Odur ki, qisasda bizim üçün həyat vardır. Qisasın kimlərə tətbiq olunacağı və kimin tətbiq edəcəyi bəzi şərtlərə bağlıdır. Məsələn, qisas almağa kimin haqqının çatdığı ayədə belə açıqlanmışdır:

**Allahın, haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Kim haqsız yerə öldürülmüşsə, artıq onun varisinə ixtiyar vermişik. Lakin o da qisas aldıqda həddi aşmamalıdır. (İsra surəsi, 33)**

Digər tərəfdən, "Maidə" surəsinin 178-ci ayəsində bildirildiyi kimi, ölən şəxsin yaxını qisasdan vaz keçib diyə (qanbahası) istəyə bilər ki, bu da bağışlamağa təşviqdir. Başqa bir ayədə Allah bağışlamağın yaxşı əməl olduğunu belə bildirir:



**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir. (Şura surəsi, 40)**

Quran ayələrindən göründüyü kimi, məqbul olan əfv və islah etməkdir. Bunun İslamdan öncə də Allahın bəyəndiyi əxlaq olduğu bildirilir:

**Biz (Tövratda) onlara yazıb buyurduq ki, cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş, yaralara da (yaralar) qisas alınmalıdır. Hər kəs bunu sədəqə etsə, bu, onun üçün kəffarə olar. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımlardır. (Maidə surəsi, 45)**

## Qurana əsasən, zülmün əvəzi zülm deyil

İslam dini adından istifadə edən terrorçu liderlərdən və ya bunu məşru göstərməyə çalışan din adamlarından niyə bu qətliam və intihar hücumlarına fətva verdiklərini soruşduqda müsəlmanlara edilən zülmün qisasını aldıqlarını deyirlər. Əlbəttə, dünyanın müxtəlif yerlərində müsəlmanlar qətliam, haqsızlıq və zülmə məruz qalırlar. Lakin bunun qarşılığı zülm deyil və Allah bunu qadağan etmişdir. Qisas hökmlərindəki əfvetmə tövsiyəsi də bu həqiqətin göstəricisidir.

## İslama görə günah və cinayət şəxsin özünə aiddir

Allah zülmü Quranla qadağan etmişdir. Bundan başqa, İslamda hər kəs günahının məsuliyyətini özü daşıyır. Bir ərazini bombalamaq qətliam törətmək deməkdir və uşaq, qadın, yaşlı demədən edilən hücumlar cinayətdir. İnsanları yalnız millətinə, dininə və məzhəbinə görə öldürüb intiqam almaq da İslama tamamilə ziddir.

İslamda savaş hüququnun təməlində ədalət, sülh və bağışlamaq var. Yaşamaq və yaşatmaq əsas götürülür. Beləliklə, Allahın müəyyən sərhədlər daxilində qəsdən adam öldürməyə qarşı yayındırmaq məqsədilə buyurduğu və bağışlamağı təşviq etdiyi qisas hökmü fərdi intiqam hissi ilə cəmiyyətlərə və həmin cəmiyyətlərin üzvlərinə tətbiq oluna bilməz. Qurandakı hökmlər bu qədər açıq-aydındır. Lakin din adından terror törətmək istəyənlərin mövcudluğu terrorun psixologiyasını araşdırmağı labüd edir:

## Terrorun yanlış psixologiyası

Terrorun gündəlik istifadə olunan mənasından daha geniş mənası var. Dövrümüzdə terror anlayışı, ümumiyyətlə, ideoloji radikal qruplaşmaların silahlı mübarizəsini ifadə edir. "Terror" dilimizdə "qorxutmaq" və "hədələmək" mənasını verir. Lakin bunun əhatəsi insanların bütün həyatını qorxuya salacaq qədər daha böyükdür. Terror insanları hədələyərək müəyyən düşüncəni mənimsətmək üçün hər cür şiddəti ehtiva edir. Ancaq hər vəziyyətdə terrorun hədəfi dolayı yolla, yaxud birbaşa xalq olur. Terror təşkilatı xalqı tərəfinə çəkmək üçün terrordan istifadə edir. İnsanları qorxuya salaraq güc qazandığını və bunun sayəsində xalqın və ya onun bir hissəsinin özünə dəstək verəcəyini düşünür. Bu, terror deyildikdə ağıla gələn ilk mənadır və sol terror kimi xarakterizə olunur. Bir də üçüncü dünya ölkələrində rast gəlinən və diktatura rejimləri tərəfindən tətbiq olunan terror vardır. Əslində, burdakı məntiq sol terrordakı məntiqin makro tətbiqindən başqa bir şey deyil. İqtidar başçısı xalqa təzyiq edərək səlahiyyətindən yalnız şəxsi mənfəətləri üçün istifadə edir. Bu səbəbdən müxtəlif müxalifətlərlə üz-üzə qalır. Belə vəziyyətdə həmin diktator

rejim müxalifətdən daha güclü olduğunu sübut etmək üçün eyni formuldan istifadə edir- terror tətbiq edir ki, xalq ondan qorxsun və bu, ona güc qazandırsın.

Belə halda terror təşkilatları öz ideologiyalarına bağlı qalaraq haqsızlıq və zülm etdiyini düşündüyü rəhbərləri yox etməklə daha xoşbəxt həyat yaşayacaqlarını düşünürlər. Halbuki bu, doğru yanaşma deyil. Allah "Bəqərə" surəsinin ilk ayələrində belə düşünənlər haqqında buyurur:



**Təcavüzkarlığı, öldürməyi, vuruşmağı, zülm etməyi məqsəd olaraq mənimsəyən terrorçular Allah qorxusundan və sevgisindən tamamilə uzaqdırlar.**

**Onlara: “Yer üzündə fəsad törətməyin!” – deyildiyi zaman: “Biz ki, ancaq xeyirxahlıq edənlərik!” – deyirlər. Sözsüz ki, onlar fəsad törədəndirlər, amma başa düşmürlər. (Bəqərə surəsi, 11-12)**

Diqqət edilirsə, terroru bir metod kimi mənimsəyənlər bəzən bir-birindən qarşılıqlı faydalanmaq üçün ittifaqa girirlər. Çünki terror törədənlər malik olduğu silahlar vasitəsilə renta qazanırlar, bu yerdə ideallar yox olur.

Terrorçular üçün adam öldürmək həyat tərzinə çevrilib. Günahsız insanlara və uşaqlara rahatlıqla güllə və ya bomba ata bilirlər, qan tökmək onların məqsədinə çevrilmişdir və bundan zövq alırlar. Bir növ vəhşi heyvan kimidirlər, aralarında bir az mərhəmətli birini görsələr, onu xain və qorxaq adlandırıb cərgədən çıxarırlar. Çox vaxt bir-birinə silah qaldırıb fraksiyaçıları qətlə yetirirlər.

Terrorizm tamamilə şeytanın oyunudur, hər kim bu vəhşiliyi müdafiə edirsə, şeytani sistemi dəstəkləyir. Bir terrorçunun dini anlayış və simvollardan istifadə etməsi heç kimi yanıltmamalıdır. Din adından həm qan tökdükləri üçün, həm də bununla dinin əleyhinə təbliğat apardıqları üçün ikiqat günahkardırlar. Terrorla din tamamilə zidd anlayışlardır. Terrorizm aqressiv olmağı, savaşıb öldürməyi və zülm etməyi mənimsəmişdir. Lakin bütün bunlar Qurana görə zalımlıqdır. Allah sülhü, mərhəməti, yaxşılıq etməyi, insanları barışdırmağı əmr edir, terroru və hər cür təxribatçı əməlləri qadağan edir, bunu edənləri belə lənətləyir:

**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. (Rəd surəsi, 25)**

Terrora bulaşanlar Allah qorxusundan və sevgisindən tamamilə uzaq olan xəstə ruha sahibdirlər.

## Terrorçu amansızdır, tək məqsədi yox etməkdir

Rus anarxizminin qurucusu M.Bakunin və tələbəsi Neçayev ideal terrorçunu belə təsvir edir:

*“Varlığının tək məqsədi yalnız sözləri ilə deyil, hərəkətləri ilə də cəmiyyətin mövcud quruluşuna qarşı savaşmasıdır. Mədəni dünyaya aid qanunlara, əxlaqi dəyər və əməllərə amansızca qarşı çıxar... Yalnız bir şeyi bilər: yox etməyi”.*[19]

Bu şəxslərin sözlərindən başa düşüldüyü kimi, terrorçular maddi-mənəvi hər şeyi əngəl görüb bütün əxlaqi dəyərləri rədd edirlər. Bakunin bir başqa sözündə belə demişdir:

*“Gecə-gündüz (terrorçunun) bir düşüncəsi və qayəsi var: amansız şəkildə məhv etmək. Bu arada məqsədini reallaşdırmaq üçün soyuqqanlılıqla və istirahət etmədən çalışar. Hər zaman ölməyə və məqsədinə mane olan hər kəsi əlləri ilə öldürməyə hazır olmalıdır”.*

Terrorizmin əl kitabçası kimi tanınan “İnqilabçı kitabçası”nda terrorçu belə təsvir edilir:

*“...Özünə qarşı sərt olduğu kimi, başqalarına da elə olmalıdır. Hər cür insan münasibətləri, sevgi və dostluğa olan meylini inqilab savaşının həyəcanı ilə özündən uzaqlaşdırmalıdır”.*[20]

Bu sözlər terrorun qaranlıq üzünü ortaya qoyur və terrorun sülh və sevgi dini olan İslamla tamamilə zidd olduğunu göstərir.



Terrorizm şiddət, qorxu və xaosun hakim olduğu bir cəmiyyətin xəyalındadır.

## İslam Boston hücumu kimi bütün terror və şiddət əməllərini lənətləyir

2013-cü ildə ABŞ-da təşkil olunan Boston marafonunda həyata keçirilən terror hadisəsi bütün səmimi müsəlmanlar tərəfindən 11 sentyabr və digər terror aktları kimi, şiddətlə lənətləndi. Üç nəfərin öldüyü və yüzlərlə insanın yaralandığı bu hadisə İslam dünyası ilə Qərb dünyasının arasını vurmaq üçün planlanmış qanlı provokasiya idi. Qərbə İslamın guya şiddət və terror dini olduğunu göstərmək üçün təşkil olunmuş bu cür təhrikçilik hərəkətləri müxtəlif ölkələrdə dəfələrlə sınandı və müvəffəqiyyətli oldu. Boston hücumunun ardından ABŞ-da müəyyən media qurumları insanları müsəlmanlara qarşı qızışdırdı və cəmiyyətə onların təcridini təşviq edən açıqlamalar verdi. Bu provokasiyalar həmişə olub və olacaq. Lakin bunlara görə müsəlmanların da üzərinə əhəmiyyətli vəzifə düşür: təkcə terroru lənətləməklə kifayətlənməmək, gerçək İslam əxlaqını bütün dünyaya anlatmaq.

Hər kim müsəlman olduğunu deyib terror və şiddəti dəstəkləyirsə, o adam ya müsəlman görünüşündə fitnəkar, ya da dinini doğru-düzgün bilməyən cahil insandır. Bilgisizliyindən









Terrorçular üçün insan öldürmək bir həyat tərzidir. Qan tökmək isə onlar üçün zövq və məqsəddir. Buna görə günahsız insanları amansızcasına güllələyə bilir, kiçik uşaqların üzərinə bomba ata və evləri partlada bilirlər.

bunu deyən insana Quran doğru açıqlansa, o, belə əməllərindən əl çəkər. Fitnəkarlara fürsət verməmək üçün bütün insanlar İslam haqqında doğru məlumatlandırılmalıdır. İslamın şiddət və nifrəti əsla qəbul etmədiyini hər kəs bilərsə, fitnə də aradan qalxar.

Xristian və musəvi aləmində İslam düşmənçiliyi yaradıldığı kimi, İslam dünyasında da musəvi və xristian düşmənçiliyi meydana gətirməyə çalışan bəzi insanlar vardır. Onlar Qurana deyil, uydurma hədislərə inanan və şiddəti dəstəkləyən xurafatçı qrupların fərdləridir. İslam dünyasında bu vəziyyət, həqiqətən, çox ciddi problemdir. Bütün səmimi müsəlmanlar belə şəxslərin İslam dünyasının üzvü və təmsilçisi kimi tanınmasından narahatdırlar. Çünki onların İslamın gerçək dəyərləri ilə heç bir əlaqəsi yoxdur. Onlar sevgi və mərhəmət hisslərindən məhrumdurlar, başqa dinin nümayəndələrinə deyil, hətta müsəlmanların da bir çoxuna nifrət edirlər. Tanımadığı insanlara qarşı başqa zümrədən olduqları üçün ədavət bəsləyirlər. Bu, həqiqətən də, qəbuledilməz haldır. Müxtəlif din

mənsublarını, fərqli köklərdən gələnləri bir-birinə düşmən elan edib aralarında fitnə çıxarmaq tarix boyu bəzi insanların əl çəkmədiyi üsuldur. Halbuki dünya hamının xoşbəxt və rifahlı yaşaması üçün yetəri qədər genişdir və geniş imkanlara sahibdir. Dava-dalaş çıxarmağa heç bir səbəb yoxdur və bunun üçün gətirilən bəhanələr yalnız mənasız oyunlardır.

Sülh içində yaşamaq savaşmaqdan çox asandır. Məsələn, israilliləri də, fələstinliləri də bomba və raket qorxusu içində yaşatmaq qəbul edilməzdir. Biri hz. İsmayılın, digəri isə hz. Yaqubun oğulları olan iki millətin bu vəziyyəti insanlıq üçün böyük ayıbdır.

Bizim əsas istəyimiz sevgi və sülh dolu dünyanın yaradılmasıdır. Bunun üçün İslam, xristian və yəhudilərdən ağıllı insanlar birlikdə hərəkət etməlidirlər. Yaxşıların ittifaqı şərtdir, bu ittifaq tək müsəlmanlar arasında deyil, kitab əhli ilə də qurulmalıdır. Əks təqdirdə, nə terrorun, nə də şiddət hadisələrinin qarşısını almaq olar.

*Allah əmin-amanlıq yurduna çağırır və istədiyini doğru yola yönəldir.*
*(Yunis surəsi, 25)*

# İSLAMIN KİTAB ƏHLİNƏ MÜNASİBƏTİ

Dövrümüzdəki terror problemi ilə yanaşı, əhəmiyyətli bir məsələ də Qərb və İslam dünyası arasındakı münasibətlərdir. Bilindiyi kimi, 90-cı illərdən etibarən bəzi müşahidəçilər yanlış inancla Qərb və İslam dünyası arasında münaqişə olacağını irəli sürmüşdülər. Samuel Hantinqtonun məşhur "Mədəniyyətlər qarşıdurması" tezisinin əsas mövzusu da budur. Halbuki E.Seid tərəfindən daha doğru ifadə edilən "Cəhalətlər qarşıdurması" tezisi hər iki mədəniyyətin daxilindəki bəzi radikal və bilgisiz ünsürlərin mübaliğəsindən qaynaqlanan xəyali ssenariyə əsaslanır. S.Hantinqtonun "mədəniyyətlər qarşıdurması" fikri elmi və vicdani heç bir dəlili olmayan nəzəriyyədir.

Tarix boyu yer üzünün hər bölgəsində müxtəlif mədəniyyətlər mövcud olmuşdur və bunlar qarşılıqlı sosial-mədəni əlaqələr qurmaqla bir növ mədəniyyət mübadiləsi etmişlər. Hər irq və millət fərqli mədəniyyətə malikdir və hər birinin ayrı xüsusiyyətləri mövcuddur. İnsanlar qarşılıqlı şəkildə həmin mədəniyyətlərdən yeni şeylər öyrənirlər.

Bu qarşıdurma iddiası yaxın keçmişdə kommunizm vasitəsilə sınanmış və ortalığa 20-ci əsrin qanlı nəticəsi çıxmışdır. Halbuki hazırda dünyanın münaqişəyə deyil, ümumbəşəri sülhə ehtiyacı var. Bundan başqa, münaqişə yönlü siyasət heç bir fayda verməz. İslam və Qərb mədəniyyətləri arasında heç bir qarşıdurma ola bilməz. Çünki Qərb mədəniyyətinin əsasını təşkil edən musəvi-xristian inancı İslama qarşı deyil, əksinə, tam ittifaq halındadır.

Quranda musəvi və xristianlar "kitab əhli" adlandırılır. Bunun səbəbi hər iki din mənsublarının Allahın vəhy etdiyi ilahi kitablara tabe olmasıdır. İslamın kitab əhlinə baxışı çox ədalətli və mərhəmətlidir. Bu ədalət hələ İslamın zühur etdiyi illərdə Quranın əsaslarına görə formalaşmışdır. Bilindiyi kimi, o dövrdə Məkkədəki bütpərəstlərin təzyiq və işgəncəsi altında inanclarını qorumağa çalışan müsəlmanların sayı az idi. Təzyiqin artması ilə müsəlmanlar Məkkəni tərk edib ədalətli rejimə sığınmağa qərar verdilər. Peyğəmbərimiz hz. Muhəmməd (səv) onlara Efiopiyadakı xristian kralı Nəcaşiyə sığınmağı nəsihət etdi. Müsəlmanlar orada onları sevgi və hörmətlə qarşılayan çox ədalətli rejimlə qarşılaşdılar. Kral Nəcaşi müsəlmanların təslim edilməsini istəyən elçiləri rədd etdi və onların ölkədə azad yaşaya biləcəyini açıqladı. Xristianların şəfqət və mərhəmət anlayışına əsaslanan bu davranışları Quran ayələrində belə açıqlanır:

> **..."Biz xaçpərəstik!"– deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər. (Maidə surəsi, 82)**

## Kitab əhlinin müsəlmanlarla ortaq inanc və dəyərləri

Xristian və müsəlmanların inancı bir çox yöndən müştərəkdir. Musəvilik də İslamla ortaq inanclara malikdir. Allah Quranda müsəlmanların kitab əhli ilə imanda birləşdiyini **“Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudunuz birdir. Biz yalnız Ona itaət edirik” (Ənkəbut surəsi, 46)** ayəsi ilə bildirir.



**Quranda xristian və yəhudilər kitab əhli olaraq adlandırılmışdır. Quranda kitab əhlinə qarşı hörmət, sevgi, mərhəmət və diqqət göstərilməsi əmr edilir. Hər iki dinin mənsubları Allahın vəhy etdiyi dinlərə inanır və müsəlmanlarla eyni əxlaqi dəyərləri müdafiə edirlər.**

Hər üç dinin mənsubları:

- ***Allahın bütün dünyanı yoxdan yaratdığına və bütün maddəyə sonsuz qüdrəti ilə hakim olduğuna inanır.***
- ***Allahın canlıları və insanı möcüzəvi şəkildə yaratdığına və insanın Allahın verdiyi ruha malik olduğuna inanır.***
- ***Ölümdən sonra dirilməyə, cənnət və cəhənnəmin, həmçinin mələklərin varlığına iman gətirir, Allahın həyatımızı qədərlə (tale) yaratdığına inanır.***
- ***Tarix boyu Allahın insanlara hz. Nuh, hz. İbrahim, hz. İshaq, hz. Yusif və hz. Musa kimi bir çox peyğəmbər göndərdiyinə inanır və bütün peyğəmbərləri sevir.***

Bir ayədə müsəlmanların peyğəmbərlər arasında heç bir fərq qoymadıqları belə deyilir:

> **Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış və möminlər də iman gətirmişlər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirərək dedilər: "Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. Eşitdik və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, Sənin dərgahına qayıdacağıq!" (Bəqərə surəsi, 285)**

Yalnız imani mövzularda deyil, əxlaqi dəyərlər mövzusunda da kitab əhlinin inancı müsəlmanlarla oxşardır. Dövrümüzdə fahişəlik, narkotik asılılığı kimi əxlaqsızlıqların, eqoist və amansız insan modelinin sürətlə yayıldığı dünya-

da kitab əhli və müsəlmanlar eyni dəyərlərə inanırlar: namus, iffət, təvazökarlıq, fədakarlıq, dürüstlük, şəfqət və mərhəmət...

90-cı illərdən bəri gündəmdə yer alan "tarixin sonu" və "mədəniyyətlər qarşıdurması" düşüncələrinin yayıldığı dövrdə hər ölkə çox çətin günlər yaşayır.



**Dövrümüzdə müsəlmanlarla yanaşı, kitab əhli mənsubları da getdikcə yayılan fahişəlik, narkotik asılılığı və homoseksuallıq kimi qeyri-əxlaqi hərəkətlərə qarşı mübarizə aparırlar. Hər üç dinin mənsubları iffət, dürüstlük, fədakarlıq kimi xüsusiyyətləri ən böyük fəzilət kimi qəbul edir.**

Bu fikirlərin isə heç bir əsası yoxdur və bunlarla problemi həll etmək mümkün deyil. Təcrübələr birinin bədbəxtliyi üzərinə xoşbəxtlik qurmağın mümkün olmadığı göstərir. İndi problemi həll etməyin yolunu tapmaq zamanıdır. Bunun yollarından biri Quranın kitab əhlinə verdiyi dəyərin doğru anlaşılmasıdır.

## Quranda kitab əhlinə verilən dəyər

**Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar. (Maidə surəsi, 5)**

Bu ayə müxtəlif kitab əhlinin müsəlmanlar üçün dəyərindən bəhs edir. Ayənin hökmünə görə, müsəlman kişi kitab əhlinin qadınları ilə evlənə bilər. Bu, çox önəmli məsələdir. Çünki Quranın **"Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər" (Nur surəsi, 26)** hökmünə əsasən, müsəlmanlar təmiz və yaxşı insanlarla evlənməlidirlər. Bu hökm musəvi və xristianların təmiz və yaxşı insanlar olduğunu göstərir.

Bununla yanaşı, bu ayə əhəmiyyətli məqamı göstərir. Bir müsəlman musəvi və ya xristian xanımla evlənir, ona: "canım, sevgilim", – deyə xitab edir, bütün ömrünü və hətta axirət həyatını belə onunla birlikdə keçirməyə niyyət edir. Bu insan dünya həyatı boyu bütün çətinlik və gözəllikləri paylaşdığı yeganə insan

olur. Xəstələndikdə qulluğunda durur və bir-birinə güvənirlər. Bir insan həyatını birgə keçirdiyi, canını əmanət etdiyi və uşaqlarının anası olan sevgilisinə xristian və ya musəvi olduğu üçün anidən düşmən kəsilib ona lənət edərmi? "Bu ağac mənə xəbər verdi ki, zövcəm musəvidir və onun arxasında gizlənib", – deyərək onu öldürməyə qərar verərmi? Bunu ancaq ruhi xəstə edə bilər. Qurana tabe olan ağlı başında müsəlman üçün musəvi və xristiana sevgi ölçüsü bu ayəyə görədir. Ayədə bundan başqa, kitab əhlinin yeməyinin halal olduğu da bildirilir. Bu, əhəmiyyətli mövzudur, çünki müsəlmanlar yemək zamanı haramlara diqqət etməlidir. Donuz əti, Allah adına kəsilməmiş heyvan əti müsəlmanlara haramdır. Kitab əhlinin yeməklərinin müsəlmanlara halal edilməsi onların etibarlı

**Müsəlmanlar həm özlərinin, həm də kitab əhlinin sülh şəraitində ibadətlərini yerinə yetirmələrini, daima yardımlaşma içində yaşamalarını istəyirlər.**



olduğunun zəmanətidir. Eyni şey kitab əhlinə də aiddir və ayənin hökmünə görə, müsəlmanların da yeməyi onlara halal edilmişdir.

Burada başqa dostluq mesajına da diqqət yetirmək lazımdır. Kitab əhli və müsəlmanlar eyni süfrədə otura və bir-birinə qonaq gedə bilərlər. Kin və nifrət mühiti deyil, dostluq və qardaşlıq mühiti təsvir edilir.

Kitab əhlinin mövqeyindən təkcə bu ayə bəhs etmir. Allah Quranda kitab əhlinin bir qismini tərifləyir. Həmin ayələr aşağıdakılardır:

**Musanın qövmündən elə bir camaat vardır ki, haqq ilə doğru yola yönəldir və onun sayəsində ədalətlə hökm verirlər. (Əraf surəsi, 159)**

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar. Belələri Allaha, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali-İmran surəsi, 113-115)**

**Həqiqətən, kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali-İmran surəsi, 199)**

Ayələrdən də anlaşıldığı kimi, Quranda səmimi olan musəvi və xristianlar

təriflənir və mükafatla müjdələnirlər. Allah onların cənnətə girəcəyini buyurur. Bu, Allahın sevgi ifadəsidir. Allahın razı olduğu və sevdiyi insana müsəlman düşmən ola bilərmi? Qurana görə, ola bilməz və bu cür düşmənlik günahdır. Beləliklə, xurafatçılar Quran ayələrinə baxmayaraq, saxta hədisləri əsas alıb kitab əhli düşmənliyini yaymaqla günaha girirlər. Ən doğru olan kitab əhlini gözəl üslubla İslama dəvət etmək, qərarı isə onların öhdəsinə buraxmaqdır.

## Müsəlmanlar kitab əhlini Allahın birliyinə dəvət etməlidirlər

**İçərilərindən zülm edənlər istisna olmaqla, kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudumuz birdir. Biz yalnız Ona itaət edirik". (Ənkəbut surəsi, 46)**

**De: "Ey kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!" (Ali-İmran surəsi, 64)**

Bu ayələrdən göründüyü kimi, müsəlmanların vəzifəsi kitab əhlini öldürmək, lənətləmək və onlara kin bəsləmək deyil. Müsəlmanlar kitab əhlini gözəl tərzdə Allahın birliyinə çağırmalıdırlar. Tövhid inancı hər üç dində əsasdır. Müsəlmanlar onlarla görüşüb təbliğ etməli, onları Allahın birliyinə və endirilən haqq kitabların hamısına inanmağa çağırmalıdırlar. Aralarında dostluq münasibətləri olmalıdır.

## Qurana əsasən, musəvilərin müqəddəs torpaqlarda yaşamaq hüququ var

Ümumiyyətlə, bir qisim müsəlmanların Quran ayələri və İslamla bağlı bilgiləri az olduğuna görə musəviləri müqəddəs torpaqlardan uzaqlaşdırıb İsrail dövlətini xəritədən silmək niyyətindədirlər. Halbuki onlar bunu etməklə Qurana müxalif davrandıqlarını dərk etmirlər. Qurana görə, müqəddəs torpaqlarda



**Qurana görə, müqəddəs torpaqlarda müsəlmanlar kimi yəhudi və xristianlar da Qiyamətə qədər var olacaqlar və hər üç ilahi dinin mənsubları daim birlikdə sülhü və sevgini hakim edib qardaşlıq içində yaşayacaqlar.**

yaşamaq musəvilərin haqqıdır. Ayələrdə bununla bağlı belə xəbər verilir:

**O zaman Musa öz qövmünə demişdi: "Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. O, sizin aranızdan peyğəmbərlər göndərdi, sizi hökmdarlar təyin etdi və aləmlərdən heç kəsə vermədiyini sizə verdi. Ey qövmüm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və arxa çevirməyin ki, ziyana uğrayaraq dönməyəsiniz". (Maidə surəsi, 20-21)**

**Bundan sonra İsrail oğullarına: "Bu yerdə yaşayın! Axirət vədi gəlib yetişdiyi zaman sizin hamınızı (məhşərə) gətirəcəyik", – dedik. (İsra surəsi, 104)**

Ayələrdə açıqca göründüyü kimi, musəvilər həm Tövrata, həm də Qurana əsasən, müqəddəs torpaqlarda yaşamalıdır. Onların o yerlərdə yaşaması əsil müsəlmanlar üçün xoşdur. Allahın 3000 illik vədinin gerçəkləşdiyini görmək, hz. İbrahim və hz. Musanın dediklərinin baş verdiyinə şahid olmaq böyük müjdədir. Allah bunu minlərlə il əvvəl bildirmişdir və biz bu möcüzəni hazırda görürük. Bu, həyəcanverici haldır. Bunu xüsusilə vurğulamaq lazımdır ki, Allah Tövrat və Quranda gerçək iman sahiblərinə sülhü şərt qoyur.

Müqəddəs torpaqlarda musəvilər də, müsəlman və xristianlar da yaşayacaqlar və o bölgədə sülhü hakim edəcəklər. O yerdəki torpaqlar hər kəsə bəs edir. Oradan heç kim çıxarılmayacaq və ev-eşiyini tərk etməyəcək. Bu həm müsəlmanlar, həm də kitab əhli üçün ibadətdir. Allah hamımıza sülh diləyir.

## Qurana əsasən, monastırlara, kilsə və sinaqoqlara hörmət göstərilməlidir

Qurandan öyrəndiyimiz başqa önəmli həqiqət odur ki, müsəlmanlar kitab əhlinin ibadət məkanlarına son dərəcə hörmətlə yanaşmalıdırlar. Quranda kitab əhlinin ibadət məkanları olan monastır, kilsə və sinaqoqlardan Allahın qoruduğu yerlər kimi bəhs edilir:

**Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir. (Həcc surəsi, 40)**



Bu ayə hər müsəlmana kitab əhlinin məbədlərinə hörmət göstərməyin və o yerləri qorumağın əhəmiyyətini göstərir. Allah Quranda müsəlmanlara, ümumiyyətlə, heç bir qövmə qarşı düşmənlik bəsləməməyi əmr edir. Bir çox ayədə müşriklərə qarşı belə ədalətli olmağı buyurur. Peyğəmbərimiz (səv) kitab əhli ilə yanaşı, müşriklərlə də cəmiyyətdə rifahın bərqərar olması üçün bəzi müqavilələr bağlamışdır. Müşriklərə qarşı hər zaman ədalətli davranılmış, onların qorunub himayə olunması tələbi Peyğəmbərimiz tərəfindən qəbul edilmişdir.

**Məscid, kilsə və sinaqoqlar Allahın adının xatırlandığı, Allaha ibadət edilən xüsusi məkanlardır. Allah Quranda bu ibadət yerlərinin hamısına hörmət edilməsinin və bu məkanların qorunmasının zəruriliyinə diqqət çəkir.**



Bu himayə "hər hansı haqsızlığa məruz qaldıqda və ya hücum edildikdə Peyğəmbərin himayəsi altına keçmək və ona sığınmaq" demək idi. Həyatı boyu Peyğəmbərimizdən bir çox qeyri-müsəlman və müşriklər himayə istəmişlər, beləliklə, onların təhlükəsizliyi Peyğəmbərimiz (səv) tərəfindən təmin edilmişdir. Çünki Allah "Tövbə" surəsində müşriklərin sığınacaq tələblərinin qəbul edilməsini əmr etmişdir. Həmin ayə belədir:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. (Tövbə surəsi, 6)**

Musəvi və xristianlar kitab əhlidir, yəni Allahın endirdiyi kitaba tabe olublar, doğru-yanlış və halal-haram anlayışlarına sahibdirlər. Hamısı axirətə iman gətirir, etdiklərinin hesabını verəcəyini bilir, Allahın elçilərini qəbul edirlər. Bunlar müsəlmanların kitab əhli ilə birləşəcəyi ortaq inanc əsasının olduğunu göstərir.

## Ortaq kəlmədə birləşmək

Allah Quranda müsəlmanlara kitab əhli ilə ortaq kəlmədə birləşmək üçün əmr edir:

**De: "Ey kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". (Ali-İmran surəsi, 64)**

Xristian və musəvilərə səslənirik: Allaha inanan və vəhyinə itaət edən insanlar olaraq "iman" kəlməsində birləşək. Hamımız yaradıcımız Allahı sevib əmrlərinə tabe olaq. Allahın bizi daha da doğruya çatdırması üçün dua



**Müsəlman, xristian və yəhudi olan bütün inanclıların bir olub Allaha qəlbən yönəlməsi ilə dünyadakı bütün pisliklərin sonu gələcəkdir.**

edək. Kitab əhli və müsəlmanlar ortaq kəlmədə birləşsələr və bir-birinin düşməni deyil, dostu olduqlarını anlasalar, dünya fərqli məkan olar. Şəfqət, sevgi və elm ilə xurafat və dinsiz cərəyanlara qarşı fikri mübarizə aparılsa, əsrlərlə davam edən ədavət, münaqişə və terror hadisələri sona çatar; ortaq kəlmə üzərində hüzur içində mədəniyyət qurular.

Bəzi əhəmiyyətli məsələlər var ki, müsəlmanlar bunlarda diqqətli olmalıdırlar. Unutmaq olmaz ki, Allahın bizə fərqli millət və inanclar haqqında açıqladığı meyarlar açıq-aşkardır: Quran əxlaqı hər cür irqçiliyi ortadan qaldırır.

Quranda keçmişdə yaşayan bəzi musəvilərin xətalarından dolayı tənqid olunduğu doğrudur. Lakin bunlar müsəlmanların musəvilərə qarşı ədavət aparmasına qətiyyən səbəb olmamalıdır. Bir qisim musəvilərin işlədiyi

günahlar əsla musəvi dininə və millətinə aid edilə bilməz. Quranda bizə insanlar haqqında müəyyən irq, xalq və ya dinə mənsub olduqları üçün hökm verməmək əmr olunur. Fərqli insan cəmiyyətlərində həm yaxşı, həm də pis insanlar mövcuddur. Quranda buna diqqət çəkilir. Məsələn, kitab əhlinin bir qisminin Allaha və dinə qarşı üsyankar davrandığı söyləndikdən sonra bunun istisnası da xəbər verilir:

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar. Belələri Allaha, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali-İmran surəsi, 113-115)**

Allah hər elçiyə Allahın tək olduğunu, bütün ibadət və itaətin yalnız Ona yönəlməli olduğunu vəhy etmişdir. Lakin elçilərin təbliğ etdiyi insanların bir qismi doğru yola yönəlir, bir qismi isə inkar edir. Bəziləri yaxşıların tərəfində olub, bəziləri də pis yola düşürlər. Bu, Allahın qanunudur. İman gətirənlər bunu bilməli, hər dindən gözəl əxlaqlı və səmimi



dindarların olduğu kimi, əxlaqsız insanların da olacağını unutmamalıdırlar.

Arzumuz budur ki, insanlar irqçi düşüncələrdən uzaqlaşıb millətindən və inancından asılı olmayaraq, sülh içində yaşasınlar və hər kəsə hörmət göstərilən bir dünya qursunlar. Şübhəsiz ki, iman gətirənlərin birləşib xurafat və dinsiz ideologiyalara qarşı aparacağı fikri mübarizə sülh və hüzuru təmin edəcək. Allah ayələrdə belə buyurur:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz, yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

**Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı. (Hud surəsi, 116)**

## Kitab əhli və müsəlmanlar niyə birlikdə hərəkət etməlidir?

Xristianlıq, musəvilik və İslamı bir-birinə yaxınlaşdıran, birlikdə hərəkət etməyin əhəmiyyətini göstərən başqa bir məqam da dinsiz fəlsəfələr və bunların səbəb olduğu fəlakətlərdir. Bununla yanaşı, hər üç İlahi dinə sonradan əlavə edilən radikal düşüncələrin təxribatlarıdır.

Dövrümüzün ən tanınan və insanlara ən çox zərər verən ideologiyaları arasında materializm, kommunizm,



faşizm, anarxizm, irqçilik, nihilizm və ekzistensializm kimi cərəyanları göstərmək olar. Bunların kainat, cəmiyyət və insan haqqındakı saxta və aldadıcı düşüncələrinə inanan bir çox insan imanını itirmiş və ya şübhəyə düşmüşdür. Bundan başqa, bu ideologiyalar bəşəriyyəti böyük böhranlara, münaqişə və müharibələrə sürükləmiş, dünyaya dəhşətli fəlakətlər gətirmişdir. Bunların səbəb olduğu acılar hələ də davam etməkdədir. Həmin ideologiyalar Allahı və yaradılışı inkar etməklə Darvinin təkamül nəzəriyyəsinə əsaslanır. Darvinizm dinə qarşı fəlsəfələrin əsasını təşkil edir. Heç bir elmi əsası olmayan bu nəzəriyyə qısa olaraq canlıların təsadüflər nəticəsində və həyat mübarizəsi sayəsində təkmilləşdiyini iddia edir. Beləliklə, darvinizmin insana verdiyi aldadıcı mesaj belədir: heç kimə qarşı məsuliyyət daşımırsan, həyatını təsadüflərə borclusan, yaşamaq üçün mübarizə aparmalı, lazım gələrsə, digərlərini əzməlisən. Bu dünya münaqişə və mənfəət dünyasıdır...

"Təbii seleksiya", "həyat mübarizəsi", "güclülərin həyatda qalması" kimi darvinist mesajlar çox təhlükəlidir. Bu əxlaq anlayışı insanlara eqoist,mənfəətpərəst, amansız və zalım olmağı öyrədir. Şəfqət, mərhəmət və fədakarlıq kimi məziyyətləri isə aradan qaldırır. Bu darvinist təlqin, şübhəsiz, kitab əhlinin inancına və Quran əxlaqına tamamilə ziddir. Beləliklə, darvinist təlqin hər üç dinə müxalif əxlaq anlayışlarından ibarətdir.

Bu həqiqətlər qarşısında Allaha inanan və gözəl əxlaqı qəbul edən kitab əhli və müsəlmanlar əməkdaşlıq etməlidirlər. Hər üç dinin mənsubları əl-ələ verib onsuz da heç bir elmi əsası olmayan, yalnız materialist fəlsəfə uğrunda

ayaqda tutulmağa çalışılan darvinizmin yanlışlığını bütün dünyaya anlatmalıdırlar. İnancsızlıqdan qaynaqlanan bütün zərərli ideologiyalara (kommunizm, faşizm, irqçilik) və əxlaqi degenerasiyalara qarşı birlikdə fikri mübarizə aparmalıdırlar. Bütün dinlərə əlavə edilən xurafatların ortadan qalxması üçün doğru olanları dünyaya yaymağa çalışmalıdırlar. Bunlar gerçəkləşdiyi təqdirdə, dünya qısa zamanda hüzur və ədalətə qovuşar.



## Antisemitizmə artıq son verilməlidir

Dünya tarix boyu zalımlıqdan öz payını aldı...

Məsələn, Hülakü xan bir həftə davam edən Bağdad hücumu zamanı təxminən 200 000 müsəlmanı qətl etdi və Bağdadın yüz illik tarixi mirası tamamilə yox oldu. Vikinqlər isə istədiklərini zor gücünə etdirən zalım qövm kimi tarixə düşdülər. Dövrümüzdə də oxşar nümunələr mövcuddur. Məsələn, Suriyadakı rejim öz xalqını hədəf alıb, Şərqi Türküstan, Kəşmir və İraqda tam mənası ilə qırğın yaşanır. Qısası, dünya dəhşətli hadisələrə şahidlik etdi və bu, hələ də davam edir.

Tarix boyu musəvilər kimi daha çox əziyyət çəkən cəmiyyətlər də olmuşdur. Musəvilərin əziyyətləri oğlan uşaqlarını öldürüb qızlarını sağ buraxan Firon dövründə başladı. Musəvilərə qarşı təzyiqlər qədimdə assurların və babillilərin zamanında, həmçinin musəviləri öldürüb məbədlərini, şəhərlərini dağıdan romalılar dövründə də davam etdi. Musəviləri orta əsrlərdə də hədəf aldılar. Onlara qarşı ayrı-seçkilik edildi və getdikləri hər yerdə təqib olundular. Bu zülm altı milyon musəvinin nasistlər tərəfindən qətl edildiyi yaxın dövrlərə kimi davam etdi. Bu işgəncə hələ də davam edir.

Avropada antisemitizm həm təhqiramiz sözlərlə, həm də qəddar hücumlarla davam edir. İş yerlərinin və avtomobillərinin yandırılması, "yəhudilər qaz otaqlarına",

“yəhudilərə ölüm” kimi şüarlarla yüzlərlə insanın etiraz yürüşləri, sinaqoqlara atəş açılması və molotov kokteyli atılması bunlardan yalnız bir neçə nümunədir. Yaxın vaxtlarda Fransada bir yəhudi cütlüyünün evlərində vəhşi hücuma məruz qaldığı Kretey hadisəsi hələ də yaddaşlardadır. 2006-cı ildə Fransada bir gəncin qaçırılıb həftələrlə işgəncə edildikdən sonra çılpaq halda atılması və sonra ölməsi də hələ unudulmayıb.



Antisemitizmin yaşandığı tək ölkə Fransa deyil. Argentinadan Tunisə, İrlandiyadan İspaniyaya qədər bir çox ölkədə musəvi topluluq-ları hədəfə alınıb. İsrailə böyük dəstəyi ilə tanınan ABŞ-da belə musəvilər kimliyini və dini ibadətlərini gizlətmək məcburiyyətindədirlər. Nyu-Yorkda musəvi kipası taxdığı üçün səbəbsiz yerə dörd nəfərin hücumuna məruz qalan bir gənc, bir neçə qızın şüşə atdığı və: “Pis yəhudi”, -dediyi 12 yaşlı musəvi qız, Kaliforniyadakı hücumdan qabaq: “Heil Hitler”

(Salam, Hitler), – deyə qışqıran beş nəfərin hücumuna məruz qalan bir musəvi də ABŞ-dakı hadisələrdən bir neçəsidir.

Yaxın Şərq isə antisemitizmin ən pis nümunələrinə başçılıq edir. Xüsusilə Qəzza-İsrail savaşından sonra musəvilərə qarşı nifrət yaş və cinsə baxmadan artmağa davam edir. Bəs yaxşı, bəzi adamlar yəhudilərə nifrət etməyi niyə haqlı görür?

Keçmişdə bəziləri "Sion müdriklərinin protokolları" (The Protocols of the Elders of Zion) kimi məşhur antisemit təbliğat səbəbindən onları yaşadıqları cəmiyyətdən təcrid etdiyini

**Tarix boyu yəhudilərə edilən zülm tamamilə İslama zidd olan irqçi mühakimələrin nəticəsi idi. Qurana görə, yəhudilər kitab əhlidir. Onlara hörmət edilməli, sevgi ilə yanaşılmalıdır.**









düşündüyü yəhudilərə nifrət etdilər. Bu həssaslıq daha sonra qan iftirası və musəvilərin şeytanın vücud halı olduğu qorxunc yalanlarla qızışdı. Bu gün İsrail və Fələstin arasındakı münaqişə gücünü həmin bu musəvi nifrətindən alır və bundan çox vaxt küçələrdəki müsəvilərə qarşı şiddəti leqallaşdırmaq üçün istifadə olunur. Əlbəttə, cəmiyyətdəki siyasi rəhbərlər və fərdlər xəta edə bilərlər. Lakin bir neçə nəfərin hərəkətinə əsaslanıb bütün topluluğu günahlandırmaq Quran əxlaqına uyğun deyil. Musəvilər sakitliyi və təvazökarlığı ilə tanınırlar. Gündəlik ibadətləri ilə məşğul olan sakit təbiətli insanlardır. Belə sakit və çəkingən insanların tarix boyu əzablara düçar olması çox təəccüblüdür.

İsrailin yürütdüyü siyasətə etiraz etdikdə bütün cəmiyyətə qarşı gəlmədən mülki mövqedən çıxış etmək lazımdır. Allah müsəlmanları belə hərəkətlərdən çəkindirir. Quranda belə buyurulur:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 5)**

Hər topluluqdan və hər millətdən pis insanların çıxması adi haldır. Müsəlman cəmiyyətlərinin içində saysız qatil, yalançı, günahkar və əxlaqsız insanlar olduğu kimi, musəvilərin də içində uyğunsuz hərəkətlərə yol verənlərin mövcudluğu normal haldır. Bununla yanaşı, bir şəxsin əməllərindən dolayı bütün topluluğa antipatiya bəsləmək çox məntiqsiz və mənasız işdir. Ən əhəmiyyətlisi isə bu, Qurana tamam ziddir.

Qurana əsasən, musəvilər kitab əhlidir. Onlar qorunmalı, hörmət və sevgi ilə qarşılanmalıdır. Allah bir çox ayədə musəviləri sədaqətli və dindar olduqlarına görə tərifləyir. Doğrusu, musəvilər Musa peyğəmbərə sədaqətlərindən ötrü müsəlmanlara gözəl örnək təşkil edirlər.

Bu həqiqətlər onu göstərir ki, İslamiyyətdə və musəvilikdə belə bir anlaşılmazlığa səbəb olacaq heç bir əsas yoxdur. Hər

kəs Allahın dünyanı sevgi üçün yaratdığını və düşmənlik bəsləməyin Allahın diləyinə zidd olduğunu anlayarsa, dünyaya qardaşlıq və sülh hakim olar.

## Peyğəmbərimizin (səv) kitab əhli ilə münasibətləri

*-Peyğəmbərimizin (səv) kitab əhlinin toy süfrələrinə qatılıb xəstələrini ziyarət etdiyinə dair rəvayətlər mövcuddur.*

*-Nəcran xristianları yanına gəldikdə hz. Muhəmməd (səv) əbasını onlar üçün çıxarıb yerə sərmişdir.*

*-Peyğəmbərimizin (səv) xanımlarından biri Misirdən gəlmiş xristian Mariya binti Şəmun idi.*

*-Peyğəmbərimizin (səv) xanımlarından biri hz. Səfiyyə anamız isə Mədinədəki musəvilərdən Madıroğulları qəbiləsinin başçısı Hüyəy bin Əhtabın qızı idi.*

*-Hz. Muhəmməd (səv) Əvs və Xəzrəc qəbilələri ilə bağlanan Mədinə müqaviləsinə musəvilərin də qatılmasına izin vermiş, bununla da onların müsəlmanların arasında ayrı dini qrup kimi varlığını davam etdirməsini təmin etmişdir.*

*-Mədinə müqaviləsinin "Bəni-Əvf musəviləri inananlarla birlikdə cəmiyyət qurdular. Musəvilərin dini özlərinə, müsəlmanların da dini özlərinədir" hökmü ilə müsəlmanların musəvilərin ənənə və inanclarına göstərdiyi hörmətin təməli Peyğəmbərimizin (səv) dövründə qoyulmuşdur. Yenə eyni mətnin 26-33-cü maddələrində kitab əhlinə mənsub*

*vətəndaşların müsəlmanlarla eyni haqlara sahib olduğu, 16-cı maddədə isə onlara qarşı haqsızlıq edilməyəcəyi göstərilir.*

*-Peyğəmbərimiz 630-cu ildə müsəlman olduqlarını bildirmək üçün Mədinəyə gələn Ximyər hökmdarının elçilərinə bu təlimatı vermişdir: "Bir musəvi və ya xristian müsəlman olduğu təqdirdə, möminlərdən olur (onlarla hüquqi baxımdan bərabərdir). Kim musəvi və ya xristianlıqda qalmaq istəyirsə, ona müdaxilə edilməz". (İbn Hişam, "əs-Sirə" II, 586)*

*-Nəcran xristianları Mədinəyə altmış nəfərlik heyət göndərdilər. Mədinəyə çatan Nəcran heyəti məsciddə Peyğəmbərimizin (səv) hüzuruna çıxmış, ibadət vaxtı gəldikdə orada ibadət etmək istəmişdilər. Səhabələr buna etiraz etsə də, Allah Rəsulu məscidi onlara verdi. Onlar da şərqə dönüb ibadət etdilər. (İbn Hişam, "əs-Sirə", 573-574; Həmidullah, "İslam Peyğəmbəri", I, 619-620)*

*-Peyğəmbərimizin (səv) dövründə musəvi və xristianlara verilən amannamələrlə kitab əhlinin hüquqları qorunmuşdur. Sonrakı dövrlərdə hər hansı anlaşılmazlıq olanda kitab əhli bu amannamələri göstərmişdir. Məsələn, dəməşqli xristianların onlara verilən amannaməni dövrün xəlifəsi hz. Ömərə göstərib problemlərinin həll edilməsini istədikləri tarix kitablarında mövcuddur.*

*- Peyğəmbərimiz xristian İbn Harris bin Kab və qövmünə yazdırdığı razılaşma mətnində bu maddələri yazdırmışdır: "Şərqdə və qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, can və malları Allahın, Peyğəmbərin və bütün möminlərin himayəsindədir. Xristianlardan heç kim İslamı qəbul etməyə məcbur edilməyəcək. Xristianlardan biri hər hansı hücum və ya haqsızlığa məruz qalsa, müsəlmanlar ona kömək etmək məcburiyyətindədirlər".*

*-Peyğəmbərimizin (səv) Ədruh, Məkna, Xeybər, Nəcran və Akabadan olan kitab əhlinə verdiyi sənədlər müsəlmanların kitab əhlinin can və mallarına zəmanət verdiyini və onlara inanc və ibadət azadlığı təmin etdiyini göstərir.*

*-Peyğəmbərimiz təbliğə başlayanda ilk dəfə Məkkədə bəzi xristianlarla qarşılaşmışdı. Hətta özünə vəhyin gəldiyi ilk günlərdə onunla və hz. Xədicə ilə ilk dəfə danışanlardan biri Varaqa bin Nofəl İncilin ilk əl yazmalarına sahib xristian idi. (Buxari, Bədül-vəhy, 3)*

*-Xəlifələr dövründə dağıdılan kilsələr müsəlmanlar tərəfindən təmir edilir, yeni sinaqoq və monastırların inşa edilməsinə icazə verilirdi. Məsələn, Mədain xaricindəki və patriarx Mar Ammə tərəfindən daha öncə yandırılan Müqəddəs Sergey monastırı hz. Osman dövründə yenidən inşa edilmişdi.*

*-Suriyanın fəthindən sonra müsəlmanlar Şamdakı Müqəddəs Con kilsəsində namaz qılırdı, xristianlar da bazar günləri öz ibadətlərini sərbəst şəkildə yerinə yetirirdilər. İlk dinin mənsubları eyni məsciddə sülh şəraitində ibadət edirdilər.*

## Peyğəmbərimizin (səv) Tövrat və İncilə münasibəti

*Müslim belə nəql edir: "Əbu Hüreyrənin şahidliyi ilə hz. Peyğəmbərdən belə nəql olunur: Peyğəmbərimiz buyurmuşdur ki, kitab əhli Tövratı ibranicə oxuyur, müsəlmanlar üçün ərəbcəyə tərcümə edirdilər". (Mişkətül-Məsabih, I kitab, 6-cı hissə, səh. 42)*

*"Əl-Hafiz əl-Zəhəbi qeyd edir ki, yəhudilikdən İslama dönən Abdullah ibn Salam Peyğəmbərin yanına gəldi və ona: "(Dünən gecə) Quranı və Tövratı oxudum", – dedi. O da cavab verdi: "Bunu bir gecə, o birini də başqa gecə oxu". (Al-Thalabi, Al-İman; al-Thalabi, Tathkarar al-Huffadh, I cild, səh. 27)*

*"Hz. Muhəmmədin (səv) yaxın çevrəsindən Abdullah ibn Əmr müntəzəm Tövrat oxuyurdu. Bir gün gecə yuxusunda bir əlində bal, digərində yağ tutduğunu, bəzən o biri, bəzən də bu biri əlindən yediyini görür. Sonra o, yuxusunu Peyğəmbərə danışır. Peyğəmbərimiz Abdullahın yuxusunu iki kitabı, yəni bəzən Tövratı, bəzən də Quranı oxuması ilə açıqlayır". (Səhih Buxari, 6-cı cild, 987-ci hədis, səh. 439)*

*"Əbu Səid Hudridən: Peyğəmbərimizdən belə soruşduq:*

*"Ey Allahın Rəsulu, İsrail oğullarından bir şey nəql edə bilərikmi?" Belə buyurdu: "Bəli, edə bilərsiniz. Onlardan bir şey yazsanız, bilin ki, onlarda daha maraqlı məlumatlar vardır". (Hənbəl, Müsnəd, 111-12, hədis nömrə: 11034)*

## Peyğəmbərimiz hər zaman sülh tərəfdarı olmuşdur

Peyğəmbərimiz heç vaxt müharibə arzulamamış, İslam əxlaqını insanlara dinc yolla çatdırmağa çalışmışdır. Buna görə də hücum və təzyiqlərə illərlə səbir göstərmiş, lakin bunlara cavab vermək zəruri olduqda Allahdan gələn vəhylə savaşa izin vermişdir. O, təzyiq və hücumlar həyati təhlükəyə çevrilmədikcə heç bir ölkəyə müharibə elan etməmişdir.

Mutə döyüşü müsəlmanların Peyğəmbərimiz həyatda ikən ən qanlı və ən çətin döyüşü olmuşdur. Peyğəmbərimiz bu orduya Zeyd bin Harisəni başçı təyin etmiş və orduya aşağıdakı məsləhətləri vermişdir:

"Allahın adı ilə və Allah yolunda Onu inkar edənlərlə savaşın. Xəyanət etməyin. Qulaq və burun kimi bədən üzvlərini kəsməyin. Uşaq, qadın, yaşlı və məbəddəki din adamlarını öldürməyin. Xurma və başqa ağacları kəsməyin, evləri dağıtmayın". (Buxari)

Savaş əsnasında göstərilməli əxlaqi prinsiplər isə belə sadalanır:

*1. Yalnız müharibəni təşviq edən və müharibədə iştirak*

*edənlərlə müharibə edilir.*

*2. Kilsələrdəki rahiblərə qətiyyən toxunmaq olmaz.*

*3. Uşaqlara zərər vermək olmaz.*

*4. Qadınlara zərər vermək olmaz.*

*5. Yaşlılara zərər vermək olmaz.*

*6. Əkin yerlərinə zərər vermək olmaz.*

*7. Əhdə vəfa göstərmək və müqavilələrə sadiq qalmaq lazımdır.*

*8. Heyvanlara zərər vermək olmaz.*

*9. Zülmə yol vermək olmaz.*

*10. Şəhərləri dağıtmaq olmaz. (Ahmet Hamdi Akseki, Abdurrahman Azzam Paşa'nın "Allah'ın Peygamberlerine emanet ettiği ebedi risalet", Diyanet İşleri Başkanlığı Neşriyat, Ankara, 1948, ön söz)*

Əsri-səadət dövrünün sülh və hüzurla davam etməsinin ən əhəmiyyətli səbəblərindən biri Quran əxlaqını yaşayan Peyğəmbərimizin (səv) ədalətli olması idi. Əcnəbi yazıçılar da Peyğəmbərimizin (səv) bu üstün xüsusiyyətindən təsirlənib onun gözəl əxlaqını əsərlərində təsiredici ifadələrlə tərifləmişlər. Corc Bernard Şou (George Bernard Shaw) "Səmimi İslam" əsərində bu xüsusiyyətləri belə qeyd edir:

*"Hz. Muhəmmədin (səv) dinini möhtəşəm canlılığına görə daima üstün tutmuşam. Hər dövrə xitab edən, həyatın dəyişən mərhələləri ilə ayaqlaşan tək din kimi gəlir mənə. Onu –o misil-*

*siz insanı– araşdırdım və məncə, ...“İnsanlığın xilaskarı” adlandırılmalıdır. Əgər onun kimi bir şəxs modern dünyanın hökmranlığını öhdəsinə götürsəydi, çox ehtiyac duyulan sülh və xoşbəxtliyi gətirib dünyanın problemlərini həll etməkdə müvəffəqiyyətli olardı... (Sir George Bernard Shaw, The Genuine Islam, cilt.1, No.8, 1936)*

Dövrümüzdə dünyanın dörd tərəfində meydana gələn münaqişə və qarşıdurmaların tək həlli xurafatdan təmizlənib Quran əxlaqını mənimsəmək və Peyğəmbərimiz kimi din, dil və irq fərqi qoymadan ədalətdən ayrılmamaqdır.

## Peyğəmbərimiz kitab əhlinə müqavilə əsasında imtiyazlar vermişdir

Peyğəmbərimizin (səv) dövründə çoxlu müqavilələrlə musəvi və xristian cəmiyyətlərinə həyat və hüquqlarını zəmanətə alan müxtəlif imtiyazlar verilmişdir. Sina dağında yerləşən “Müqəddəs Yekaterina” monastırının rahiblərinə verilən haqlar buna nümunədir. Bu sənədlər müsəlman idarəçiliyi altında olan və ya İslamın hökmranlığını qəbul edən kitab əhlinə hüquqi, dini və sosial imtiyazlar verirdi. Problemlər bu sənədlər əsasında həll edilirdi. Məsələn, tarix kitablarında Şamdakı xristianların bir problemlə üzləşdikdə imtiyazlarının qeyd olunduğu bu müqavilə sənədlərini xəlifə Ömərə (rə) göstərdikləri və problemlərin bunun əsasında həll olunmasını istədikləri yazılır.

*Ey iman gətirənlər!*
*Hamınız bir yerdə sülhə*
*(islama) gəlin! Şeytanın yolu*
*ilə getməyin, çünki o, sizin*
*açıq düşməninizdir!*
*(Bəqərə surəsi, 208)*

# İSLAM YAXIN ŞƏRQƏ SÜLH VƏ HÜZUR GƏTİRMİŞDİR

Tarixi araşdırdığımız zaman Quranın rəhbərliyini qəbul edən müsəlman idarəçilərin hakim olduğu bölgələrdə sülh və sevginin hakim olduğunu görürük. Peyğəmbərimizin (səv) yaşadığı müddət boyu fəth etdiyi torpaqlarda gördüyü işlər bunun əhəmiyyətli nümunəsidir. Lakin Peyğəmbərimiz hz. Muhəmməddən sonra da Quran əxlaqını rəhbər tutan və elçilərin yolunu izləyən adil idarəçilər sülh və hüzur dolu mühit qurmağı bacarmışlar. Quranda təsvir edilən gerçək ədalət və dürüstlük bu idarəçilər dövründə də hökm sürmüş və onlar sonrakı nəsillərə nümunə olmuşlar.

Üç dinin bir arada yaşadığı Fələstin və Qüds torpaqları müsəlmanların hakim olduğu yerlərə necə hüzur gətirdiyi baxımından çox önəmlidir. Necə ki son 1400 ildə müsəlmanlar Fələstin və Qüdsə daim sülh gətirmişlər.

## Hz. Ömərin Fələstinə gətirdiyi sülh və ədalət

Miladi təqvimin 71-ci ilinə qədər Qüds musəvilərin paytaxt şəhəri idi. Ancaq həmin il Roma ordusu musəvilərə qarşı hücum təşkil edib onları bölgədən vəhşicəsinə sürgün etdilər. Musəvilərin diaspor dövrü başladığı vaxt Qüds və

çevrəsi tərk edilmiş torpaqlara çevrilirdi. Roma İmperiyasının Konstantin dövründə xristianlığı qəbul etməsindən sonra Qüds yenidən maraq dairəsinə çevrildi. Xristian romalılar Qüdsdə kilsələr inşa etdilər və musəvilərin orada yerləşməsinə razılıq verdilər. Fələstin 7-ci əsrə kimi Roma (Bizans) ərazisi olaraq qaldı. Farslar qısa müddət ərzində bölgəni əllərində saxladılar, lakin sonra Bizans yenidən Fələstinə hakim oldu.

Fələstin tarixinin ən böyük dönüş nöqtəsi isə 637-ci ildə bölgənin İslam orduları tərəfindən fəth edilməsi oldu. Bu fəth əsrlərlə müharibə və sürgünlərə səhnə olan, həmçinin fərqli inanclara sahib insanların gəlməsi ilə hər dəfə faciə yaşayan Fələstində sülh və hüzurun hakim olması demək idi. İslam hakimiyyəti Fələstində fərqli inancların bir arada yaşandığı çağın başlanğıcı oldu. Fələstin Peyğəmbərimizdən sonra ikinci xəlifə hz. Ömər tərəfindən fəth edilmişdir. Hz.

**Qüds qalası, D. Roberts, 1841-ci ildən sonra, L. Haqe tərəfindən rəngli litoqrafiya.**



Ömərin Qüdsə daxil olması, oradakı fərqli inanclara sahib insanlara mərhəmət və nəzakət göstərməsi gözəl dövrün başlanmasının xəbərçisi idi. İngilis tarixçisi və Yaxın Şərq üzrə tədqiqatçı Karen Armstronq “Müqəddəs müharibə” adlı kitabında hz. Ömərin Qüdsü fəth etməsindən belə bəhs edir:

*“Xəlifə Ömər Qüdsdə ağ dəvəyə mindi. Şəhərin yunan hakimi rahib Sofroni də onunla idi. Xəlifə özünün ilk öncə Məbəd dağına (dağılmış Süleyman məbədinin yerinə) aparılmasını xahiş etdi və ora çatdıqda dostu hz. Muhəmmədin (səv) gecə səfərinə (meraca) çıxdığı yerdə əyilib dua etdi. Rahib bu səhnəni çox təəccüblə izləyirdi. Son günlərin artıq yaxınlaşdığını zənn etmişdi. Daha sonra xəlifə Ömər xristian məbədlərini görmək istədi və Müqəddəs Məzara (Holy Sepulchre) çatanda namaz vaxtı girdi. Rahib onu hörmətlə bu kilsədə namaz qılmağa dəvət etdi. Lakin Ömər bu təklifi qəbul etmədi və dedi ki, əgər bu kilsədə namaz qılsa, sonra bəzi müsəlmanlar bu hadisəni əbədiləşdirmək üçün Müqəddəs Məzar kilsəsini uçurub yerində məscid tikə bilərlər. Buna görə də xəlifə kilsədən çıxıb bir az irəlidə namaz qıldı. Bu gün həmin yerdə – Müqəddəs Məzar kilsəsinin düz qarşısında Xəlifə Ömərin adına inşa edilən kiçik bir məscid mövcuddur. Xəlifə Ömərin adına başqa bir məscid isə Mədəd təpəsində tikildi. Xristianlar uçurulmuş Musəvi məbədinin yerləşdiyi bu yeri uzun illər idi ki, zibillik kimi istifadə edirdi. Xəlifə müsəlmanlara bu zibillərin təmizlənməsində öz əlləri ilə kömək etdi və burada müsəlmanlar iki məbəd inşa etməklə İslamı dünyadakı müqəddəs şəhərə yerləşdirmiş oldular”.*[21]

*Müsəlmanların Qüdsü fəth etməsi ilə şəhər üç dinin sülh içində yaşadığı güvənli bölgə oldu. Con L. Esposito bu mövzu ilə əlaqədar bunları yazır:*

*"Ərəb orduları 638-ci ildə Qüdsü işğal etməklə xristian aləminin məbəd baxımından önəmli həcc ziyarəti mərkəzini ələ keçirdilər. Kilsələri və xristianları heç narahat etmədilər. Xristian idarəçilərin uzun müddət izin vermədiyi musəvilərə Süleyman və Davudun şəhərinə geri dönmələrinə və ibadət etmələrinə şərait yaratdılar".*[22]

Hz. Ömər Qüdsə gəldikdə müsəlman ədalətinin göstəricisi olaraq Qüds patriarxı ilə aşağıdakı müqaviləni imzaladı:

*"Bu, Allahın qulu və möminlərin əmiri Ömər tərəfindən İlya (Qüds) xalqına verilən amannamədir. Əmirəl-möminin xəstə və ya sağlam olsun, bütün xalqın mal və canlarının qorunacağına zəmanət verir. Eyni zamanda, ibadət*



*yerlərinə, xaç və dinlərinə toxunulmazlığı təmin edir. Xalqa məxsus kilsələr dağıdılmayacaq və şəxsi evlərə də çevrilməyəcək. Əvvəlki haqları eynilə mühafizə ediləcək. Nə sahib olduğu şeylərə zərər veriləcək, nə də məzhəblərinə görə onlara təzyiq göstəriləcək. Onlardan heç kim əsla zərər görməyəcək. Allah, Peyğəmbər, səhabələr və möminlər bu müqaviləyə şahidlik edirlər. İmza: Ömər bin Xəttab".*[23]

Qısası, İslam dini müsəlmanlarla yanaşı, Qüds və bütün Fələstində mədəniyyətin inkişafına təkan verdi. Bir-birinin müqəddəs dəyərlərinə hörmət etməyən və bir-birini ancaq fərqli inanclarından dolayı öldürən vəhşi və barbar inancların yerinə İslamın adil və tolerant mədəniyyəti hakim oldu. Hz. Ömərin fəthindən sonra Fələstində müsəlman, xristian və musəvilər əsrlər boyu sülh və hüzur içində yaşadılar. Müsəlmanlar heç kimi məcburən islamlaşdırmağa



çalışmadılar. Lakin İslamın haqq din olduğunu görən bəzi qeyri-müsəlmanlar öz istəkləri ilə İslamı seçdilər. Fələstindəki sülh və hüzur müsəlmanların hakimiyyəti boyu davam etdi. Lakin 11-ci əsrin sonlarında bölgəyə xarici işğalçı qüvvələr girdi və Qüdsün mədəni torpaqlarını görünməmiş vəhşiliklə yağmaladı: səlib ordusu...

## Səlibçilərin Fələstindəki vəhşilikləri

Fələstində hər üç dinin mənsubları sülh və hüzur içində həyatlarına davam edərkən Avropadakı xristianlar ora xaç yürüşü təşkil etməyə qərar verdilər.



**Qüdsdə müsəlman və yəhudilər səlibçilər tərəfindən vəhşicəsinə qətlə yetirildilər.**

Papa II Urban 26 noyabr 1095-ci ildə Klermonda toplantı qurdu. Bundan sonra başlayan xaç yürüşləri ilə “Müqəddəs torpaqları müsəlmanlardan xilas etmək” adı altında yüz mindən çox adam Avropanın dörd tərəfindən Fələstinə doğru yola çıxdı. Əslində, məqsəd Şərqin əfsanəvi zənginliyini ələ keçirmək idi. Bu uzun və yorucu səfərdə müsəlmanları yağmalayıb qətllər törətdilər və 1099-cu ildə Qüdsə çatdılar. Təxminən 5 həftə sürən uzun mühasirədən sonra şəhər gücünü itirdi və səlibçilər şəhərə girdi. Dünya tarixində bənzəri az görünən vəhşiliklər törətdilər. Daha əvvəl də vurğuladığımız kimi, şəhərdəki bütün müsəlman və musəviləri qılıncdan keçirib qətlə yetirdilər.

Fələstinin hz. Ömərdən bu yana davam edən sülh və hüzuru səlibçi vəhşiliyi ilə sona çatdı. Səlibçilər sevgi və mərhəmət dini olan xristianlığın bütün əxlaqi dəyərlərini çeynəyib terror törətdilər.

## Səlahəddin Əyyubinin ədaləti

Barbar səlibçilər Qüdsü özlərinin paytaxt şəhərinə çevirdilər və sərhədləri Fələstindən Antakyaya qədər uzanan Latın krallığı qurdular. Lakin bu krallığın ömrü uzun sürmədi. Yaxın Şərqdəki bütün müsəlman əmirlikləri birləşdirən Səlahəddin Əyyubi 1187-ci ildə Hattin döyüşündə səlibçi ordusunu darmadağın etdi. Savaşdan sonra səlibçi ordusunun iki komandiri – Reynald de Şatiyon və kral IV Balduin Səlahəddin Əyyubinin hüzuruna çıxarıldı. Səlahəddin Əyyubi müsəlmanlara qarşı qorxunc vəhşilikləri ilə məşhurlaşan Reynald de Şatiyonu edam etdi, lakin eyni cinayətləri törətməyən kral IV Balduini azad etdi. Bununla Fələstin torpaqları ədalətin nə olduğunu bir daha gördü.

Səlahəddin Əyyubi Hattin savaşından dərhal sonra (merac günü) Qüdsə girib 88 il səlibçilərin işğalı altında olan şəhəri qurtardı. Səlibçilər Qüdsü işğal edəndə bütün müsəlmanları qətl etmişdilər və buna görə də Səlahəddin

Əyyubinin eyni şeyi onlara edəcəyini qorxu ilə gözləyirdilər. Halbuki Əyyubi şəhərdəki xristianların heç birinə toxunmadı. Bundan başqa, yalnız Latın (katolik) xristianların şəhəri tərk etmələrini əmr etdi; səlibçi kimliyinə sahib olmayan pravoslavlar isə şəhərdə yaşayıb istədikləri kimi ibadət etməyə davam etdilər.

İngilis tarixçisi Karen Armstronq müsəlmanların bu ikinci Qüds fəthindən bunları yazır:

> *"2 oktyabr 1187-ci ildə Səlahəddin və ordusu Qüdsə fatehlər kimi girdi. Gələcək 800 il boyu şəhər müsəlman bölgəsi olacaqdı... Səlahəddin (qətliam törətməmək barədə) öncədən xristianlara verdiyi sözün üstündə*



*durdu və şəhəri İslam prinsipləri əsasında aldı. Quranda əmr edildiyi kimi, şiddətdən uzaq durdu və 1099-cu ildəki qətliamın qisasını almadı. Tək bir xristian öldürülmədi və heç bir qarətçilik edilmədi. Əsirləri buraxmaq üçün istənilən fidyələr isə cüzi idi.*

*Quranda əmr edildiyi kimi, əsirlərin çoxunu isə fidyə alınmadan azad etdi... Səlahəddinin qardaşı Əl-Adil minə qədər əsirin özünün xidmətinə verilməsini istədi və sonra hamısını (acınacaqlı durumda olduqlarını gördüyü üçün) azad etdi... Şəhərdəki zəngin xristianlar dəyərli əşyalarını yükləyib şəhərdən getdilər. Halbuki əllərindəki pullar şəhərdəki bütün*




**Səlahəddin Əyyubi 1187-ci ildə Qüdsə girərək 88 il səlibçi işğalı altında olan şəhəri xilas etdi. Əyyubi şəhərə girərkən xristianların heç birinə toxunmayaraq onlara qarşı bağışlayıcı və ədalətli mövqe göstərdi. Yalnız latınların tərəfini tutan katolik xristianların şəhəri tərk etmələrini əmr etdi və səlibçi mənsubiyyətinə sahib olmayan pravoslavlar şəhərdə yaşamağa və istədikləri kimi ibadət etməyə davam etdilər.**

*əsirlərin fidyəsini artıqlaması ilə ödəməyə bəs edirdi. Rahib İrakli hər kəs kimi 10 dinarlıq fidyəsini ödədi və sonra şəhəri xəzinələrlə dolu arabalarla tərk etdi".*[24]

Qısası, Səlahəddin Əyyubi və tabeliyindəki müsəlmanlar xristianlara qarşı son dərəcə ədalətli və mərhəmətli davranmış, hətta onlara öz başçılarından çox mərhəmət göstərmişdilər. Təkcə xristianlar deyil, musəvilər də müsəlmanların Qüdsü fəth etməsi ilə hüzur və güvənliyə qovuşmuşdular. Qüdsün fəthindən sonra şəhəri ziyarət edən məşhur ispan musəvi şairi Yuda Əl-Xarizi bir əsərində duyğularını belə qələmə alır:

*"Tanrı müqəddəs məkanın Esavın (İshaqın) oğullarının əlində qalmamasına qərar verdi və İsmayıl oğullarının şahzadəsi, təmkinli və cəsur Səlahəddinin ruhunu xəbərdar etdi. O da ordusu ilə Yerusəlimi (Qüdsü) zəbt etdi və bütün Əfraim oğullarını qəbul edəcəyini bildirdi. İndi sülhün hüzurunda yaşayırıq..."*[25]

**1187-ci ildəki Hittin müharibəsindən sonra Səlahəddin Əyyubi və (Gi de Luzinyan)**





Kral Riçard Aqra qalasında aralarında qadın və uşaqların da olduğu 3000 müsəlmanı qətlə yetirdi.

Qüdsdən sonra Fələstinin digər şəhərlərində də səlibçilərin vəhşiliyi və müsəlmanların ədaləti davam etdi. İngilis tarixində böyük qəhrəman kimi tanınan Şirürəkli Riçard (Richard the Lionheart) 1191-ci ildə Aqra qalasında aralarında çoxlu qadın və uşağın olduğu 3000 müsəlmanın boyunlarını vurub alçaqcasına qətl etmişdi. Müsəlmanlar bu vəhşiliyə şahid olsalar da, heç bir zaman eyni üsula əl atmadılar. Allahın "**Ey iman gətirənlər, bir camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin" (Maidə surəsi, 2)** hökmü gərəyi heç bir zaman məsum camaata qarşı şiddət tətbiq etmədilər. Məğlub etdikləri səlibçi ordularına qarşı belə gərəksiz şiddət göstərmədilər.

Səlibçilərin vəhşiliyi və sonra gələn müsəlman ədaləti tarixi həqiqəti bir daha göstərirdi: İslam prinsipləri əsasında qurulan hakimiyyət fərqli inancların bir arada və sülh içində yaşamasına imkan verirdi. Bu həqiqət Səlahəddin Əyyubidən sonra 7 əsr boyu, xüsusilə Osmanlı dövründə də sübut edildi.

*Allah qullarına*
*şəfqətlidir.*
*(Ali-İmran surəsi, 30)*

# TERRORİZMİN ƏSAS QAYNAĞI: DARVİNİZM VƏ MATERİALİZM

Kitabın birinci hissəsində terrorun iki əhəmiyyətli qaynağının olduğunu açıqladıq. Bunlardan birinin ilahi dinləri yanlış şərh edən və sonradan uydurulmuş xurafatlara inanan radikal terrorizm olduğunu dəlillər və müxtəlif nümunələrlə ortaya qoyduq. Xüsusilə son zamanlarda ortaya çıxan və İslam adından çıxış etdiyini iddia edən terror təşkilatlarının əməllərinin İslama zidd olduğunu Quran ayələri işığında açıqladıq. Terrorun başqa mənbəyi isə materialist və darvinist dünyagörüşüdür.

Bir çox insan təkamül nəzəriyyəsini ilk dəfə Çarlz Darvinin ortaya atdığını, elmi dəlil və təcrübələrə əsaslanan nəzəriyyə zənn edir. Halbuki təkamül nəzəriyyəsini ilk irəli sürən Darvin olmadığı kimi, nəzəriyyənin qaynağı da elmi dəlillər deyil. Nəzəriyyə qədim doqmatik materialist fəlsəfənin təbiətə uyğunlaşdırmasından ibarətdir. Hazırda da nəzəriyyənin elmi dəstəyi olmadığına baxmayaraq, sırf materialist fəlsəfə uğrunda fanatikcəsinə müdafiə olunur. Bu düşüncə dünyaya böyük bəlalar gətirmişdir, çünki darvinizmin və ondan güc alan materialist fəlsəfənin yayılması ilə "insan nədir" sualına verilən cavab

dəyişmişdir. Daha əvvəllər bu suala: "İnsan Allahın yaratdığı və Onun öyrətdiyi əxlaqa görə yaşamalı varlıqdır", – deyə doğru cavab verən insanlar sonra yanlış olaraq "insan təsadüflərlə var olmuş, həyat mübarizəsi ilə inkişaf etmiş heyvandır" kimi düşünməyə başladılar. Bu böyük yanlışlığın nəticəsi isə çox böyükdür. İrqçilik, faşizm, kommunizm kimi dəhşətli ideologiyalar bundan güc almışdır. Kitabın bu hissəsində darvinizmin insanlığa gətirdiyi bu bəladan söz ediləcək və bunun dövrümüzün ən əhəmiyyətli problemlərindən biri olan terrorizmlə əlaqəsi açıqlanacaq.

## Darvinizm yalanı: "həyat mübarizə yeridir"

**Darvin nəzəriyyəsini yazarkən yanlış təməldən yola çıxmışdı: canlıların inkişafı təbiətdəki həyat mübarizəsinə bağlıdır. Bu mübarizəni güclü olanlar qazanır. Zəiflər isə əzilərək yox olmağa məhkumdurlar.**

Darvinin elmi əsası olmayan fikirlərinə görə təbiətdə amansız həyat mübarizəsi və daimi qarşıdurma var. Güclülər həmişə zəifləri əzirlər və inkişaf da bunun sayəsində mümkün olur. "Növlərin mənşəyi" kitabına qoyduğu yarımbaşlıq da onun bu batil və elmə zidd görüşünü özündə cəmləşdirir - "Növlərin mənşəyi: təbii seçmə və yaşamaq uğrunda mübarizədə üstün irqlərin qorunması yolu ilə".

Bundan başqa, Darvin həyat mübarizəsinin insan irqləri arasında da mühüm yer tutduğunu önə sürmüşdü. Bu əsassız iddiaya görə, üstün irqlər mübarizədə qalib gəlir. Darvinə görə, üstün irqlər avropalı ağ millətlər idi. Asiyalı və ya afrikalı irqlər isə həyat mübarizəsində geri qalıblar. Darvin daha da irəli gedib bildirmişdi ki, bu irqlər yaxın zamanlarda dünyadakı mübarizə nəticəsində məhv olacaq:

*"Bəlkə də, yüz il sürməyəcək, yaxın zamanlarda mədəni insan irqləri vəhşi irqləri tamamilə yer üzündən siləcək və onların yerinə keçəcəklər. Digər tərəfdən, insanabənzər meymunlar da, şübhəsiz, ortadan qalxacaq. Bu minvalla, insanla ən yaxın qohumları arasındakı boşluq daha da genişlənəcək. Bunun sayəsində ortada indiki avropalılardan daha mədəni irqlər və indiki zəncilərdən, Avstraliya yerlilərindən və qorillalardan belə daha geridə olan əntər meymunları qalacaq".*[26]

Hind antropoloq Lalita Vidyarti, Darvinin təkamül nəzəriyyəsinin irqçiliyi sosial elmlərə necə qəbul etdirdiyini belə açıqlayır:

*"Darvinin ortaya atdığı "ən güclülərin həyatda qalması" düşüncəsi insanın mədəni təkamül dövrü keçdiyinə və ən üst pillənin ağdərili insanların mədəniyyəti olduğuna inanan sosioloqlar tərəfindən sevinclə qarşılandı. Bunun nəticəsində XIX əsrin ikinci yarısında qərbdə elm adamlarının əksəriyyəti irqçiliyi mənimsədilər".*[27]



## Darvinin ilham qaynağı: Maltusun amansız nəzəriyyəsi

Darvinin qaranlıq və təhlükəli fikirlərinin ilham qaynağı ingilis iqtisadçısı Tomas Maltusun "Əhali qanunu haqqında təcrübə" (An essay on the principle of population) adlı kitabı idi. Maltus insanların özbaşına buraxıldıqda çox sürətlə çoxaldığını hesablamışdı. Ona görə, demoqrafik artımı nəzarətdə saxlayan başlıca amillər müharibə, qıtlıq və xəstəlik kimi fəlakətlərdir. Qısası, bu iddiaya görə, bəzi insanların yaşaması üçün digərləri ölməlidir və həyatın mövcud olması üçün davamlı müharibə olmalıdır.

19-cu əsrdə Maltusun batil fikirləri olduqca geniş kütlə tərəfindən mənimsənilmişdi. Xüsusilə Avropada üst təbəqənin ziyalıları Maltusun zalım fikirlərini dəstəkləyirdi. "Nasistlərin elminin arxa planı" adlı məqalədə XIX əsr Avropasının Maltusun əhali artımı ilə bağlı baxışlarına verdiyi qiymət belə açıqlanır:

> *"XIX əsrin ilk yarısında Avropada hakim sinfin üzvləri əhali artımı problemini müzakirə etmək və kasıb təbəqənin ölüm faizini artırmaq məqsədilə Maltusun fikirlərini həyata keçirməyə başladılar. Bu istiqamətdə hansı vasitələrdən istifadə edəcəkləri planını fikirləşmək üçün müşavirə keçirdilər. Gəldikləri nəticənin məzmunu qısa şəkildə belə idi: "Kasıblara təmizliyi tövsiyə etmək əvəzinə, onları bunun tam əksini etməyə təşviq etmək lazımdır. Şəhərlərimizdəki küçələri daha dar düzəltməli, həddindən artıq insanı evlərə doldurmalı və vəba xəstəliyini yaymağa çalışmalıyıq. Ölkəmizdə kəndləri durğun sulara yaxın salmalıyıq, bataqlıqlarda yaşamağı təşviq etməliyik və sairə".*[28]

Maltusa görə, belə zalım planların nəticəsində güclü olanlar zəif olanları əzəcək və sürətlə artan əhali bu şəkildə tarazlanacaq. "Kasıbları əzmək" proqramı İngiltərədə XIX əsrdə, həqiqətən də, həyata keçirilirdi. 8-9 yaşlarındakı uşaqların gündə 16 saat kömür şaxtalarında işlədilməsi və minlərlə uşa-

ğın çətin şərtlər daxilində can verməsi üzərinə yaradılan sənaye və iqtisadiyyat bu planların tətbiqi idi. Maltusun yaşayış mübarizəsi nəzəriyyəsi İngiltərədə XIX əsrdə azyaşlı uşaqlara və kasıb xalqa əzab dolu həyat yaşatdı.

Darvin isə Maltusun bu fikirlərini bütün təbiətə tətbiq etdi və yaşamaq uğrundakı mübarizədə güclü olanların və şəraitə ən yaxşı uyğunlaşanların qalib gələcəyi fikrini irəli sürdü. O, yaşayış uğrunda mübarizənin təbiətin ən düzgün və dəyişilməz qanunu olduğunu iddia edirdi. Darvin bir yandan da insanın yaradılışını inkar edərək onları dini inanclarını tərk etməyə dəvət edirdi. Darvinə görə, bununla da həyat uğrunda mübarizə nəzəriyyəsinin amansızlığına və qəddarlığına mane olan bütün əxlaqi dəyərlər ortadan qalxır. İnsanları qəddarlığa və amansızlığa çağıran saxta fikirlərin yayılması bəşəriyyətin XX əsrin bir çox bəlalara səhnə olmasına gətirib çıxardı.





**Maltus müharibə, qıtlıq, xəstəlik və uşaq qətlləri kimi əməllərlə əhalinin sürətlə artımının nəzarətə götürüləcəyini və bunun sayəsində qida mənbələri ilə əhali arasında mütənasiblik olacağını iddia edir. Bunun həm ağılsız və məntiqsiz, həm də son dərəcə azğın bir düşüncə olduğunu vicdanlı olan hər kəs qəbul edir.**

## Birinci dünya müharibəsinin hazırlanmasında darvinizmin rolu

Darvinizm Avropa mədəniyyətinə hakim olmaqla onun həyat uğrunda mübarizə tezisi təsirini göstərməyə başladı. İlk növbədə, istismarçı Avropa dövlətləri istismar etdikləri ölkələri təkamül prosesində geri qalmış irqlər kimi təsnifləşdirdilər və öz əməllərinin düzgün olduğunu göstərmək üçün darvinizmə əsaslandılar.

Darvinizmin ən qanlı siyasi nəticəsi isə 1914-cü ildə başlayan Birinci dünya müharibəsi idi. Məşhur ingilis tarixçisi, professor Ceyms Coll "Avropa 1870-ci ildən sonra" (Eurore since 1870) adlı fundamental əsərində Birinci Dünya Müharibəsini hazırlayan amillərdən birinin o zamankı avropalı

idarəçilərin darvinist düşüncəyə bağlı olduğunu göstərirdi. Məsələn, Avstriya-Macarıstanın ali baş komandanı, general Frants Baron Konrad fon Hötzendorf müharibədən sonrakı xatirələrində belə yazırdı:

*"İnsana sevgini ön plana çıxaran dinlər, əxlaqi təlimlər və (bunun kimi) fəlsəfi doktrinalar bəzən, həqiqətən də, insan övladının həyat mübarizəsini zəiflədə bilirlər. Amma heç bir zaman bu mübarizəni dünyanın hərəkətverici qüvvəsi olmaqdan çıxara bilməyəcəklər... Dünya müharibəsinin böyük fəlakəti bu böyük prinsipə uyğun olaraq həqiqətə çevrilmişdir. İnsanların və dövlətlərin başlıca qüvvələri sayəsində meydana çıxan bu müharibə eynilə boşalması lazım olan bir ildırım gücü kimi təbii qanundur".*[29]

Belə ideologiyaya sahib olan Konradın nəyə görə Avstriya və Macarıstanı müharibəni başlatmağa sürüklədiyini anlamaq çətin deyil. Bunun kimi fikirlər zamanın sadəcə hərbiçiləri ilə məhdudlaşmır. Alman komandanı Teobald fon Betman-Holviqin şəxsi müşaviri və yaxın dostu Kurt Rizler 1914-cü ildə belə yazırdı:

*"Mütləq və əzəli düşmənlik insanlar arasındakı münasibətlərin təbiətində vardır. Hər yerdə gördüyümüz daimi nifrət... insan təbiətinin pozulmasından qaynaqlanmır, əksinə, bu, təbiət və həyat mənbəyinin özəyində vardır".*[30]

Birinci Dünya Müharibəsinin generalı Fridrix fon Bernardi isə müharibə ilə təbiətdəki müharibə qanunları arasındakı oxşarlığı belə ifadə




**İngilis tarixçisi, professor Ceyms Collun "Avropa 1870-ci ildən sonra" adlı kitabı**

edir:

*"Müharibə bioloji tələbat və zərurətdir, təbiətdəki ünsürlərin qarşı-qarşıya gəlməsi və mübarizəsi qədər vacibdir, bioloji cəhətdən köklü nəticələr verir, çünki bu nəticələr canlıların təməl xüsusiyyətləri ilə sıx bağlıdır".*[31]

Göründüyü kimi, Birinci dünya müharibəsi qan tökməyi, əzab çəkdirməyi inkişaf kimi görən və bunları dəyişilməz təbii qanun sayan avropalı alim, general və idarəçilər sayəsində meydana çıxmışdı. Bəşəriyyətin tənəzzülü, süqutu və bəlalarının səbəbi Darvinin "həyat uğrunda mübarizə" anlayışının nəticəsi idi.

Birinci dünya müharibəsi 8 milyon nəfərin ölümünə, yüzlərlə şəhərin



xarabalığa çevrilməsinə və milyonlarla insanın yaralı, əlil, evsiz-eşiksiz və işsiz qalmasına səbəb oldu. Bundan 21 il sonra başlayan və 55 milyon insanın ölümünə səbəb olan nasizm müharibəsi də darvinizmə əsaslanırdı.

## Darvinizmin açdığı mənhus yol: faşizm

Darvinizm XIX əsrdə irqçiliyi qidalandırıb bəsləyərkən XX əsrdə doğulub inkişaf edəcək və bütün dünyanı qana bulayacaq bir ideologiyanın - nasizmin də təməlini qoyurdu.

Nasizmin ideoloqları daha çox darvinizmdən təsirlənmiş və bəhrələnmişdilər. Adolf Hitler və Alfred Rozenberq tərəfindən əsası qoyulan bu nəzəriyyə araşdırılanda burada Darvinin



**Darvinizm "insan təkmil heyvandır", "bəzi irqlər təkamül prosesində geridə qalmışdır", "təbiətdə amansız mübarizə var, bu mübarizədə güclü olan qazanır, zəif olan sıradan çıxır" kimi iddialarla 20-ci əsrdə faşizm də daxil, bir çox zərərli ideologiyaya dəstək vermişdir.**

**Faşist ideologiyasının bais olduğu İkinci dünya müharibəsi bəşər tarixinin ən böyük fəlakəti oldu və özündən sonra 55 milyon ölü buraxdı.**









**Nasistlərin zalım və amansız xarakterinin kökündə dayanan əsas səbəb dinə qarşı olan və darvinist ideologiyalardır.**









"Növlərin mənşəyi" kitabında dəfələrlə təkrarlanan "təbii seleksiya", "seçici cütləşmə", "irqlərarası həyat mübarizəsi" kimi anlayışlara rast gəlmək olur. Hitler özünün məşhur kitabına "Mənim mübarizəm" adını qoymuşdur, bu adı darvinizmin "həyat mübarizədir" və "bu mübarizədə üstün gələnlər həyatda qalır" prinsiplərindən bəhrələnərək qoymuşdu. Hitler həmin kitabda xüsusilə irqlərin mübarizəsindən söz açır və belə deyirdi:

*"Tarix təbiətin öz-özünə yaradacağı yeni irqi iyerarxiya nəticəsində tayı-bərabəri olmayan imperiya meydana gətirəcəkdir".*[32]

*Hitler 1933-cü ildə keçirilən məşhur Nürnberq mitinqində isə yüksək irqin zəif irqləri idarə etdiyini, bunun təbiətdə də müşahidə edilən yeganə məntiqli haqq olduğunu bildirmişdi.*[33]

Nasistlərin Darvindən təsirlənməsi bu məsələ üzrə tədqiqatçı olan məşhur tarixçilərin, demək olar ki, hamısı tərəfindən qəbul edilən fikirdir. "Faşizmin yüksəlişi" (The rise of fascism) adlı kitabın müəllifi Peter Krisp bu həqiqəti belə ifadə edir:

*"Çarlz Darvinin insanların meymundan əmələ gəlməsi nəzəriyyəsi ilk dəfə çap olunandan bir qədər sonra geniş dairədə yayıldı və qəbul edildi. Nasistlər Darvinin nəzəriyyəsindən müharibənin və irqçiliyin haqlı olduğunu göstərmək üçün istifadə etdilər".*[34]

Tarixçi-alim Hikman isə Hitlerin darvinizmdən təsirləndiyini belə açıqlayır:

*"Hitler qatı təkamülçü idi. Onda psixoz nə qədər güclü olsa da, onun "Mənim mübarizəm" kitabı ardıcıl təkamül düşüncəsini nümayiş etdirir, xüsusilə də ən güclülərin yaşamaq mübarizəsi və daha yaxşı cəmiyyət naminə zəiflərin məhv edilməsi fikirlərinə yer verir".*[35]




Bu düşüncələrlə meydana çıxan Hitler dünyanı tayı-bərabəri olmayan dəhşətə və görünməmiş vəhşiliyə məruz qoydu. Başda yəhudilər olmaqla, bir çox etnik və siyasi qruplar nasist ölüm düşərgələrində dəhşətli zülmə və qətliama məruz qaldılar. Nasistlərin işğalları ilə başlayan İkinci dünya müharibəsi isə 55 milyon insanın ölümünə səbəb oldu. Dünya tarixinin gördüyü bu ən böyük fəlakətin arxasında darvinizmin "həyat uğrunda mübarizəsi" düşüncəsi dayanırdı.



**Nasistlərin zalım və amansız xarakterinin kökündə dayanan əsas səbəb dinə qarşı olan və darvinist ideologiyalardır.**







**Darvinizmin mübarizə anlayışını sinfi mübarizəyə tətbiq edən kommunistlər ideologiyalarını qəbul etdirmək üçün qətliam törətməyi və qan tökməyi ilkin vasitə olaraq qəbul etdilər.**

## Qanlı ittifaq: darvinizm və kommunizm

Sosial darvinizmin sağ qanadında faşistlər yer aldığı kimi, sol qanadında da kommunistlər dayanırdılar. Darvinin nəzəriyyəsinin ən qatı və alovlu tərəfdarları arasında kommunistlər hər zaman vacib yer tutmuşdur.

Darvinizmlə kommunizm arasındakı bu əlaqə hər iki "izm"in qurucularına qədər gedib çıxır. Kommunizmin qurucuları olan Marks və Engels Darvinin "Növlərin mənşəyi" adlı kitabını çap edilər-edilməz oxumuş və kitabdakı "dialektik materialist" yanaşmaya heyran olmuşdular. Marksla Engelsin arasındakı məktublaşmalar göstərir ki, onların hər ikisi Darvinin nəzəriyyəsini təbiət elmləri baxımından kommunizmin təməli sayır. Beləliklə, Engels, Darvinin təsiri ilə qələmə aldığı "Təbiətin dialektikası" adlı kitabında Darvini tərifləmiş və bu kitabın "Meymunun insana çevrilməsində əməyin rolu" adlı bölməsində təkamül nəzəriyyəsinə özünəməxsus əlavələr etməyə çalışmışdı.

Marks və Engelsin yolunu davam etdirən Plexanov, Lenin, Trotski və Stalin kimi rus kommunistlərinin hamısı Darvinin təkamül nəzəriyyəsini mənimsəmişdilər. Rus kommunizminin banisi sayılan Plexanov **"marksizm darvinizmin sosial elmlərə tətbiq edilməsidir"**[36] fikri ilə məşhurdur.

Trotskinin isə **"darvinizm dialektik materializmin ən böyük zəfəridir"** kimi açıqlaması var.[37]

Kommunist kadrların hazırlanmasında Darvin təliminin böyük rolu olub. Məsələn, **Stalin gəncliyində dindar olduğu halda, onun məhz Darvinin kitablarının təsiri nəticəsində ateist olması** tarixçilər tərəfindən bildirilən həqiqətdir.

Çində kommunist rejimi quran və milyonlarla insanı qətlə yetirən Mao Tszedun isə qurduğu bu qaydanın fəlsəfi əsaslarını: **"Çin sosializminin təməli Darvinə və təkamül nəzəriyyəsinə istinad edir"**, – deyə açıqca bəyan etmişdir.[38]

Darvinizmin Mao Tszeduna və Çin kommunizminə təsiri Harvard Universitetindən tarixçi Ceyms Riiv Pasinin "Çin və Çarlz Darvin" (China and Charles Darvin) adlı kitabında detalları ilə təsvir və şərh olunub.

Qısacası, təkamül nəzəriyyəsi ilə kommunizm arasında qırılmaz bağlılıq var. Təkamül nəzəriyyəsi canlıların təsadüfün nəticəsi olduğunu iddia etməklə guya ateizmə elmi dəlillər gətirmişdir. Tamamilə ateist ideologiya olan kommunizm də darvinizmdən qaynaqlanır. Təkamül nəzəriyyəsi təbiətdəki inkişafın qarşıdurma, yəni həyat uğrunda mübarizə sayəsində mümkün olduğunu irəli sürməklə kommunizmin əsasında duran "dialektik qarşıdurma" fikrini dəstəkləyir.

Kommunizmin "dialektik qarşıdurma" ideyası XX əsr ərzində təqribən 20 milyon insanın qətlinə səbəb olmuşdur. Bu fikrin "cinayət maşını" olması nəzərə alınsa, darvinizmin dünyaya gətirdiyi fəlakətin miqyasını daha yaxşı təsəvvür etmək və başa düşmək olar.

## Dialektik qarşıdurma cəmiyyəti inkişaf etdirmir, onu məhv edir

Bir qədər əvvəl də bildirdiyimiz kimi, darvinizm canlılar arasındakı qarşıdurmanın həmin canlıları inkişaf etdirdiyi fikrini irəli sürərək "dialektik materializm" fəlsəfəsinə guya elmi əsas vermişdi.

Dialektik materializm adından da məlum olduğu kimi, qarşıdurma anlayışına əsaslanır. Bu fəlsəfənin qurucusu Marks: "Əgər dava-dalaş olmasaydı, mövcud olan hər şey necə idisə, elə də qalardı", – deyirdi. O, başqa bir sözündə isə: "Qarşıdurma yeni bir cəmiyyətə hamilə olan hər köhnə cəmiyyətin nəticəsidir", - deyərək[39] inkişaf etmək üçün insanları gərginliyə, qarşıdurmaya, zorakılığa, müharibəyə və qan tökməyə çağırmışdı.

Marksın nəzəriyyəsinin ilk siyasi icraçısı olan Lenin də: "İnkişaf zidd olanların mübarizəsidir", – deyərək[40] bir-birinə əks fikirli insanların daimi mübarizə içində olması modelini müdafiə etmişdir. Lenin bu mübarizənin ancaq qan tökməklə, yəni terrorla həyata keçiriləcəyini tez-tez qeyd edirdi. Leninin bolşevik çevrilişindən hələ 11 il əvvəl, yəni 1906-cı ildə "Proletar" jurnalına verdiyi bir açıqlamada dərc olunan sözləri onun mənimsədiyi terrorist metodunu ortaya qoyur:

*"Bizim marağımızı çəkən hadisə silahlı mübarizədir, bu mübarizə ayrı-ayrı fərdlər və kiçik qruplar tərəfindən həyata keçirilməkdədir. Bir hissəsi inqilabçı təşkilatlara aid ikən, o biri hissəsi hər hansı bir inqilabçı quruluşa bağlı deyildir. Silahlı mübarizə bir-birindən mütləq şəkildə ayrılması lazım olan iki fərqli məqsəd daşıyır: əvvəlcə, bu mübarizə ayrı-ayrı şəxslərə, liderlərə və ordu və polisdəki vəzifəli şəxslərə sui-qəsd etməyi məqsəd kimi seçir, ikincisi, həm hökumətə, həm də xüsusi fərdlərə aid olan pul mənbələrini mənimsəyir. Mənimsənilən pullar qismən partiyanın kassasına, qismən xüsusi silahlanma məqsədlərinə və hərbi hazırlığa, qismən də düşmənlə mübarizəyə qatılan insanların yaşamasına xərclənir".*[41]

XX əsrdə kommunizmə qarşı çıxan ən tanınmış ideologiyalardan biri faşizmdir. Maraqlıdır ki, kommunizmə qarşı olduğunu irəli sürən faşizm qarşıdurma anlayışına ən azı kommunizm qədər inanırdı. Kommunistlər sinfi qarşıdurmanın vacibliyinə inandığı halda, faşistlər bu qarşıdurmanın sadəcə fəaliyyət meydanını dəyişdirmiş və "irqlər və dövlətlərarası qarşıdurma" anlayışını müdafiə etmişlər. Məsələn, nasizmin ən mühüm fikir qaynaqlarından və öndə gedən irqçilərdən olan alman tarixçisi Henrix fon Treyçke: "Dövlətlər ancaq Darvinin həyat uğrunda mübarizəsinə bənzər gərgin və şiddətli rəqabətlə inkişaf edə bilərlər..." – deyə yazmışdır.[42]







Hər cür fikir ayrılığı və ziddiyyətlər Quranda bildirildiyi kimi, ağıl və vicdan sahibi olan insanlar tərəfindən sülh, əmin-amanlıq və dözümlülük şəraitində həll edilir. Bunu qavramayan və dialektik materializmin yalanlarına inanan millətlərin nəsilləri bir-biri ilə illər boyu vuruşmuş, vəhşi heyvanlar kimi boğuşmuş, nəticədə bir millət kimi gücdən düşmüşlər.

Hitler isə darvinizmin qarşıdurma anlayışından ilham alaraq belə deyirdi:

*"Təbiət güclülər və zəiflər arasında savaş və bu savaşda güclülərin zəiflər üzərindəki mütləq qalibiyyətidir. Əgər belə olmasaydı, təbiətdə davamlı qarışıqlıq olardı... Yaşayan hər bir canlı mübarizə aparmaq məcburiyyəti qarşısındadır. Davamlı mübarizənin həyat qanunu olduğu bu dünyada mübarizə aparmaq istəməyən yaşamaq haqqına da sahib deyildir".*[43]

Cəmiyyətlərin güclənməsi və inkişaf etməsi üçün mübarizənin, qarşıdurmanın, mübahisələrin və qan tökməyin məcburi olduğuna inanan bu iki sosial darvinçi ideologiyanın XX əsrdə yaratdığı mənzərə isə ortadadır. On milyonlarla məsum insan ölmüş, on milyonlarla insan yaralanmış və ya şikəst olmuş, ölkələrin iqtisadiyyatı çökmüş, səhiyyə, elm, texnologiya, təhsil və sənətə ayrılacaq gəlirlər əvvəlcə silahlara, sonra da bu silahların açdığı yaraların sarınmasına, darmadağın edilən və xarabalığa çevrilən şəhərlərin təkrar inşasına xərclənmişdir. Qarşıdurmanın, davanın və terrorun insanlara heç də inkişaf deyil, yalnız tənəzzül gətirməsi tarixdən aşkar şəkildə görünür.

## Fikri fərqlilik qarşıdurmaya səbəb deyil, əksinə, fərqliliklər gözəllik əlamətidir

Dünyada, əlbəttə, ziddiyyətlər mövcuddur. Təbiətdə qaranlıq və aydınlıq, gecə ilə gündüz, soyuq və isti olduğu kimi, insanların fikir və hərəkətlərində də belə ziddiyyətlər ola bilər. Ancaq fərqliliklər qarşıdurmaya əsas vermir. Əksinə, fərqliliklər sülh, sevgi, şəfqət və mərhəmətlə dəyərləndirilsə, ortaya müxtəlif gözəlliklər çıxar. Hər fikri başqası ilə müqayisə edən insan öz fikrini daha da inkişaf etdirir və ya nöqsanlarını görərək özünü düzəldir. Əks fikirlər sayəsində cəmiyyətdə fikir mübadiləsi olur, bunu isə ancaq Quran əxlaqını mənimsəmiş səmimi, mərhəmətli və sülhsevər insanlar həyata keçirə bilərlər.

Bir insanı fərqli fikir tərəfdarı olduğu, fərqli dinə inandığı və ya fərqli irqə məxsus olduğu üçün öldürmək və əzab vermək çox böyük zalımlıqdır. Buna görə tarix boyunca eyni vətənin övladları bir-biri ilə ölüm-dirim savaşına girmiş, bir-birini çəkinmədən qətlə yetirmiş, fərqli irqlərdən və ya dövlətlərdən olan insanları qadın, uşaq demədən öldürmüşlər. Bunu isə ancaq qarşısındakı insanı yalnız inkişaf etmiş heyvan kimi görən, ona insan olaraq qiymət verməyən və əməllərinə görə Allaha hesab verəcəyinə inanmayan insanlar edə bilərlər.

Quranda müxtəlif fikirlərə qarşı münasibətin necə olması ən gözəl tərzdə bildirilmişdir. Zidd fikirlər tarix boyu mövcud olmuşdur. Bunların ən məşhurlarından biri hz. Musa ilə onun dövründə yaşayan Firondur. Fironun bütün zalımlığına və təcavüzkarlığına baxmayaraq, Allah hz. Musaya onu tövhid dinə çağırmaq üçün vəzifə vermiş və necə davranacağını belə açıqlamışdır:

**Fironun yanına yollanın. O, həqiqətən, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun! (Taha surəsi, 43-44)**

Hz. Musa Allahın əmrini yerinə yetirərək Firona uzun müddət haqq dini başa salmış, onun insanlara zülm etməsinə mane olmaq üçün səbirlə haqqa dəvət etmişdi. Firon isə onun gözəl əxlaqının və səbrinin müqabilində davakar və təcavüzkar əxlaq sərgiləmiş, hz. Musanı və onun yanındakıları qətlə yetirəcəyini demişdi. Ancaq bu hərəkətin nəticəsində qalib çıxan tərəf Firon olmadı. Əksinə, Firon və tərəfdarları boğularaq məhv oldular. Hz. Musa və onun yanında olanlar isə qalib gəldilər.

Bu nümunədən də göründüyü kimi, bir fikrin qalib gəlməsi qarşıdurma, savaş və təcavüzlə əldə edilə bilməz. Hz. Musa ilə Firon arasındakı hadisələr

tarixin qısaldılmış formasıdır; qarşıdurma və zülm tərəfdarlarının deyil, sülh və ədalət tərəfdarlarının qalib gələcəyini göstərən nümunədir. Gözəl əxlaq əvəzini həm dünyada, həm də axirətdə hər zaman tapar.

## Darvinizm və terrorizm

Bura qədərki araşdırmalarımızdan da göründüyü kimi, darvinizm XX əsrdə insanlığı fəlakətlərə sürükləyən və minlərlə insanların ölümünə yol açan bir çox qanlı ideologiyaların əsasını təşkil edir. Bu ideologiyalar darvinizmə əsaslanaraq özlərindən fərqli insanlarla mübarizəni və savaşmağı dəstəkləmiş, hətta bunu ən mühüm həyat qayələri kimi mənimsəmişlər.

Dünyada fərqli inanc və fəlsəfələrin olması bir həqiqətdir. Bütün fərqli fikirlərin bir-birinə tam zidd xüsusiyyətlərinin olması da son dərəcə təbii məsələdir. Ancaq bu fikirlər bir-birini iki fərqli yöndən qiymətləndirə bilər:

***1. Özlərindən olmayanların varlığına hörmət göstərən, onlarla sülh şəraitində dialoq quran yol tuta bilərlər ki, Quran əxlaqına uyğun olan budur.***

***2. Özlərindən olmayanlarla mübarizə apararaq, savaşaraq və onlara zərər verərək üstünlük qazanmaq yolu da var ki, bu da materializmin, yəni dinsizliyin metodudur.***

"Terrorizm" adını verdiyimiz fəlakət də ikinci fikrə tamamilə uyğundur.

Bu iki fikir arasındakı fərqi araşdırdıqda darvinizmin elm adı altında yürütdüyü "insan savaşan heyvandır" fikrinin insanlara necə böyük təsir göstərdiyini görürük. Qarşıdurma yolunu seçən insan və qrupların çoxunun darvinizmdən, bu ideologiyanın prinsiplərindən, bəlkə də, xəbəri yoxdur. Amma onlar darvinizmdən təsirlənən həyat tərzini mənimsəyib yaşayırlar. Onları bunun doğruluğuna inandıran şey "bu dünyada güclülər irəlidə olur",

"böyük balıq kiçik balığı udur", "savaşmaq hünərdir", "insan savaşaraq ucalır" kimi kökü darvinizmə dayanan ifadələrdir.

Əslində, darvinizmi aradan qaldıranda onun yerində heç bir davakar fəlsəfənin qalmadığını görürük. Yer üzündəki insanların böyük qisminin inandığı üç ilahi dinin üçü də (xristianlıq, yəhudilik və İslam) qarşıdurmaya, qan tökməyə və amansızlığa qarşıdır. Hər üç dinin məqsədi yer üzündə sülhü və sakitliyi təmin etmək, məsum insanların öldürülməsinin, zülm və işgəncə görməsinin əleyhinə çıxmaqdır. Bu ilahi dinlər qarşıdurmanı, amansızlığı və davakarlığı Allahın insanlar üçün müəyyən etdiyi əxlaqa zidd olan, anormal və arzuolunmaz anlayışlar kimi qəbul edirlər. Amma darvinizm qarşıdurma və amansızlığın olmasını



**Təbiətdəki ziddiyyətlər insanlar arasında qarşıdurma və qovğalara səbəb ola bilməz. Qarşılıqlı hörmət, sevgi və dözümlülük ilə ziddiyyətlər arasında uzlaşma aparmaq olar. Quran əxlaqı insanlara hüzur və sevinc dolu həyat təklif edərkən, dialektik qarşıdurma insanlara daima bədbəxtlik, bəla və ölüm gətirir.**

mütləq sayır, onları ən təbii və ən doğru anlayışlar kimi görür və göstərir.

Beləliklə, dünyamızı hədələyən terror bəlasının kökündə qarşıdurma və şiddəti təşviq edən darvinizm gizlənir.

## Sülh və əmin-amanlıq istəyən hər bir insan darvinizm təhlükəsinin fərqində olmalıdır

Hər hansı bir problemlə mübarizə apararkən ən vacib məsələ o problemin kökünü, yəni əsil qaynağını tapmaqdır. Məsələn, ətrafa pis qoxu yayan zibilliyin ətrafı nə qədər təmizlənsə də, o zibillik pis qoxu yaymağa davam edər, bütün tədbirlər nəticəsiz qalar. Çıxış yolu zibilliyin qaynağını təmizləyib onu tamamilə ortadan qaldırmaqdadır. Bundan başqa, zəhərli ilanlar bəslənilib şəhərə buraxılarsa, bu ilanların insanları öldürməyə başladığını görəndə təlaşa düşüb ilanları tək-tək tutmaq ağıllı tədbir deyil. Bu vəziyyətdə yeganə çıxış yolu zəhərli ilanları bəsləyəni tapıb bu hadisənin qarşısını almaqdır. Beləliklə, terrorla mübarizə üçün terrorçuları tək-tək axtarmaq və onları zərərsizləşdirməyə çalışmaq çıxış yolu deyil. Dünyanı terrordan qurtarmaq üçün əvvəlcə terrorçunu yetişdirən əsas mənbə tapılıb aradan qaldırılmalıdır. Terrorun əsas səbəbi isə terrorçuların səhv ideologiyaları və bu istiqamətdə aldıqları təhsildir.

Müasir dövrdə də dünyanın hər bir ölkəsində darvinizm bütün məktəblərdə elmi həqiqət kimi tədris olunur. Amma gənclərə Allahın onları yaratması, bu gənclərin ruh, ağıl və vicdan sahibi varlıqlar olması, öldükdən sonra Allah qatında sorğu-sual olunacağı və bu hesaba görə sonsuza qədər cənnət və ya cəhənnəmdə qalacaqları öyrədilmir. Əksinə, gənclərə insanların təsadüflər nəticəsində meydana gəldiyi, ata-babaları heyvanlar olan, Allaha qarşı məsuliyyət daşımayan başıboş varlıqlar olduğu, həmçinin müharibə və

qarşıdurma ilə üstün gələrək həyatda qalacaqları öyrədilir. Məktəb həyatı boyunca bu təlimi alan insanların düşüncələrini terrora yönləndirmək, vəhşiliyi onlara təlqin etmək, onları bəşəriyyətin düşmənlərinə çevirmək, məsum körpələri öldürəcək qədər zalımlaşdırmaq bu mərhələdən sonra çox asandır. Belə təhsil almış gəncləri istənilən yanlış ideologiya öz tərəfinə çəkə və ona hər cür vicdana və əxlaqa zidd hərəkətlər etdirə bilər, həmçinin ona hər cür əclaflığı və zalımlığı normal göstərə bilər. Son yüz ildə dünyaya bəlalar gətirən kommunist, faşist və irqçi terror qrupları məhz bu təhsil sisteminin məhsullarıdır.



Bu təhsil sisteminin ikinci böyük zərəri isə təhsili dindən ayıraraq dini cahil insanların işi kimi göstərməyə çalışmaqdır. Təhsilli olanlar darvinist-materialist təlqinlə dinsizləşdiyi halda, din təhsilsiz insanların nəzarətində qalır. Bu vəziyyətdə xurafat və batil inanclar asanlıqla inkişaf edib təsir gücü qazanırlar.

Nəticə olaraq deyə bilərik ki, məsələnin çıxış yolu terrorun əsil qaynağı olan darvinist-materialist təhsilə son qoymaq, gənclərə həqiqi elmi biliklər əsasında təhsil vermək və onlara Allah qorxusunu, ağıllı və vicdanlı hərəkət etməyi başa salmaqdır. Bunun nəticəsində isə Allahın Quranda bildirdiyi kimi, xoşbəxt, etibarlı, adil, rəhmli və mehriban insanlardan ibarət cəmiyyətlər yaranacaq.



## Birtərəfli darvinist təlimin vəhşiliyə səbəb olan təsirləri

Darvinist təlim insanlara həyatın məqsədsiz olduğunu təlqin edərək onları ümid və sevincdən uzaq, qəddar ruhlu xəstələrə çevirir. Bunun ən son nümunələrindən biri norveçli Anders Behrinq Breyvikdir. Breyvik 22 iyul 2011-ci ildə Norveçdə yaşanan iki terror hücumunun səbəbkarı olduğunu etiraf etmişdir. Bu hücumlardan biri Osloda hökumət binasına edilən və səkkiz nəfərin ölümünə səbəb olan bombalı hücumdur. Digəri isə Utoya adasında Fəhlə Partiyasına edilən hücumdur. Bu hücum nəticəsində 69 nəfər həyatını itirmişdir.

Breyvik hücumlardan əvvəl "Avropa müstəqillik bəyannaməsi" adlı kitabında öz fikirlərini yazmışdır. Kitabın 1518-ci səhifəsində isə özünü elmi dünyagörüşün və müasir biologiyanın çempionu elan etmişdir. Onun əhəmiyyət verdiyi kitablar arasında Ç.Darvinin "Növlərin mənşəyi" adlı əsəri yer alır (1). Breyvikə görə, qüsursuz Avropa sosial darvinizmin qanunlarını ehtiva etməlidir (2). Breyvik kitabının 1202-ci səhifəsində Prinston Universitetinin bioloqu darvinist Li Silverin yevgenikanın yenidən tətbiq edilməsini müdafiə edir. Silverin dünya əhalisinin indikinin yarısından da azı və ya 3.8 milyarda endirilməsi fikirlərinə qatılır və onlara görə, gələcək siyasət məcburi radikal yönlü olmalıdır (3). Eyni səhifədə Breyvikin Darvinin "soyqırımı və təbii seleksiya... yanaşıdır" arqumentini nə qədər mənimsədiyi bu cümlələrdə açıq-aydın görünür:

*"İkinci və üçüncü dünya ölkələri əhali artımının qarşısını almasalar, təbiət onların bu səhvini qıtlıqla düzəldəcək".*





**Darvinist təhsil insanlara həyatın heç bir məqsədinin olmadığı yalanını təlqin edərək onları hər cür ümid və sevincdən məhrum olmuş, bədbin və cani xarakterli ruhi xəstələrə çevirir.**

*(4)*

Breyvik qərb dövlətlərinin bu təbii prosesə, yəni baş verəcək qıtlığa müdaxilə etməmələrini belə müdafiə edir:

*"Əgər əhali artımına görə qanunlarımıza tabe olmayan ölkələrdə qıtlıq baş verirsə, onlara kömək etməməliyik və ya müvəffəqiyyətsiz liderlərinə dəstək verməməliyik".* (5)

*"İfrat artıma cavabdehlik daşıyan üçüncü dünya ölkələrinə qida yardımı dərhal durdurulmalıdır".* (6)

Breyvikin yazdığı bu sözlərdən açıq şəkildə görünür ki, o, dar-



vinist təlim üzündən əxlaqi dəyərlərdən tamamilə uzaqlaşmış və bunun nəticəsində onlarla insanın ölümünə səbəb olan terror hadisələrini soyuqqanlılıqla həyata keçirmişdir.

Darvinist təlimin səbəb olduğu əxlaqi tənəzzülün başqa bir nümunəsi 17 uşağı öldürüb cəsədini yeyən amerikalı qatil Cefrey Dahmerdir. O, ölümündən qabaq "Dateline NBC" kanalına belə müsahibə vermişdir:

*"Əgər insan məsul olduğu bir yaradıcının mövcud olduğunu düşünmürsə, o halda niyə hərəkətlərini islah etməyə çalışmalıdır? Elə mən də bunu düşünürdüm. Həmişə təkamül nəzəriyyəsinin, yəni bizim palçıqdan əmələ gəldiyimiz tezisinin gerçək olduğuna inanmışam. Öldüyümüz zaman hər şey bitir, artıq heç bir şey yoxdur".* (7)

Darvinin kütlələri yönləndirdiyi yanlış inanc insanları qətllər törətməyə, hətta insan əti yeyəcək qədər psixopatlığa sürükləyir. İnsanlara yaradıcı qarşısında məsul olmadığını

təlqin edən, onları başıboş və məqsədsiz varlıqlar olduğuna inandıran, insanı heyvan kimi görən və ölümü son kimi göstərib insanları axirət həqiqətindən uzaqlaşdırmağa çalışan bu saxta dinin gətirdiyi nəticə budur.

Son iki yüz ildir ki, dünyaya müharibə, qətl, zalımlıq, cinayət və hər cür bəla gətirən ən böyük batil güc darvinizmdir. Cəmiyyətlərdə inkişaf edən dinsizliyin, irqçiliyin və kütlə qətliamlarının səbəbkarı olan faşizm, kommunizm və dünya müharibələrinin ardında KEÇƏN ƏSRİN ƏN BÖYÜK YALANI VƏ BƏLASI OLAN DARVİNİZM DAYANIR.

Darvinin başlatdığı bu bəlanın cəmiyyətlərə mənfi təsiri dövrümüzə kimi davam etmişdir. Darvinizmin dövrümüzdəki dəstəkçilərindən olan Riçard Dokinzin son kitabı insanları Allah inancından uzaqlaşdırır, onları ümidsizlik və bədbinliyə doğru aparır. Buna misal kimi Amerikada müəllimin verdiyi Dokinzin kitabını oxuyub intihar edən 22 yaşlı bir tələbəni göstərmək olar. (8)

Dokinzin darvinizmin qaranlıq ideologiyasına əsaslandırdığı qorxulu düşüncənin təsiri bununla bitmir. O, "Unweaving the Rainbow" kitabının girişində bu həqiqəti belə etiraf edir:

*"İlk kitabımın naşiri kitabı oxuduqdan sonra aldığı soyuq mesaj səbəbindən sıxıntı keçirdiyini və üç gün yata bilmədiyini etiraf etdi. Bəziləri də mənim səhərlər necə oyandığımı soruşur. Uzaq bir ölkədən bir müəllim isə mənə məzəmmət dolu məktub göndərdi. Məktubunda həmin kitabı oxuyan bir tələbənin yanına göz yaşı içində gəldiyini və həyatın boş və məqsədsiz olduğu*

*düşüncəsinin ona pis təsir etdiyini yazırdı. Müəllim digərlərinin də təsirlənməməsi üçün tələbəyə kitabı başqalarına göstərməməyi tövsiyə edib".* (9)

Bu qaranlıq bəla – darvinizm insanları ölüm və cinayətə, həmçinin vəhşiliyə sürükləyən, insanlara təsadüfən yaranmış heyvandan başqa bir şey olmadığını təlqin edən batil dindir. Bu dinin təmsilçiləri insanları Allah inancından uzaqlaşdırmaq üçün var gücü ilə çalışmağa davam edirlər. Buna görə də darvinizmin yanlışlarının təhsil ocaqlarında oxudulmasına qəti qarşı çıxır, yaradılışı sübut edən fosilləri gizlədir, həmçinin zülalın təsadüfən əmələ gələ bilməyəcəyini, 450 milyondan çox fosilin darvinizmi yerlə-yeksan etdiyini etiraf etmirlər. Lakin bütün bunlara baxmayaraq, 21-ci əsrdə insanlar artıq yalanlarla aldana bilməzlər. Darvinizmin saxtakarlıq olduğu bütün dünyaya məlum olduqdan sonra onu ayaqda saxlamaq üçün göstərilən bütün cəhdlər boşa çıxmışdır.

(1) http://www.darwinthenandnow.com/2011/07/breivik-a-darwinist/?cb=09394448816310614
(2) Anders Behring Breivik, Avropa müstəqillik bəyannaməsi, səh. 1386
(3) http://www.darwinthenandnow.com/2011/07/breivik-a-darwinist/?cb=09394448816310614
(4) Anders Behring Breivik, Avropa müstəqillik bəyannaməsi, səh. 1386
(5) Anders Behring Breivik, Avropa müstəqillik bəyannaməsi, səh. 1202
(6) Anders Behring Breivik, Avropa müstəqillik bəyannaməsi, səh. 1203
(7) Kelly J. Coghlan, Houston Chronicle Sunday - 15 fevral, 2009
(8) http://www.worldnetdaily.com/index.php?fa=PAGE.view&pageId=81459
(9) Richard Dawkins, Unweaving The Rainbow, Houghton Mifflin Company New-york, 1998

## Təhsil müəssisələrindəki darvinist təlim şiddət və terrora meyilli nəsillərin yetişməsinə səbəb olur

Dünyada heç bir şey təsadüf olmadığı kimi, 20 və 21-ci əsrdə bütün dünyanı bürüyən hərc-mərclik də təsadüf deyildir. Allah bu hadisələrlə insanlara əhəmiyyətli bir nümunə göstərmişdir. Bütün dünya bunu anlamalıdır: əgər insanlar sevgi, qardaşlıq, dostluq və fədakarlıq üçün yaradıldıqlarını unutsalar, birlik olub güclənməyin yerinə, bölünüb parçalansalar, həmçinin batil cərəyanlara inanıb irəliləmək üçün öldürməyin və müharibənin labüd olduğuna inansalar, gözlədikləri münaqişələr öz başlarına gələr. Hər kəs bu qəti həqiqəti artıq görür: münaqişə inkişaf deyil, yalnız fəlakət gətirir.

### Darvinizm və bu fəlsəfədən irəli gələn kommunizm münaqişə və müharibəni əsas alır

Heraklit (Herakleitos e.ə. 576-480) ilk dəfə qədim Yunanıstandan başlayan və "mübahisə" mənasına gələn dialektikanın tərifini belə verir: "Hər şey ziddiyyətlərin mübarizəsindən doğur". Heraklitə görə, müharibə hər şeyin atasıdır. Beləliklə, dialektikanın gərəkdirdiyi tezis antitezislə mübarizə aparmalıdır. Bir tezisin müdafiəçiləri digər tezisin müdafiəçiləri tərəfindən yeniləcəksə, bu, ancaq savaş və münaqişə yolu ilə olmalı və qarşı tərəf mütləq yox edilməlidir. Meydana gələn sintez bir müddət sonra yeni bir tezisə çevrilməli və savaş eyni sürətlə davam etməlidir.

Hegel və ardınca Marks buna birbaşa savaş adı

verməsələr də, çəkişmə demişdilər. Kommunist liderlərin bunu savaş və qətliam kimi anlamağı uzun sürmədi. Onlar savaşın gərəkli olduğuna inanıb bunu marksizmin əsas şərti kimi gördülər. Dövrümüzün yaşıl kommunistləri bu savaş anlayışını rədd etsələr də, xain pusqular, partizan müharibəsi, kütlə qətliamları kommunizmin gərəyidir. Hazırda Suriyada gerçəkləşdirilən qətliamlar, kommunist PKK-nın Türkiyənin cənub-şərq bölgəsində törətdiyi əməllər bunun nümunələridir.

**Terror təşkilatlarının əsasında kommunizm durur**

Terror bəlasından əziyyət çəkən ölkələrin qarşısında əksər hallarda kommunist ideologiya dayanır. Kommunizm o qədər canlıdır ki, adı rəsmən qoyulmasa da, Şimali Amerikanın bir hissəsinə, Şimali Avropaya və Yaxın Şərqin, demək olar ki, hər yerinə hakimdir. Onsuz da rəsmi olaraq kommunizmlə idarə edilən Cənubi Amerika ölkələrini, Çin və Şimali Koreya kimi qızıl ölkələri sadalamağa ehtiyac yoxdur.

Bu kommunist-marksist zehniyyət üzündən terror bütün dünyaya yayılmışdır. Açıq-aşkar marksist təhdidə göz yumanlar hələ də uzun müzakirə proqramlarında terrora həll axtarırlar. Ancaq tədris müəssisələrində uşaqlarına dialektik təlim verirlər. Həmin uşaqlar məktəblərdə iki əks fikrin mütləq çəkişəcəyi yalanını, tarixin bu münaqişələrdən ibarət olduğunu və bunun nəticəsində cəmiyyətlərin irəliləyib rifaha çatacağını öyrənirlər. Dağ-

lardakı terrorçular da, məktəblərdəki uşaqlar da eyni təlimi alırlar. Həmçinin həm kommunist ölkələrdə, həm də kapitalist ölkələrdə eyni təlimi keçirlər. Beləliklə, eyni üsulla müharibəyə təşviq edən marksist düşüncə gizlicə bütün ölkələrə yayılmağa davam edir. Bunu xatırlatmaq lazımdır: kapitalizm marksizmə vurulan zərbə deyil, əksinə, Marksa görə, cəmiyyətlərin kommunizmə keçidi üçün əhəmiyyətli şərtdir. Kommunizm kapitalizmin təsiri ilə eqoistləşən, yalnız öz mənfəətini düşünən və insani dəyərlərdən uzaqlaşan fərdlərə və cəmiyyətlərə hakim olmağı gözləyir. Son iqtisadi böhran kommunizm üçün dərman rolunu oynamışdır. Marksist və kommunistlər üçün mühit hazır vəziyyətə gəlmişdir. Bunu görmək istəyənlər dünyada baş verən fövqəladə qarışıqlıqlara yaxından nəzər sala bilərlər.

## Müharibə mübarizənin gərəyi deyil

Ziddiyyətlər həmişə mövcud olmuşdur. Yaxşı və pislər arasındakı mübarizə dünya tarixinin ən başından bəri vardır. Lakin bu mübarizənin tərifini doğru-düzgün vermək lazımdır. Mübarizənin gərəyi heç bir zaman müharibə deyil. Ziddiyyətlər dialoqların, elmi dəlillərin ortaya çıxarılmasına, sevgiyə və hörmətə əsaslanmalıdır. Heç kimi məcburən bir fikrə öyrəşdirmək və ya buna görə qətl etmək olmaz. Heç bir müharibə indiyə kimi cəmiyyətlərə inkişaf gətirməmişdir. 20-ci əsrin qanlı savaşları və hazırda da bitmək bilməyən münaqişələr silah sektorunu bəsləməklə mədəniyyəti,

texnologiyanı, şəhər və iqtisadiyyatları məhv edir. Qorxu içində yaşayan xalqla irəli getmək mümkün deyil. Getdikcə yoxsullaşıb ac qalan, təhsil almayan, çalışıb istehsalatla məşğul olmayan xalq inkişaf etməz. Şəhər və qəsəbələr bombalanmaqla gözəlləşməz. Gənc nəslin ölməsi ilə cəmiyyətlər irəliləyə bilməz. Xirosima və Naqasakiyə atılan atom bombaları nəsillərlə davam edən fəlakətdən başqa bir şey deyil. Marksizmin önə sürdüyü qanlı dialektika cəmiyyətlərə xəyali inkişafı heç bir zaman bəxş etməmişdir və etməyəcək də. Əgər buna izin versək, dünyanı daha böyük fəlakətlər bürüyər, hər yer qan gölünə



dönər.

Darvinizm dünyada baş verən bir çox qarşıdurmanın fəlsəfi dayaq nöqtəsidir. Təkamül nəzəriyyəsi canlı növlərinin tək bir hüceyrədən (darvinistlər bu canlı hüceyrənin necə əmələ gəldiyini elmi yöndən açıqlaya bilmirlər) təsadüfən və davamlı dəyişikliyə məruz qalaraq meydana gəldiyini iddia edir. Bu xəyali dəyişiklik və irəliləmə müddətinin ana ünsürlərindən biri isə qarşıdurmadır. Canlıların ancaq qarşıdurma ilə inkişaf etdiyini müdafiə edən bu amansız ideologiyanın əsası güclü olanların gücsüzləri yox etməyinə dayanır. Darvinizmin elmi nəzəriyyə kimi qələmə verilib dünya miqyasında dərsliklərə daxil edilməsi isə darvinist düşüncəni cəmiyyətlərə yaymışdır. Bu vəziyyət milyonlarla insanın həyatını itirməsinə səbəb olan müsibətlərlə nəticələnmişdir.




## Qanlı ideologiyalara qarşı əsaslı həll təhsil ocaqlarında birtərəfli darvinist təlimin aradan qaldırılmasıdır

Fikirlər bir-birinə zidd olduqda nəticəni ancaq elmi dəlilləri ortaya qoymaqla, azad düşüncəyə önəm verib qarşı tərəfə sevgi və hörmət bəsləməklə əldə etmək olar, zorakılıqla deyil. İndi hər bir kəsin dünyanı bürüyən fəlakətlərin səbəbini anlamasının zamanı yetişib. Savaş məntiqini cəmiyyətlərə marksizm vermişdir və marksist topluluqlar gizlincə bunun əsas yolunu hazırlamışdır. Bunu durdurmağın yolu müharibəni qanuniləşdirən dialektika məntiqinin saxtakarlığını elmi yolla göstərməkdir.




Tarixin qanlı dialektikası kimi azğın fikrə zəmin hazırlayan təbiətin dialektikası fikrinin məntiqsiz olduğundan bəhs etmək lazımdır. Həmçinin təbiətdə ov edən canlıların varlığı kimi, fədakar canlıların da mövcud olduğu göstərilməlidir. Bu əhəmiyyətli həqiqəti göstərmək üçün bütün dünyada uşaqlarımıza qanlı dialektika fikrini aşılayan təhsil sistemi dəyişdirilməlidir. Dünya nə bizim, nə də başqa canlıların savaş yeridir. Dünya bütün haqq dinlərdə Allahın bildirdiyi kimi, ancaq sevgi ilə gözəlləşər. Allah bizdən sevib-sevilməyi istəyir. Bu dünya Allahın istəyinə uyğun olaraq sevgiyə yönəldiyimiz təqdirdə dəyişər.

**Adnan Oktarla söhbətlər (a9.com.tr)**

## "Darvinizm terrorun qaynağı, İslam isə həllidir"

*Adnan Oktar: 11 sentyabr hadisəsini törədənlərin hamısı darvinist-materialist təlimdən keçən, Avropada təhsil alan və materializmi mənimsəmiş insanlardır. Şəxsiyyət vəsiqələrində müsəlman yazılmasının əhəmiyyəti yoxdur...*

*Marksist yetişən, solçu təlimi keçən və darvinist-materialist təhsil alan insanların adının Həsən və ya Muhəmməd olması heç nəyi dəyişdirmir. Materialist və ya darvinist insanın törətdiyi əməl materialist-darvinist və marksist əməldir. Beləliklə, bunlara görə müsəlmanların üstünə düşmək mənasız işdir. Hər cür terror əməlini törədənlərə baxdıqda mütləq darvinist-materialist təlimdən keçdiyini görürük. Allahdan qorxan, Allahı canından çox sevən, axirətə gedəcəyinə və cənnət-cəhənnəmə inanan bir insan gedib məsum uşaqları, qadınları bombalayarmı? Allahdan qorxan bir insanın buna gücü çatarmı? Nəinki bunu etməz, heç ağlından belə keçirməz.*



*Bunu edənlər, dediyim kimi, dini təlim almış, lakin darvinist düşüncədəki insanlardır. Bunu İslama aid edə bilmərik. Terrorun qaynağı darvinizm və materializmdir. Marksizm, leninizm vardır; leninist düşüncədə terror şərtdir. Marksizm kommunizmin nəzəri, leninizm də praktik yönüdür. Həmin şəxslər də bunun gərəkdirdiyini edirlər. Lenin terrorun praktikanın yolu olduğunu deyir. Marksizm və leninizm düşüncəsində terror labüddür. Həmin insanlar da eynisini edirlər, bu qədər...*

*İslamda müharibə hüququ vardır. Bu, Quranda göstərilmişdir. Müdafiə savaşı var; bu halda da qadın və uşaqlara əsla toxunmaq olmaz... Yalnız ölkəyə müharibə elan edəndə həmin ölkə də özünü müdafiə edər. Leqal müharibə var, yəni açıq mübarizə aparılır. Amma həmin müqavilə qüvvədə olduğu halda, sülh müqaviləsi bağladığın ölkəyə üç-dörd nəfər çıxıb: "Mən buna müharibə elan etdim", – deyərsə, bu olmaz. Hələ uşaqlara hücum edərsə, heç olmaz.*

*İslam mədəniyyət, bilgi, sevgi, sənət və ağılla yayılar, rəzil əməllərlə, qan tökməklə yayılmaz*

*Peyğəmbərimizin (səv) bütün savaşları müdafiə savaşı – canını qoruma savaşı olub. Bir yerə gedib zor gücünə oranı ələ keçirməmişdir. (Cənab Adnan Oktarın "Azernews" müsahibəsindən, 23 oktyabr, 2008)*

*İslam əxlaqının yaşanması ilə mükəmməl mədəniyyət meydana gələr*

*Adnan Oktar: Xristian aləminin papası var, lakin Türk-İslam dünyasının lideri yoxdur. Türk-İslam dünyasının başına mütləq bir lider keçməlidir və birlik qurmalıdırlar. Birlik qurularsa, bu əxlaq dərhal yayılar. Bunu qəbul etməyən kimsə qalmaz.*

*Din cahillərinə, əqli zəiflərə, kitab oxumayan və dünyanı tanımayan insanlara qalarsa, terror da olar, qarışıqlıq da. Cinayətlər, kasıblıq, elm və sənətə qarşı çıxmaq və s. hər şey olar. Lakin İslam birlik halında yaşanan dindir. Türk-İslam Birliyi qurulub mənəvi lider seçildikdə o lider bütün nöqsanları aradan götürər. Bunun yerinə sevgi, mərhəmət, dostluq və qardaşlıq gələr. Təmizlik, estetika və elm gələr, beləliklə, mükəmməl mədəniyyət ortaya çıxar. Çox mükəmməl mədəniyyət yaranar. Buna görə də mən Türk-İslam Birliyinin qısa zamanda qurulmasını istəyirəm. ("Associated Press of Pakistan", 6 sentyabr, 2008)*



*Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.*

*(Əraf surəsi, 56)*

# NƏTİCƏ:
# QƏRB DÜNYASI ÜÇÜN MƏSLƏHƏTLƏR

Bu gün Qərb dünyası terrora əl atan təşkilatlara görə əndişələnir və bu narahatçılıq yersiz deyil. Terroru gerçəkləşdirən və buna dəstək verən bütün təşkilatların beynəlxalq hüquq və ədalət normaları çərçivəsində cəzalandırılmasının vacibliyi hamıya aydın olan məsələdir. Amma bundan daha vacib olan məsələ bu problemin həlli üçün hansı uzunmüddətli strategiyanın həyata keçirilməsinin lazım gəldiyini araşdırmaq və üzə çıxarmaqdır.

Bura qədərki araşdırma və dəyərləndirmələrimiz terrorun ilahi dinlərdə heç bir yeri olmayan bəşəri bir cinayət olduğunu göstərməkdə, son vaxtlar gündəmə gələrək əsas mövzuya çevrilən "İslam terroru" anlayışının yanlışlığını ortaya qoymaqdadır. Bu isə bizə cəmiyyətə münasibətdə əsas baxış bucaqlarını və onların vacib tərəflərini öyrədir:

1. Qərb dünyası, xüsusilə ABŞ terrora qarşı, əlbəttə, ən kəskin tədbirləri həyata keçirməlidir və bu məsələdə haqlıdır. Amma onlar bunun hər hansı bir dinə və onun mənsublarına aid olmadığı kimi, İslama və müsəlmanlara qarşı da olmadığını, əksinə, İslama faydalı olduğunu çox açıq şəkildə ortaya qoymalıdır. "Mədəniyyətlər mübarizəsi" adı ilə 90-cı illərdə ortaya çıxan təhlükəli ssenarinin qarşısı nəyin bahasına olursa-olsun alınmalıdır. Mədəniyyətlər arasında mübarizə deyil, mərhəmət, xeyirxahlıq, mehribanlıq və sülh yaşanmalıdır.

2. Sevgi, dostluq, sülh və qardaşlıq dini olan həqiqi İslamın inkişafı və onun İslam cəmiyyətləri tərəfindən başa düşülməsi dəstəklənməlidir. İslam ölkələrindəki radikal fraksiyalara qarşı istifadə ediləcək çözüm yolları "məcburi dünyəviləşdirmə"dən ibarət deyil. Əksinə, belə bir siyasət kütlələri daha çox etiraz və müqavimətə sövq edərdi. Məsələnin gerçək həlli yolu həqiqi İslamın başa düşülməsi, yəni Quran əxlaqının insan haqları, demokratiya, müstəqillik, gözəl əxlaq, elm, sənət, estetika kimi həqiqi anlayışlarını mənimsəmiş, bəşəriyyətə xoşbəxtlik və həyat sevinci gətirən bir müsəlman modelinin yayılmasıdır.

3. Terrorun mənbəyi cəhalət və ağılsızlıq, bunun aradan qaldırılması yolu isə təhsildir. Terrora rəğbət bəsləyən çevrələrə bunun İslama tamamilə zidd olması, habelə onların bununla İslama, müsəlmanlara və bütün bəşəriyyətə zərər verdiyi başa salınmalı və bu insanlar vəhşilikdən uzaqlaşmaq, mənən, ruhən təmizlənmək üçün maarifləndirilməlidir. ABŞ-ın bu istiqamətdəki təhsil siyasətini dəstəkləməsi çox faydalı nəticələr verərdi.

4. ABŞ-ın xarici siyasəti son 10 il ərzində dünyanın fərqli bölgələrindəki müsəlmanları, həqiqətən də, cürbəcür zülm və qətliamlardan qorumuşdur. Serblərin Bosniyada törətdiyi və üç il davam edən qətliamlar ancaq ABŞ-ın müdaxiləsindən sonra dayandırıldı və Kosovodakı müsəlman albanlar serb terrorundan məhz ABŞ-ın müdaxiləsi ilə qorundu. ABŞ çeçenlər üzərinə qətliamlarla nəticələnmiş hücumlara keçən Rusiyanın da qarşısını xeyli dərəcədə aldı. Bu siyasət həm gücləndirilərək davam etdirilməli, həm də dünya müsəlmanlarına izah olunmalı, bununla da ABŞ və Qərb əleyhinə yönəlmiş lazımsız hərəkətlər aradan qaldırılmalıdır.

5. Kommunist, faşist, irqçi və digər ideologiyalardan qaynaqlanan terrora qarşı da uzunmüddətli mədəni həll yolları inkişaf etdirilməlidir. Bu gün dünyanın dörd tərəfindəki ölkələrdə təhsilin əsasını materializm və darvinist düşüncə sis-



temi təşkil edir. Halbuki bir qədər əvvəl də vurğuladığımız kimi, darvinizm insanı fasiləsiz şəkildə, daim vuruşan bir heyvan hesab edən, insanı irəliyə yalnız qarşıdurma və müharibələrin aparacağına inanan və hər cür terrora əsas verən mürtəce və yanlış bir ideologiyadır. Sadəcə olaraq həyatda yalnız güclülərin qalacağı və yalnız güclülərin yaşayacağı fikrini müdafiə edən, müharibəni bir vasitə hesab edən darvinizm əsrlərdir ki, bütün dünyanı bəladan-bəlaya sürükləyən böyük bir bataqlıq kimidir. Bu səbəblə də, terrorla mübarizədə reallaşdırılacaq ədalətli güc tədbirləri ilə yanaşı, bütün dünya miqyasında böyük təhsil səfərbərliyinin də başlanması lazımdır. Bu təhsilin təməlini də darvinizm və materializm fırıldaqçılığının həqiqi tərəflərini açıb göstərmək və Allahın



insanlar üçün müəyyən etdiyi gözəl əxlaqı hər kəsə öyrətmək ideyası təşkil etməlidir. Arzulanan belə sakitlik, bərabərlik, asayiş və əmin-amanlıq yalnız o halda bərqərar olacaq ki, dinin gətirdiyi əxlaqın gözəllikləri insanlar arasında geniş şəkildə yayılmış olsun. Çünki bataqlığı qurutmadan bu bəladan qurtulmaq mümkün deyil.

Ümid etmək olar ki, belə məsləhətlər dünyanın terrorizmdən və bütün digər ağılsız, mürtəce və vəhşi hərəkətlərdən xilas olunmasına kömək edəcək. Özünü Allahın mərhəməti altında olan bir ölkə kimi tanıyan və tanıdan ABŞ təmsil etdiyi xristian mədəniyyəti ilə, həqiqətən də, müsəlmanların dostudur. Allah



Quranda bu həqiqətə diqqət çəkərək xristianların insanlar içində iman edənlərə sevgi baxımından ən yaxın olanlar olduğunu xəbər verir **(Maidə surəsi, 82)**

Tarixdə xeyli cahillər (məsələn, səlibçilər) bu həqiqəti anlamayaraq iki dinin arasında qarşıdurmalara səbəb olublar. Eyni ssenarinin təkrarlanmaması üçün həqiqi xristianlar və müsəlmanlar birlikdə iş görməli, əl-ələ verməlidir. ABŞ-dakı üzücü və faciəvi hadisələrdən sonra baş verən proseslər də bu işbirliyinin toxumlarının səpildiyini göstərir. Bu



dəhşətli terror hadisəsi xristian və müsəlman cəmiyyətləri arasında yaxınlaşmanın başlanmasına kömək etmiş, xeyli xristianın İslam dinini daha yaxından tanımaq üçün araşdırmalar aparmasına səbəb olmuş, müsəlmanların da Quranda tərif edilən həqiqi İslam əxlaqını digər dinlərdən olanlara başa salmaq, təbliğ etmək və yaymaq üçün daha ciddi təşəbbüs və səylər göstərməsi ilə nəticələnmişdir.

Bütün bu hadisələr insanların İslam əxlaqını daha yaxından tanıyacağının və onların bu günə qədər sahib olduqları bütün yanlış və zərərli mühakimələrdən xilas olacağının da bir əlaməti kimi sərf-nəzər edilə bilər. XXI əsr Allahın izni ilə yer üzünə arzulanan sülhü və sakitliyi gətirməyin yeganə yolunun İslam əxlaqı olduğunun dərindən və bütün ciddiyyəti ilə başa düşüləcəyi bir əsr olacaq.



*Xeyr, Biz haqqı batilin üstünə
atarıq və o da onun işini bitirər.
Bir anda (batilin) yox olub getdiyini
görərsiniz. (Allaha) aid etdiyiniz
sifətlərə görə vay halınıza!*
*(Ənbiya surəsi, 18)*



# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 450 milyondan çox fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlədə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.



Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid

edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

***1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.***

***2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.***

***3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.***

***Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.***

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz

edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir  müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır".[44]

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.


Lui Paster

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq

Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin əmələ gəlməsi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır".[45]

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı.[46]

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.[47]

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb".[48]



Aleksandr Oparin

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.



Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi təkamül nəzəriyyəsi üçün hələ də böyük bir müəmmadır.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çox-dur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.
- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə zülalların olması üçün zülallar lazımdır.
- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.
- Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə

**Təkamül nəzəriyyəsini əsassız edən həqiqətlərdən biri canlıların kompleks quruluşudur. Canlı hüceyrələrin nüvəsində yerləşən DNT molekulu bunun bir nümunəsidir. DNT dörd ayrı molekulun fərqli düzülüşündən meydana gələn bir cür məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrləri vardır. İnsan DNT-si kağız üzərinə köçürülərsə, ortaya 900 cildlik bir ensiklopediya çıxacağı hesablanmışdır. Əlbəttə, belə bir fövqəladə məlumat təsadüf anlayışını qəti şəkildə alt-üst edir.**



bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orqel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”.[49]

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi: təbii seleksiya yolu ilə...”



Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı.[50]

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi.[51]

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neo-darvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> *"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər".*[52]

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi




**Təkamülçülər keçən əsrin əvvəllərindən bəri milçəkləri mutasiyaya uğradıb faydalı mutasiya əmələ gətirməyə çalışdılar. Lakin on illərlə sürən bu cəhdlərin nəticəsində yalnız şikəst və xəstə milçəklər əldə etdilər. Ən solda normal bir meyvə milçəyinin baş hissəsi və sağda mutasiyaya uğramış digər bir meyvə milçəyi.**

mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarıbalıq, yarısürünən

canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər".*[53]

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?"*[54]

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

**Dəniz ulduzu**
**Era: Paleozoy**
**Ordovik dövrü**
**Yaş: 490-443 milyon il**



**Köpüklü avqust böcəyi**
**Era: Mezozoy**
**Təbaşir dövrü**
**Yaş: 125 milyon il**



**Tozağacı yarpağı**
**Era: Kaynozoy**
**Eosen dövrü**
**Yaş: 50 milyon il**





**Qırmızı ağac**
**Era: Kaynozoy**
**Eosen dövrü**
**Yaş: 50 milyon il**





Təbaşir dövrünə aid bu timsah fosili 65 milyon illikdir. Dövrümüzdə yaşayan timsahlardan heç bir fərqi yoxdur.

İtaliyada çıxarılan bu mene balığı fosili 54-37 milyon illikdir.

50 milyon illik bu çinar yarpağı fosili ABŞ-da çıxarılmışdır. Çinar yarpaqları 50 milyon ildə heç dəyişməmiş, təkamül keçirməmişdir.









Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> *"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük".*[55]

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> *"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar".*[56]

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Avstralopiteklər

Homo habilis

Homo erektus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən avstralopitek ("australopithecus") adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir.[57]

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. [58]

Təkamülçülər "avstralopitek > homo habilis > homo erektus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[59]

Habelə, homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar.[60]

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:




**İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı mövcud deyildir. Əksinə, fosil qeydləri insanlarla meymunlar arasında keçilməz bir sərhədin olduğunu göstərir. Bu həqiqət qarşısında təkamülçülər həqiqətdən uzaq bir neçə cizgi və maketlərə ümid bəsləyirlər. Fosil qalıqlarının üzərinə istədiyi maskaları keçirib xəyali yarı meymun, yarı insan üzü düzəldirlər.**

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər.".[61]

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə



**Təkamülçülərin fosillər haqqındakı şərhləri, ümumiyyətlə, ideoloji düşüncələrinə əsaslanır. Buna görə də gəldikləri qənaət birtərəflidir və etibarlı deyil.**

telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fovqündə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarının bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. [62]

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən

fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.



**Təkamülçülərin istədiyi bütün şərtlər təmin edilərsə, bir canlı əmələ gələ bilərmi? Əlbəttə, xeyr. Bunu daha yaxşı başa düşmək üçün belə bir təcrübə aparaq. Üstdəkinə bənzər bir çəlləyə canlıların əmələ gəlməsi üçün lazım olan bütün atom, ənzim, hormon və zülalları, qısası, təkamülçülərin istədiyi və lazımlı gördüyü bütün elementləri qoyaq. Hər cür kimyəvi və fiziki metodlardan istifadə edib bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilsə də və nə qədər gözlənilsə də, bu çəlləkdən bir dənə belə canlı çıxmaz.**

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç

ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?



Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam



**Bir cisimdən gələn siqnallar elektrik siqnalına çevrilir və beyində təsir yaradırlar. Gördüyünüzü deyərkən, əslində, beyninizdə elektrik siqnallarının təsirini izləyirsiniz. Beyin işıq keçirmir, yəni işıq beyinin olduğu yerə qədər gedib çatmır. Görüntü mərkəzi deyilən yer qapqaranlıqdır və işığın əsla çatmadığı bir yerdir. Lakin siz bu zülmət qaranlıqda aydın bir dünyanı izləyirsiniz.**

etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan

Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”.*[63]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin**



**Keçmiş dövrlərdə timsaha sitayiş edən insanların inancı nə qədər qəribə və ağıla ziddirsə, dövrümüzdə darvinistlərin də inancı eyni dərəcədə ağıla ziddir. Darvinistlər təsadüfləri və cansız-şüursuz atomları cahilliklə yaradıcı güc kimi qəbul edirlər, hətta bu batil inanca bir din kimi bağlanırlar.**

**onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya

öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar".*[64]

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, sən biləsən, müdriksən! (Bəqərə surəsi, 32)



**QEYDLƏR:**


1. Prof. Thomas Arnold. The Spread of Islam in the World, A History of Peaceful Preaching, Goodword Books, 2001, s. 79-80
2. http://www.ibtimes.com/why-do-people-join-isis-psychology-terrorist-1680444
3. http://www.ibtimes.com/why-do-people-join-isis-psychology-terrorist-1680444
4. Karen Armstrong, Holy War: The Crusades and Their Impact on Today's World, MacMillan, London, 1988, s. 25
5. Majid Khoduri, İslam'da Savaş ve Barış, Fener Yayınları, İstanbul, 1998, s. 123 ; Təbəri, " Tarix-ər-rüsul və- l- mülk" ("Peyğəmbərlərin və padşahların tarixi") I, 1850
6. Karen Armstrong, Holy War: The Crusades and Their Impact on Today's World, MacMillan, London, 1988, s. 25
7. W.H.C. Frend, "Christianity in the Middle East: Survey Down to A.D. 1800", Religion in the Middle East, Ed. A.J. Arberry, I-II Cambridge, 1969, cild I, s. 289
8. Prof. Thomas Arnold, The Spread of Islam in the World, A History of Peaceful Preaching, Goodword Books, 2001, p. 56.
9. Prof. Thomas Arnold in The Spread of Islam in the World, A History of Peaceful Preaching, p. 71-72
10. Laurence E. Browne, The Prospects of Islam, 1944, s. 11-15
11. Arnold, Thomas Walker. The Preaching of Islam: A History of the Propagation of the Muslim Faith. 1896. s. 97; Finlay, vol. III. s. 358-9; J. H. Krause: Die Byzantiner des Mittelalters, p. 276; Halle, 1869
12. Arnold, Thomas Walker. The Preaching of Islam: A History of the Propagation of the Muslim Faith. 1896. s. 91; Odo de Diogilo. De Ludovici VII. Itinere. Migne, Patr. Lat., torn, CXCV. p. 1243
13. André Miquel, L'Islam et Sa Civilisation VIIe - XXe siècle, Librairie Armand Colin, Paris 1968, s. 244
14. John L. Esposito, The Islamic Threat: Myth or Reality, Oxford University Press, New York, 1992, s. 39
15. Geste Francorum, or the Deeds of the Franks and the Other Pilgrims to Jerusalem, trans. Rosalind Hill, London, 1962, s. 91
16. August C. Krey, The First Crusade: The Accounts of Eye-Witnesses and Participants, Pinceton & London, 1921, s. 261
17. August C. Krey, The First Crusade: The Accounts of Eye-Witnesses and Participants, Pinceton & London, 1921, s. 262
18. Alan Ereira, David Wallace, Crusades: Terry Johns Tell the Dramatic Story of Battle for Holy Land, BBC World Wide Ltd., 1995.
19. The Alarm Newspaper Article, "Bakunin's Ground-Work for the Social Revolution," 1885 Dec. 26, s. 8
20. The Alarm Newspaper Article, "Bakunin's Ground-Work for the Social Revolution," 1885 Dec. 26, s. 2
21. Karen Armstrong, Holy War: The Crusades and Their Impact on Today's World, MacMillan, London, 1988, s. 30-31
22. John L. Esposito, Islam: The Straight Path. Oxford University Press, 1991, s. 58
23. Sənəd İbn Abdulhakimin Fütuh Misir və Ahbaruhasından alınmış, P.K. Hitti də oradan “History of Arabs” adlı əsərinə daxil etmiştir. (London: MacMillan, 1950) s. 163. İslam Kültür Atlası, İsmail Rai el-Faruki, Luis Lamia el-Faruki, tərcümə: Mustafa Okan
24. Karen Armstrong, Holy War: The Crusades and Their Impact on Today's World, MacMillan, London, 1988, s. 185
25. Bernard Lewis, İslam Dünyasında Yahudiler, İmge Kitabevi, İstanbul, 1996, Yahudi Ansiklopedisi, Cilt 1, Yusuf Besalel, Gözlem Gazetecilik Basın ve Yayın AŞ, 2001, s. 246
26. Charles Darwin, The Descent of Man, 2. nəşr, New York, A L. Burt Co., 1874, s. 178
27. Lalita Prasad Vidyarthi, Racism, Science and Pseudo-Science, Unesco, France, Vendôme, 1983. s. 54
28. Theodore D. Hall, "The Scientific Background of the Nazi "Race Purification" Program".
29. James Joll, Europe Since 1870: An International History, Penguin Books, Middlesex, 1990, s. 164
30. James Joll, Europe Since 1870: An International History, Penguin Books, Middlesex, 1990, s. 164
31. Anthony Smith, İnsan, Yapısı ve Yaşamı, Remzi Kitapevi, İstanbul, 1979, s. 33

32. Henry Morris, The Long War Against God, 1989, s. 78
33. Tenenbaum, J., Race and Reich, Twayne Pub., New York, p. 211, 1956; http://trueorigin.org/holocaust.php
34. Peter Chrisp, The Rise Of Fascism, Witness History Series, s. 6
35. Hickman, R., Biocreation, Science Press, Worthington, OH, s. 51–52, 1983; Jerry Bergman, "Darwinism and the Nazi Race Holocaust", Creation Ex Nihilo Technical Journal 13 (2): 101-111, 1999
36. Robert M. Young, Darwinian evolution and human history, Historical Studies on Science and Belief, 1980
37. Alan Woods and Ted Grant. "Marxism and Darwinism", Reason in Revolt: Marxism and Modern Science, London, 1993
38. Mehnert, Kampf um Mao's Erbe, Deutsche Verlags-Anstalt, 1977
39. K. Marks, Kapital, 1867, İng., cild 1, s. 703.
40. V.İ.Lenin. Əsərlərinin tam külliyatı, 29-cu cild, siyasi ədəbiyyat nəşriyyatı, Moskva, 1973. Fəlsəfi dəftərlər: Dialektika məsələsinə dair, s. 317
41. V.İ.Lenin. Əsərlərinin tam külliyatı, 14-cü cild, siyasi ədəbiyyat nəşriyyatı, Moskva, 1972. Sentyabr 1906-fevral 1907. "Proletariy" bolşevik qəzeti – 30 sentyabr 1906-cı il, № 5
42. Alaeddin Şenel, Irk ve Irkçılık Düşüncesi, Ankara:Bilim ve Sanat Yayınları, 1993, s. 62-6
43. Robert Clark, Darwin: Before and After, Grand Rapids International Press, Grand Rapids, MI, 1958., s. 115-116; Jerry Bergman, Darwinism and the Nazi Race Holocaust, http://www.trueorigin.org/holocaust.htm
44. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2
45. Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), s. 196
46. "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, noyabr 1982, s. 1328-1330
47. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7.
48. Jeffrey Bada, Earth, fevral 1998, s. 40.
49. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, oktyabr 1994, s. 78
50. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184
51. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184.
52. B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.
53. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179
54. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 171, 280
55. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133
56. Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197
57. Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, s. 389
58. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992
59. Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272
60. Jeffrey Kluger, "Not So Extinct After All: The Primitive Homo Erectus May Have Survived Long Enough To Coexist With Modern Humans," Time, 23 December 1996.
61. S. J. Gould, Natural History, c. 85, 1976, s. 30
62. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19
63. Richard Lewontin, "The Demon-Haunted World," The New York Review of Books, January 9, 1997, p. 28.
64. Malcolm Muggeridge, The End of Christendom, But Not of Christ (Grand Rapids: William B. Eerdmans Publishing Co., 1980), pp. 59